ISSN 0206-4340

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ



BAKI - 2014

№ 1

Scanned with ACE Scanner

ELMİ-METODİK JURNAL

Təsisçi: Azərbaycan Respublikası Təhsil Nazirliyi

№ 1 (239). Yanvar – Mart 2014-cü il. Jurnal 1954-cü ildən çıxır.

# MÜNDƏRİCAT

## SƏRƏNCAMLAR

İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında ........ 2
Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında ........ 3
Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında ........ 4
Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında........ 5

## ƏLİ BƏY HÜSEYNZADƏ – 150

**Ə.Quliyev** – Türk dünyasının dahi fikir və söz adamı ........ 6

## DİLÇİLİK VƏ ƏDƏBİYYATŞÜNASLIQ

**S.Ələsgərova** – S.C.Pişəvarinin həyat və fəaliyyəti müasir ədəbiyyatşünaslığın nəzər nöqtəsində ........ 18

## ÜMUMTƏHSİL, ORTA İXTİSAS VƏ ALİ MƏKTƏBLƏR: TƏDRİS METODİKASI, İŞ TƏCRÜBƏSİ

**R.Əliyev** – Ədəbiyyat tarixinin tədrisində H.Əliyev nəzəri irsi və şəxsiyyəti ilə bağlı məsələlər ........ 26
**A.Hacıyev** – Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məzmunca işlənilməsi ........ 31
**Y.Babayev** – Şah İsmayıl Xətai lirikasının tədrisi ........ 38
**B.Həsənli** – X sinifdə Hüseyn Cavidin "İblis" faciəsinin təhlilində yeni texnologiyaların tətbiqi ........ 48
**Ş.Mirzəyeva** – Təlim rus dilində olan məktəblərdə Hüseyn Arifin "Azərbaycan" şeirinin öyrədilməsi ........ 54
**Q.Qəmbərova** – Sintaktik təhlil qrammatik təhlilin tərkib hissəsi kimi ........ 57

## PEDAQOJİ SÖHBƏT

**M.Baharlı** – Şagirdlərinizi tanıya bilirsinizmi? ........ 60

## POLEMİKA

**V.Qurbanov, H.Qədimova** – Yeni Azərbaycan dili dərslikləri: mülahizələr ........ 70

## XƏBƏR – SERVİS

Ədəbi aləmdə ........ 77
Xarici ölkələrdə ........ 78
Yeni nəşrlər ........ 79

* * *

*Jurnalın üzqabığının 1-ci səhifəsində:* ***Əli bəy Hüseynzadə.***

Scanned with ACE Scanner

# İLYAS ƏFƏNDİYEVİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin may ayında Azərbaycanın xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illiyi tamam olur.

İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycanın teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafında mühüm xidmətləri olan İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
*Bakı şəhəri, 16 yanvar 2014-cü il.*



# ƏLİ BƏY HÜSEYNZADƏNİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin fevral ayında Azərbaycanın ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi tamam olur.

Türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verən görkəmli ictimai xadim Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

3. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Əli bəy Hüseynzadənin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
*Bakı şəhəri, 21 yanvar 2014-cü il.*



Scanned with ACE Scanner

# MİRZƏ ŞƏFİ VAZEHİN 220 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin anadan olmasının 220 illiyi tamam olur.

Vazeh Şərq poeziyasının çoxəsrlik ənənələrini layiqincə yaşatmış və yüksək insanpərvərliyi, mənəvi gözəlliyi tərənnüm edən diqqətəlayiq irs qoyub getmişdir. Onun yaradıcılığı Azərbaycanın Avropa ilə ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus mühüm yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli şair və maarifçi Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Şəfi Vazehin 220 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
*Bakı şəhəri, 3 fevral 2014-cü il.*



# ABBASQULU AĞA BAKIXANOVUN 220 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu Ağa Bakıxanovun anadan olmasının 220 illiyi tamam olur.

Ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu Ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri vardır. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tətqiqi mərhələsi Bakıxanovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ictimai fikrin, elmin və mədəniyyətin inkişafına dəyərli töhfələr vermiş Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
*Bakı şəhəri, 12 fevral 2014-cü il.*



Scanned with ACE Scanner

# TÜRK DÜNYASININ DAHİ FİKİR VƏ SÖZ ADAMI

**Əsgər QULİYEV,**
**Azərbaycan Respublikası Təhsil Nazirliyi dərslik və nəşriyyat şöbəsi müdirinin müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim**

*Bu il fevralın 24-də XX əsr Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, türkçülük məfkurəsinin böyük carçısı, tanınmış ədib, publisist, maarifçi, rəssam və təbabət alimi Əli bəy Hüseynzadənin (1864-1940) anadan olmasının 150 illiyi tamam olur. Böyük Azərbaycan ziyalısı Əli bəy Hüseynzadənin yubileyinin ölkə miqyasında dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən «Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında» 21 yanvar 2014-cü il tarixli Sərəncam imzalanmış, bu tarixi yubileyin keçirilməsi ilə bağlı müvafiq dövlət qurumlarına tapşırıqlar verilmişdir. Sərəncamda deyildiyi kimi, türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən Əli bəy Hüseynzadə çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə də qiymətli töhfələr vermişdir.*

*Hesab edirəm ki, klassik mədəni irsə, milli-mənəvi dəyərlərə dövlətin və dövlət başçısının daimi diqqət və qayğısının parlaq təzahürü olan bu tarixi Sərəncamın Əli bəy Hüseynzadənin Azərbaycanın məktəb və pedaqoji fikir tarixinin öyrənilməsində, xalqımızın milli oyanışı, özünüdərki və dirçəlişində, milli məfkurənin yaranmasında, milli maarifçilik hərəkatının inkişafında, mətbuat və mədəniyyətimizin tərəqqisi yolunda, milli dövlətçiliyimizin formalaşmasında təmənnasız xidmətlərinin müstəqil dövlətçilik təfəkkürü kontekstində yenidən dəyərləndirilməsində, onun zəngin irsinin dərindən tədqiqi və təbliğində müstəsna rolu vardır.*

***

Müasirləri böyük Azərbaycan mütəfəkkiri, milli ideologiya səviyyəsində türkçülüyün “Ana Yasası” kimi dəyərləndirilən “türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)” triadasının yaradıcısı və ilk carçısı, milli bayrağımızdakı rənglər simvolikasının müəllifi, türk dünyasında milli özünüdərkin və milli istiqlal düşüncəsinin mücahidi, XX əsr Azərbaycan ədəbiyyatında “Füyuzat” ədəbi məktəbinin banisi, ensiklopedik şəxsiyyət, böyük maarifçi-pedaqoq Əli bəy Hüseynzadənin (1864-1940) türklük, islamlıq, millət və Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək, onu “Qafqaz müsəlmanlarının atası”, “Qafqazdakı türk balalarına türklüyünü bildirən, həsəb-nəsəbini (soykökünü) öyrədən”, “rəsuli- həqq” (“haqq elçisi”),



“irqin (türklərin) ən mükəmməl öndəri”, “külli-müsəlman aləminin iftixarı”, “türk xalqlarına kimliyini bildirən dahi”, “bütün türk dünyasında peyğəmbər kimi üfüqlər açan”, “ilk turançı”, “dahi mütəfəkkir”, “fövqəlbəşər”, “qüzey günəşi”, “bütün türk dünyasının mücahidi”, “türkçülüyün babası (atası), “milliyyətçi və mütəfəkkir”, “imanlı türkçü”, “yazı ustadı” və s. bu kimi yüksək epitetlərlə öyür, təqdir edirdilər. Sözsüz, bütün bunlar səbəbsiz deyildi. Çünki bu böyük İNSAN, dahi fikir və söz adamı 76 illik şərəfli ziyalı ömrünün yarım əsrdən çoxunu yorulmadan, usanmadan bütövlükdə türklüyün inkişafına, o cümlədən Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli istiqlal mücadiləsinə, milli dövlətçiliyin formalaşdırılmasına həsr etmişdi...

XIX əsrin sonu -XX əsrin əvvəllərində Azərbaycan xalqının milli oyanışında, əsası Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi tərəfindən qoyulan milli maarifçilik hərəkatının, islamçılıq və qərbçilik (avropaçılıq) ideyalarının davam və inkişaf etdirilməsində müstəsna rol oynamış, millətimizin islam ümmətçiliyindən islam milliyyətçiliyinə və oradan türk milliyyətçiliyinə keçidinin əsas ideya və əməl rəhbərlərindən (Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayevlə birgə) biri olan Əli bəy Hüseynzadə özünün irəli sürüb əsaslandırdığı “türkləşmək, islamlaşmaq, avropalaşmaq” milli dirçəliş və milli istiqlal formulu (düsturu) ilə türkçülüyün siyasi məramnaməsini və elmi-nəzəri əsaslarını, müasirlərinin dediyi kimi, milli istiqlal mücadiləsinin “Ana Yasası”nı verməklə milli tariximizə “türkçülüyün atası” kimi öz əbədi imzasını atmış oldu. Az sonra Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik ideologiyasına çevrilən bu triada (“üçlü məram”) milli bayrağımızdakı rənglər palitrası vasitəsilə əbədiləşdi və sonsuzluğa qədər Azərbaycan xalqının qan yaddaşına daxil oldu. Bu mənada bu gün də başlarımız üzərində əzəmətlə dalğalanan milli bayrağımızdakı üç rəngin bildirdiyi simvolik məna Əli bəy Hüseynzadənin müəllifi olduğu “türkləşmək, islamlaşmaq, müasirləşmək” formulunun rənglərlə ifadəsindən ibarətdir. Əli bəy Hüseynzadə belə hesab edirdi ki, azərbaycanlıların millət məfkurəsi türkləşmək, dini məfkurəsi islamlaşmaqdırsa, iqtisadi, mədəni, sosial-siyasi məfkurəsi avropalaşmaq (müasirləşmək) olmalıdır. Türkiyədə türkçülüyün böyük ideoloqu kimi tanınan Ziya Göyalp Əli bəyi özünün ustadı sayaraq sonralar həmin üçlü qayənin sosioloji baxımdan “millətini tanı, ümmətini tanı, mədəniyyətini tanı!” anlamını verən “türk millətindənəm, islam ümmətindənəm, Batı (qərb, Avropa) mədəniyyətindənəm ” şəklində formula etmişdir...

Əli bəy Hüseynzadə milli mədəniyyət və ictimai-siyasi fikir tariximizdə təkcə dahi mütəfəkkir şəxsiyyət kimi deyil, eyni zamanda böyük maarifçi - pedaqoq - ziyalı, məşhur həkim-tibb professoru, rəssam, musiqişünas kimi də tanınmaqdadır. Bu mənada Əli bəyin müasiri olmuş, görkəmli tarixçi Yusif Akçuraoğlu haqlı olaraq yazırdı ki, əfsanəvi Əli bəy dünyanın bütün dillərini, elm və fənlərin hər növünü, ədəbiyyat və incəsənətin hər şöbəsini tamamən əhatə etmiş və tətbiqə müvəffəq olmuş fövqəlbəşər idi ...



Scanned with ACE Scanner

Azərbaycanın milli təhsil və pedaqoji fikir tarixinə də dəyərli töhfələr vermiş bu böyük mütəfəkkirin maarifçilik görüşlərində millətin tərəqqi və oyanışında, mədəni yüksəlişində maarifin, təhsilin, elm və mədəniyyətin müstəsna roluna, milli istiqlala aparan yolun məhz xalqın maariflənməsindən keçməsinə və bu yolda ana dilində tədrisin təməl prinsip olmasına, ümumbəşəri dəyərlərdən milli təkamül və inkişafda istifadənin əsas şərtlərinə dair müdrik fikirlərindən bir neçəsini xatırlatmaq yerinə düşərdi.

- *"Türk xalqları birinci dövrdə qılıncla (Hun imperatorluğu dövrü nəzərdə tutulur. – Ə.Q.), ikinci dövrdə dinlə (Osmanlı imperatorluğu dövrü. - Ə.Q.) parlamışdırsa, indi isə, yəni üçüncü dövrdə (XX əsrdə) elm və biliklə parlamalıdırlar...", "Bizə qılınc deyil, əhli-maarif lazımdır...";*
- *"Maarif, ittihad (milli birlik ), hürriyyət (azadlıq) ! Nə qədər gözəl nemətlər! Bunları unutmayalım! Çünki əsl nicat bu üç qüvvətdədir... ";*
- *"Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyəti-avam arasında nuri-maarifi əkməkdir...";*
- *"Bilgi,.. və elm lisan (dil ) ilə olur. Bir əcnəbi lisanında dəxi elm təhsil oluna bilər. Fəqət bu surətlə təhsil olunan elm məhdud fərdlərin beynində qalır. Millətin əksəriyyəti arasında yayılmır. Elm və maarif əksəriyyət beynində inkişaf etmək üçün lazımdır ki, millətin öz ana dili maarif təhsilinə alət (vasitə) olsun...";*
- *"Avropa elminə, maarifinə, ədəbiyyatına, sənət və sənayesinə bələd olmağa (öyrənməyə) və millətimiz beynində yaymağa çalışmalıyız... ";*
- *"Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik,, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istərik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın ... "* və s.

**Hörmətli oxucu!** Diqqətlə fikir verdinizsə, Əli bəyin 100 il bundan qabaq böyük uzaqgörənliklə söylədiyi bu müdrik kəlamlardakı işıqlı, nurlu ideyalar nəinki köhnəlməyib, əksinə bu günümüzlə də həmahəng səslənir. Böyük maarifçi XX əsrin böyük kəşflər, yeni texnologiyalar əsri olacağını irəlicədən görür və türk xalqlarını, o cümlədən, Azərbaycan xalqını şanlı keçmişi ilə öyünməyi bir tərəfə atıb, elm, maarif və mədəniyyət əsrində dünya xalqları içərisində özünəlayiq yer tutmağa səsləyirdi.

Diqqət edin, BMT XXI əsri ötən əsrin sonlarında "Təhsil əsri " – "İntellekt əsri" elan edib. Əli bəy bir əsr bundan qabaq XX əsri "elm və bilik əsri" (əslində "təhsil") hesab edir, millətimizin elmlə, maariflə, təhsillə inkişaf edəcəyinə (parlayacağına ) inanırdı. O inanırdı ki, milli istiqlala gedən yol öz başlanğıcını maarifdən, elmdən, təhsildən götürür...

Xalqın maariflənməsinin təməl yolunun ana dilinin əsas tədris dilinə-təhsil, təlim vasitəsinə çevrilməsi haqda Əli bəyin müdrik fikri bu gün də aktual səslənir. Azərbaycanda bu böyük maarifçinin nurlu ideyasının təməli ilk dəfə Xalq Cümhuriyyəti (1918-1920-ci illər) illərində qoyuldu. Nə



xoşbəxtik ki, bu gün müstəqil Azərbaycanda milli təhsilimizin əsas təlim - tədris dili dövlət dili olan Azərbaycan dilindədir...

Nəhayət, Əli bəyin millətin tərəqqisi naminə Avropa elm, təhsil və mədəniyyətinin əsas nailiyyətlərinin, ümumbəşəri dəyərlərinin öyrənilməsi, bu zaman xalqımızın "onların beyinlərini həzm etməsi, fəqət mədələrində həzm olunmaması" barədə peyğəmbərcəsinə söylədiyi işıqlı ideyalar bu gün Avropa təhsil məkanına inteqrasiya yolunu tutmuş Azərbaycan təhsilinin prioritet istiqamətlərindən biridir...

Əli bəy Hüseynzadə fenomenal fikir adamı, tarixdə böyük izlər qoymuş nurlu şəxsiyyət, böyük ziyalı idi. Lakin, təəssüf ki, Azərbaycanın ictimai-siyasi və mədəni fikir tarixinin, bütövlükdə türk dünyasının bu böyük şəxsiyyəti sağlığında müasirləri tərəfindən yüksək qiymətləndirilsə də, Azərbaycanda 28 Aprel çevrilişi nəticəsində meydana çıxan sovet rejimində kommunist ideologiyası digər milli-mənəvi dəyərlər kimi, Əli bəy Hüseynzadə fenomenini də unutdurmaq, onun böyük əməllərini xalqın yaddaşından silmək, tarixi xidmətlərini saxtalaşdırmaq yolunu tutdu. Bu böyük insan haqqında böhtan və iftiralara geniş meydan verildi, adına cürbəcür "yarlıqlar" ("burjua millətçisi", "pantürkist" və s.) yapışdırıldı, qohumları "qırmızı terrora" məruz qaldı, əsərlərinin nəşrinə qadağalar qoyuldu...

Görkəmli ədəbiyyatşünas alim, mərhum Yaşar Qarayevin sözləri ilə desək, Azərbaycan sovet ədəbiyyatşünaslığında (1920-1991-ci illər) və siyasi-ictimai fikrində Əli bəy Hüseynzadəyə və "Füyuzat" ədəbi məktəbinə qarşı yağdırılmış iftira və böhtan fəvvarəsi ilə müqayisədə hətta üzdəniraq "erməni mənbələri" və "əlyazmaları" da "toya getməli" görünürdü... (Bax: Ə.Hüseynzadə seçilmiş əsərləri, Bakı, 2007, "ön söz").

Lakin sovet rejiminin bütün basqı və qadağalarına baxmayaraq, Əli bəy Hüseynzadənin böyük adı və əməllərini xalqın yaddaşından silmək, tarixin səhifələrindən çıxarmaq mümkün olmadı. XX əsrin sonunda Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyinə qovuşması Əli bəy Hüseynzadə fenomenini yenidən millətimizə, mədəniyyətimizə, ədəbiyyatımıza, bütövlükdə ictimai-siyasi fikir tariximizə qaytardı. Bu, əslində Əli bəy Hüseynzadənin doğulduğu, lakin çox az müddət yaşadığı doğma Vətəninə bir növ mənəvi qayıdışı idi ki, bu missiyanın önündə ömrünü bu böyük mütəfəkkirin əsərlərinin toplanmasına, tədqiqinə, nəşrinə və təbliğinə həsr etmiş görkəmli mətnşünas alim mərhum Ofelya xanım Bayramlı gəlir. Onun tərtibçiliyi ilə Əli bəy Hüseynzadənin kamil 2 cildlik seçilmiş əsərləri, "Füyuzat" jurnalının tam komplekti latın əlifbasında nəşr edildi. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Prezident Sərəncamına uyğun olaraq onun bircildlik seçilmiş əsərləri kütləvi tirajla çap olunaraq ölkənin bütün kitabxanalarına hədiyyə edildi. Əli bəy Hüseynzadənin son illərdə ictimai-siyasi, ədəbi fəaliyyətinə dair xeyli araşdırmalar aparılmış, haqqında Rəfiq Zəka, Azər Turan, Şamil Vəliyevin (Körpülünün) dəyərli monoqrafiyaları nəşr edilmiş, çoxsaylı elmi, elmi-kütləvi məqalələr çap olunmuşdur.



Scanned with ACE Scanner

Etiraf etməliyik ki, bu dahi söz və fikir adamının çoxcəhətli fəaliyyəti xalqa hələlik gərəyincə və yetərincə çatdırılmayıb. Onun zəngin bioqrafiyasında öyrənilməli və faydalanmalı məqamlar kifayət qədər çoxdur...

**Əziz oxucu!** Böyük ömrün tarixi məqamlarını gəlin birlikdə vərəqləyək...

Əli bəy Hüseyn bəy oğlu Hüseynzadə 24 fevral 1864-cü ildə Azərbaycanın qədim şəhərlərindən olan Salyanda ruhani müəllim ailəsində doğulub. Balaca Əli bəy ibtidai təhsilini atası Molla Hüseynin də müəllim işlədiyi Tiflis Müsəlman Məktəbində alıb. Çox erkən yaşlarında valideynlərini itirən Əli bəy ana babası-böyük maarifpərvər, müasirləri tərəfindən "Qafqazın birinci adamı" adlandırılan Qafqaz Şeyxülislamı Axund Əhməd Səlyanının (1812-1884) himayəsində qalıb. Altısinifli müsəlman məktəbini uğurla başa vuran Əli bəy babası Axund Əhmədin tövsiyəsi və "Rusiyada iki böyük türkçüdən biri" (Ziya Göyalp) sayılan Mirzə Fətəli Axundzadənin (1812-1978) köməkliyi ilə 1875-1885-ci illərdə Tiflis şəhər 1-ci kişi gimnaziyasında mükəmməl tam orta təhsil alıb. 1885-ci ildə Sankt-Peterburq Universitetinin fizika - riyaziyyat fakultəsinə daxil olmuş, oranı 1889-cu ildə fərqlənmə diplomu ilə bitirmişdi. Tələbəlik illərində o, həm də Sankt-Peterburq Rəssamlıq Akademiyasının məşğələlərində azad dinləyici kimi iştirak etmiş, rəssamlıq sahəsində istedad və bacarığını təkmilləşdirməyi də unutmamışdı...

Sankt-Peterburqda universitet təhsili alan Əli bəy bununla kifayətlənməmiş, Türkiyəyə gedərək İstanbul Universitetinin əsgəri-tibb fakültəsində (1890- 95) ali tibb təhsili də almışdı.

Əvvəllər bir müddət həkim - dermatoloq, sonralar isə İstanbul Universitetində professor köməkçisi işləyən Əli bəy Hüseynzadə siyasi fəaliyyətə qoşulur. Buna görə də Sultan II Əbdülhəmidin onun haqqındakı həbs qərarı ilə bağlı təqiblərdən qorunmaq məqsədilə 1903-cü ildə köhnə tanışı olan bir hindli tacirin gəmisində gizli şəkildə Hindistana, oradan Çinə, nəhayət, Bakıya gəlib çıxır...

Əli bəy Hüseynzadənin həyatında Bakı dövrü (1903-1910-cu illər) yeni mərhələnin başlanğıcı olur. Rusiyadan kənarda təhsil aldığı üçün Bakıda həkimlik işinə qəbul edilməyən Əli bəy publisistik fəaliyyətlə məşğul olmağa başlayır. Bu illərdə Bakıda yaşayıb - yaradan Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev kimi tanınmış ziyalılarla sıx təmaslar qurur, böyük mesenat, maarifçi-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə millətin oyanışında, insan hüquqlarının qorunmasında, xalqın maariflənməsində əvəzsiz vasitə olan mətbuat vasitəsilə milli mücadiləyə başlayır. Çünki o dövrün ziyalıları hesab edirdilər ki, «mətbuat bir millətin lisanı (dili), samiəsi (qulağı), nəzəri (gözü), beyni deməkdir. Mətbuatsız millət söyləyəməz, eşidəməz, görəməz... («Füyuzat» 1907, №29)...

Bu illərdə Rusiyada baş verən siyasi proseslər çar hökümətini müəyyən islahatlar aparmaq məcburiyyətinə qoyur. Bu tarixi şəraitdən yararlanmaq istəyən Azərbaycan ziyalıları 1905- ci il martın 15-də Hacı Zeynalabdin Tağıyevin mülkündə yığıncaq keçirərək yerli azərbaycanlılara da



mədəni, sosial-iqtisadı, siyasi hüquq və azadlıqların, o cümlədən ana dilində ümumi təhsilin verilməsinə, mətbuat və kitabların nəşr edilməsinə dair Rusiya hökumətinə təqdim etmək üçün ərizə (petisiya) hazırlayırlar. Bu sənədin hazırlanmasında Əlimərdan bəy Topçubaşov (Topçubaşi), Əhməd bəy Ağayev (Ağaoğlu), Əsədulla bəy Muradxanov, Fərrux bəy Vəzirov, Adilxan Ziyadxanov, Mirzə Əsədullayev, Mustafa ağa Vəkilov və başqaları ilə yanaşı, Əli bəy Hüseynzadə də fəal iştirak edir. Azərbaycan türklərinin bu istək və tələblərini Qafqaza yeni canişin təyin olunmuş Vorontsov-Daşkova çatdırmaq üçün Hacının maliyyə yardımı ilə Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayevdən ibarət nümayəndə heyəti Sankt-Peterburqa göndərilir. Həmin il aprelin 21-də canişinlə görüşən Azərbaycan ziyalıları digər tələblərlə yanaşı, ana dilində "Həyat" qəzetinin nəşrinə icazə istədiklərini ona çatdırırlar. Çox çətinliklə qəzetin nəşrinə razılıq verilir...

"Həyat" qəzetinin sahibi-imtiyazı mərhəmətli Hacı Zeynalabdin Tağıyev, naşiri Əlimərdan bəy Topçubaşov, redaktorları Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev idi. Azərbaycanın bu üç böyük fikir nəhəngi və söz adamının rəhbərliyi ilə nəşrə başlayan "Həyat " o dövrdə Azərbaycanda nəşr olunan yeganə anadilli qəzet idi. Azərbaycan xalqının milli dirçəlişində, türkçülük ideyalarının yayılmasında müstəsna rol oynamış bu qəzet qısa ömürlü (07.06.1905-04.09.1906) olsa da, milli mətbuat, eləcə də ictimai-siyasi fikir tarixində dərin izlər qoymuşdu. Bu işdə Əli bəyin xüsusi xidmətləri olmuşdu. Qəzet ilk nömrəsindən bağlanana kimi türkçülüyün, islamçılığın və qərbçiliyin (müasirliyin) siyasi tribunasına çevrilmişdi ki, bunun da mərkəzində Əli bəyin işıqlı ideyaları dururdu...

XIX əsrin ikinci yarısında rus çarizmi digər milli-mənəvi dəyərlər kimi xalqımızın adına da "təcavüz" etmiş, onun əsil "türk" adını qadağan etməyə, uydurma "tatar" ,"müsəlman" adları ilə soykökünü unutdurmağa qismən "nail olmuşdu". İş o həddə çatmışdı ki, xalqımızın nümayəndələrindən milliyyətini soruşduqda "müsəlmanam", - deyə cavab verir, öz soykökünü deməkdən belə çəkinirdi. Bu acı həqiqəti görən görkəmli ədib Ömər Faiq Nemanzadə "Mən kiməm? " adlı yazısında ürək ağrısı ilə yazırdı: *"Hə ey türk! İstər darıx, istər karıx, yaxandan əl çəkəcək deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda bircə zadı-yəni özünü bilmək istəmirsən, niyə öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan..."*

Bəli, belə bir tarixi şəraitdə, yəni "türk" kəlməsinin hətta dilə belə gətirilmədiyi, "Mən türkəm" söyləməyə imkan verilmədiyi bir tarixi məqamda Əli bəy Hüseynzadə "Həyat "qəzetinin səhifələrində çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir ?" adlı əsəri ilə türk xalqlarına, o cümlədən Azərbaycan türklərinə üz tutaraq "Biz tatar deyilik, biz türkük",- deyə hayqırdı, xalqa öz adıyla "türk" dedi və bunu başqalarına da dedirtdi, türklərin kimliyini onlara anlatdı. Bu mənada Azərbaycanda türkçülük



Scanned with ACE Scanner

hərəkatının həqiqi tarixi Əli bəyin redaktoru olduğu "Həyat" qəzeti ilə başlayır. Təsadüfi deyil ki, görkəmli çağdaş Amerika tarixçisi Tadeuş Svyatoçovski doğru olaraq, "XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Əli bəy Hüseynzadə idi ", - deyirdi ...

Lakin Əli bəyin qəzetdəki türkçülük, islamçılıq və qərbçilik ideyaları türkün əbədi düşmənləri, xüsusən də rusların əlində türklərə qarşı hər zaman bir alət rolunu oynayan ermənilərı ciddi narahat edirdi. Erməni xəfiyyələrinin "Həyat" qəzeti barədə donoslarının birinin üstündə Qafqaz canişininin dərkənarında təcili olaraq "Həyat"ın sərlövhəsindəki "türk" sözünün silinməsi, əvəzinə "tatar" sözünün yazılması" əmr edilirdi. Lakin Əli bəy nəinki "türk" sözünü "tatar"la əvəzlədi, əksinə, "bu məsələ qayət mühümdür",- deyərək "Biz ki, türk oğlu türkük, biz ki, millətlərin ən qədimi və ulusuyuq", -deyə türklüyü təqdir etməkdə davam etdi. Buna görə də türkün düşmənlərinin təzyiqi ilə "Həyat" qapandı...

Çox keçmədi ki, böyük maarifçi, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı və Əli bəy Hüseynzadənin redaktorluğu ilə "Füyuzat" dərgisi (1906- 1907) nəşrə başladı. Əli bəy "Həyat"da başladığı türkçülük ideyalarını "Füyuzat"da da davam etdirərək, türkçülüyün siyasi proqramı olan "türkləşmək, islamlaşmaq, avropalaşmaq" formulunu bitkin bir sistem halına gətirdi: "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır" ("Füyuzat", 1907, №23), - deyə öz ideyasına sadiqliyini bir daha təsdiqlədi... Yeri gəlmişkən, deyək ki, müəllifi Əli bəy Hüseynzadə olan bu üçlü məramın müasir tarixşünasliqda ilk dəfə düzgün, ətraflı elmi şərhinin bu sətirlərin müəllifinin "Azərbaycan Respublikasının dövlət rəmzləri " kitabında (Bakı, 2001, s. 38-89) verildiyi elmi ədəbiyyatda da etiraf olunmuşdur. (Bax : "Füyuzat" . Bakı, 2006, "Ön söz, "s. XIII; "Respublika" qəzeti, 12, 15 may 2002 –ci il ).

Əli bəy Hüseynzadənin bu dərgisi Azərbaycan ədəbiyyatında yeni bir istiqamətin - "Füyuzat" ədəbi məktəbinin (Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqalarının təmsil olunduğu romantik ədəbiyyat) yaranmasına gətirib çıxardı. Lakin onun da ömrü qısa oldu və qəfildən bağlandı...

Bu qapanmanın maraqlı tarixçəsi vardır. O dövrün mətbuat səhifələrindən öyrənirik ki, Türkiyə Sultanı II Əbdülhəmidin taxta çıxmasının 32- ci ildönümü münasibəti ilə məcmuənin sahibi-imtiyazı Hacı Zeynalabdin Tağıyev görkəmli din xadimi Məhəmməd Kərim Ağanın Azərbaycan türkcəsinə tərcümə etdiyi "Qurani–Kərim"i altun cild, qiymətli daş və almazlarla bəzədərək görkəmli maarifçi və din xadimi Axund Yusif Talıbzadənin (1877 – 1922) vasitəsilə Sultan II Əbdülhəmidə hədiyyə göndərir. Hədiyyəni qəbul edən Sultan Axund Yusifə müraciətlə: "Bir şeyi anlamıram. Hacı Zeynalabdin bəy dərgisində məni həcv edir, sonra da mənə hədiyyə göndərir", - deyə narazılığını bildirir. Axund Yusif Bakıya dönən kimi Sultanın iradını Hacıya çatdırır. O da dərhal məcmuənin bağlanmasına qərar verir. Müasirləri tərəfindən "Azərbaycan türklərinin milli haqlarının aynası" (A.Şaiq) hesab edilən "Füyuzat" dərgişi 1907-ci il noyabrın 1-də



beləcə qapanır... Onu da deyək ki, bu illərdə Əli bəy Hüseynzadə Rusiya I Dövlət Dumasının buraxılmasına etiraz əlaməti olaraq "Vıborq bəyamnaməsi"ni imzaladığına görə həbs olunan Əlimərdan bəy Topçubaşovun əvəzinə, müvəqqəti olaraq rusca "Kaspi" qəzetinə də baş mühərrirlik (redaktorluq) (1907) etmişdi...



**Əli bəy Hüseynzadə**

**1-ci Beynəlxalq Türkoloji Qurultayın nümayəndələri arasında (Bakı, 1926).**
**Solda Mehmet Fuad Köprülü; Əli bəy Hüseynzadə; sağda Salman Mümtaz**

Əli bəy Hüseynzadə publisistik fəaliyyətlə yanaşı, ziyalı-müəllim ailəsində doğulan, xarizmatik bir ziyalı kimi pedaqoji sahəyə də xüsusi diqqət ayırmağı unutmamışdı. 1907-ci ilin avqustun 25-dən sentyabrın 4-dək Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin II qurultayının təşkili və keçirilməsində müstəsna rol oynamışdı. Qurultayda "Füyuzat" məcmuəsi və "Kaspi" qəzetinin müdiri kimi Əli bəy Hüseynzadə sədr, görkəmli pedaqoq Mahmud bəy Mahmudbəyov və müəllim Süleyman bəy (Sani) Axundov sədr müavinləri, müəllimlər: Üzeyir bəy Hacıbəyli, Mirzə Abdulla Talıbzadə (A.Şaiq) və Fərhad bəy Ağazadə katib seçilmişdilər. Qurultayda Azərbaycanda məktəb təhsilinin vacib məsələləri müzakirə edilmiş, dəyərli qərarlar qəbul edilmişdi. Qurultayın gedişi haqqında "Füyüzat" jurnalında (27-31-ci nömrələrdə) ətraflı stenoqrafik məlumat verilmişdi ki, bu məlumatlar bu gün həmin qurultay haqqında ən etibarli və dəyərli mənbə sayılır.

"Füyüzat" məcmuəsi bağlandıqdan sonra Əli bəy fəaliyyətini pedaqoji sahədə davam etdirmiş, 1908-1910-cu illərdə "Səadət" Ruhani Xeyriyyə Cəmiyyətinin Bakıda təsis etdiyi (1908) "Səadət" məktəbində



Scanned with ACE Scanner

əvvəlcə türk dili və ədəbiyyatı müəllimi, məktəbin müdiri, əslən iranlı olan Mirzə Ələkbər Xan Bəhmən diplomatik fəaliyyətə keçdikdən sonra, həmin məktəbin müdiri olmuşdu. Əli bəy Hüseynzadənin müdir olduğu dövrdə müəllimlər işə müsabiqə yolu ilə seçilib qəbul edilirdi. Belə müəllimlərdən biri də məşhur Üzeyir bəy Hacıbəyli idi. Böyük Üzeyir bəy o zaman həmin məktəbə rus dili və hesab müəllimi kimi qəbul edilmişdi. Təkcə bu fakt Əli bəy Hüseynzadənin parlaq pedaqoji fəaliyyətinin bir örnəyi kimi onun maarifə, məktəbə, müəllimə hansı yüksək meyarlarla yanaşdığını aydın şəkildə göstərməkdədir...

Əli bəyin Üzeyir bəylə əməkdaşlığı təkcə məktəb həyatı, mətbuatla yekunlaşmamışdı. Belə ki, türk - islam dünyasında ilk opera sayılan Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasının Hacı Zeynalabdin Tağıyevin teatrında baş tutan ilk tamaşasının (1908) bədii tərtibatçısı-rəssamı Əli bəy Hüseynzadə olduğu barədə tarixi faktlar da mövcuddur...

Əli bəy Hüseynzadə "Səadət" məktəbində çalışdığı illərdə ümumi təhsilin məzmunu, dərsliklərin dili və tərtibi prinsipləri, ədəbi dil və əlifba məsələlərinə dair qiymətli məqalələrlə mətbuatda çıxış etmiş, bu problemlərə dair onun mülahizələri uzun müddət mətbuatın gündəmindən düşməmiş, geniş müzakirə və diskussiyalara yol açmışdı... Ən maraqlısı bu idi ki, Əli bəy türk xalqları üçün ümumi ədəbi dil yaradılmasının tərəfdarı idi. Bu ideya o zaman qəbul edilməsə də, bu gün yenə də aktuallığını itirməyib. Bu böyük maarifçinin ədəbi dil konsepsiyasında əlifba məsələsi də xüsusi yer tuturdu. O, ərəb əlifbasının dəyişdirilməsinin qəti əleyhdarı idi, hətta M.F.Axundzadəni bu məsələyə görə kəskin tənqid edirdi. Ərəb əlifbasının dəyişdirilməsi ideyasının türk xalqlarının mədəni inkişafına zərbə olacağı qənaətində idi. Bu ideyanın ortaya atılmasinda rus "barmağı" olduğu inancında idi. XX əsrdə Azərbaycanda aparılan əlifba "islahatları" bu böyük maarifçinin nə qədər haqlı olduğunu təsdiqlədi...

Türkiyədə Sultan II Əbdülhəmidin taxtdan salınmasından artıq 2 il keçmişdi. Keçmiş inqilabçı dostları olan gənc türklərin dəvətilə Əli bəy 1910-cu ilin sonunda yenidən Türkiyəyə köçmək qərarına gəlir. Çox maraqlıdır ki, bu dahi fikir adamının Bakıdan getməsi qərarı dövrün tanınmış ziyalıları tərəfindən milli faciə kimi qarşılanmışdı. Müasirlərindən olan Ələbbas Müznib görkəmli fikir və söz adamı Əli bəyi "bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının atası" adlandırır, onu "dilsizlərin dili, karların qulağı, korların görən gözü" hesab edir, onun gedişiylə "Qafqaz əhalisinin başsız, böyüksüz" qalacağını ürək ağrısı ilə dilə gətirirdi...

Məhz bu münasibətlə yerli ziyalılar "Səadət" məktəbində Əli bəyin gedişi şərəfinə böyük ziyafət məclisi də təşkil etmişdilər. Böyük maarifçi Bakıdan ayrılarkən bütün ev əşyalarını və kitablarını üç il işlədiyi "Səadət" məktəbinə bağışlamağı da unutmamışdı... Sözsüz, bu addım onun böyük ziyalı təbiətindən irəli gəlmişdi...





**Əli bəy Hüseynzadənin çəkdiyi "Bibiheybət ziyarətgahı" əsəri**

Burada mədəniyyət tariximiz üçün çox maraqlı bir məqama da toxunmaq yerinə düşərdi. Belə ki, Əli bəy İstanbula köç ərəfəsində özünün yağlı boya ilə 1905- 1906-cı illərdə çəkdiyi "Bibiheybət məscidinin görünüşü" adlı məşhur rəsm əsərini satış salonuna qoydurmuşdu. Salona gələn Bakıdakı ingilis konsulu Mak Donnelin həmin əsərdən xoşu gəlmiş və rəsmi almaq üçün sifariş vermişdi... "Orucov qardaşları" mətbəəsinin sahiblərindən biri bu xəbəri böyük mesenat Hacı Zeynalabdin Tağıyevə çatdırmışdı. Hacı demişdi:

- Görünür, Əli bəyin əli aşağıdır. Ona görə bu məşhur rəsm əsərini satmaq qərarına gəlib...

Hacı 500 manat verib deyir ki, həmin tablonu göndər bizə. Ancaq bu haqda Əli bəy heç nə bilməsin, məndən pul götürməz. Bibiheybət məscidinin şəkli qoy Bakıda qalsın, gedib Londona düşməsin...

Belə də edirlər. Bu böyük mesenatın milli qeyrəti və təəssübkeşliyi sayəsində Azərbaycan xalqının milli sərvəti olan bu gözəl sənət əsəri Əli bəyin öz vətənində qalır. Həmin əsər hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır... (Bax: M.Süleymanov. Eşitdiklərim ..., səh. 121)

Yeri gəlmişkən deyək ki, Dövlət İncəsənət Muzeyində qorunan Əli bəyin Sankt-Peterburqda təhsil alarkən Tiflisdə çəkdiyi "Şeyxülislamın portreti" əsəri (1888) də 1903-cü ildə Əli bəy tərəfindən Vətənimizə gətirilib və qardaşı İsmayıl bəyə bağışlanıb. Muzeyə isə Bəhmən Hüseynzadə və həyat yoldaşı görkəmli tarixçi, mərhum professor Sara xanım Aşurbəyli tərəfindən bağışlanıb. Portret öz ana babası Şeyxülislam Axund Əhməd Səlyaniyə həsr edilib...



Scanned with ACE Scanner

Nəhayət, Əli bəy Hüseynzadə Bakını 1910-cu il dekabrın 4-də tərk edərək Bakı - Tiflis - İstanbul marşrutu ilə 1911-ci il yanvarın 5-də İstanbula çatıb. Səfər zamanı Tiflisdə dəmiryol vağzalında böyük ədib Cəlil Məmmədquluzadə ilə təsadüfən görüşüb, aralarında çox səmimi söhbət olub...

İstanbulda yenidən həkimlik sənətini davam etdirən Əli bəy Hüseynzadə İstanbul Universitetinin tibb fakültəsində dəri-zöhrəvi xəstəlikləri üzrə professor köməkçisi, sonralar professoru seçilir. Bu vəzifədə 1933-cü ilə qədər, yəni universitet bağlanana qədər pedaqoji fəaliyyətlə məşğul olur.

1918-ci il mayın 28-də Tiflisdə qurulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərdiyi dövrdə (16 iyun 1918 – 17 sentyabr 1918) Osmanlı dövlətindən hərbi yardım istəmiş və Nuru Paşanın rəhbərliyi altında türk ordusu Azərbaycana - Gəncəyə gəlmişdi. Bu dövrdə Əhməd bəy Ağayev (Ağaoğlu) , Axund Yusif Talıbzadə ilə yanaşı, Əli bəy Hüseynzadə də Türkiyədən Azərbaycana göndərilmiş, dövlət quruculuğu məsələlərini Azərbaycanın siyasi və hökumət rəhbərləri ilə müzakirə etmiş, müəyyən məsləhətlər vermişdi. Əli bəy Gəncə səfərindən qayıtdıqdan sonra qələmə aldığı və "Qızıl ay" qəzetinin 24 iyul 1918-ci il tarixli nömrəsində çap etdirdiyi "Azərbaycanda düşündüklərim" məqaləsindən öyrənirik ki, o Gəncəni iyulun ortalarında tərk edərək, Qafqaz məsələsini müzakirə etmək məqsədilə Məhəmmədəmin Rəsulzadə ilə birlikdə İstanbula qayıdıb...

Əli bəy Hüseynzadə Azərbaycan sovet hökumətinin xüsusi dəvəti ilə bir də 1926-cı ildə Vətənə dönüb, Bakıda keçirilən I Beynəlxalq Türkoloji qurultayda iştirak edib. Qurultaya məruzə adı ilə gətirdiyi, əslində isə Xalq Cümhuriyyətinin süqutu və Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı məsələlərinə həsr olunmuş "Qərbin iki dastanında türk" əsərinin Bakıda nəşrinə nail olub. Onun beynəlxalq miqyaslı belə bir qurultaya dəvət olunması əslində Sovetlər Birliyində də böyük türkoloq kimi tanınması kimi dəyərləndirilməlidir...

Türkoloji qurultay başa çatdıqdan sonra 1926-cı il martın 25-də doğma Vətənindən sonuncu dəfə ayrılan Əli bəy Hüseynzadə bir müddət Atatürkə sui- qəsddə iştirak gərəkçəsi ilə Ankarada İstiqlal Məhkəməsi qarşısında dayanmalı olmuş, az sonra bu işdə günahsızlığı sübut edilərək sərbəst buraxılsa da, fəaliyyətində bir durğunluq mərhələsi başlanmışdı. Bu hadisədən sonra sakit həyat tərzi keçirən, necə deyərlər, qələmi və düşüncəsi "sındırılan" Əli bəy 1940-cı il martın 17-də İstanbulda dünyasını dəyişib və şəhərin Qaracaəhməd məzarlığında haqq dünyasına qovuşub...

Əli bəy Hüseynzadə özündən sonra zəngin elmi, bədii, publisistik irs qoyub getmişdir. Onun elmi, ədəbi-bədii irsi içərisində Bakıda işlədiyi illərdə yazdığı və mütəxəssislər tərəfindən şah əsəri hesab edilən "Siyasəti- Fürusət" ("At minmək siyasəti"), eləcə də, "Füyuzat" məcmuəsi xüsusi yer tutur. Müasiri Yusif Akçura yazırdı ki, Əli bəyin siyasi, fəlsəfi və ədəbi



düşüncələrini anlamaq üçün ən qiymətli mənbə "Füyuzat" kolleksionudur. (Bax: Y.Akçura. Türkçülüyün tarixi. Bakı 2006 ).

Şükürlər olsun ki, bu qiymətli mənbə mərhum mətnşünas alim Ofelya Bayramlının fədakar əməyi ilə latın qrafikasına transliterasiya olunaraq tanınmış ziyalı Etibar Yolçuyevin şəxsi vəsaiti ilə məhdud tirajla müasir Azərbaycan oxucusuna çatdırılmışdır. Çox istərdik ki, həmin toplu kütləvi tirajla çap edilərək, geniş elmi ictimaiyyətin istifadəsinə veriləydi...

Bir neçə kəlmə də bu böyük insanın ailə həyatından söz açmaq istərdik. Əli bəy nisbətən gec, yəni 48 yaşında 1912-ci ildə İstanbulda əslən çərkəz olan suvari zabiti Şəmsəddin bəyin qızı Ədhiyyə xanımla (1890-1944) evlənmiş, bu izdivacdan üç övladı-Səlim Turan adlı oğlu, Saidə və Feyzavər adlı iki qızı dünyaya gəlmişdi. Yüksək təhsil almış övladlarının heç birinin uşağı olmayıb. Böyük qızı Saidə bəyim (1914-2002) 2002-ci ildə rəhmətə gedib. Oğlu Səlim Turan (1915-1994) məşhur rəssam idi. Parisdə yaşayıb, 1994-cü ildə orada dünyasını dəyişib. Üçüncü övladı 1920-ci ildə doğulmuş Feyzavər bəyim bu yaxınlarda İstanbulda haqq dünyasına qovuşub. Əli bəyin nəsil davamı bu övladlarla bitir...

Əli bəy Hüseynzadə XIX əsrin sonu – XX əsrin əvvəllərində türk-islam dünyasının yetirdiyi nadir şəxsiyyət, dahi mütəfəkkir, bənzərsiz fikir adamı, böyük maarifçi və ictimai xadim idi...Onun haqq dünyasına qovuşmasından 74 il ötsə də, o, əsərlərində, əməllərində, parlaq ideyalarında bu gün də yaşayır. Bu böyük İnsanın adının əbədiləşdirilməsi istiqamətində müstəqil Azərbaycanda dövlət tərəfindən müəyyən addımlar atılıb, doğulduğu Salyan şəhərində şərəfinə heykəli ucaldılıb, küçələrə, məktəblərə adı verilib. Əsərləri çap edilib, haqqında araşdırmalar aparılıb. Ən başlıcası təmiz adı özünə qaytarılıb, böyük ideyaları həyata keçirilib. Hesab edirik ki, necə ki, müstəqil Azərbaycanın üçrəngli bayrağı var, həmin bayrağın rənglər simvolikasının müəllifi Əli bəy Hüseynzadə də var olacaqdır...

Düşünürəm ki, müstəqil Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri maarif və mədəniyyətimizin bu böyük korifeyinin üçrəngli bayrağımızda əbədiləşən milli ideyaların müəllifi Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında ölkə Prezidentinin məlum sərəncamının yüksək səviyyədə icrası üçün əllərindən gələni əsirgəməyəcək, bu böyük ziyalının zəngin irsinin xalqımıza, xüsusən də müasir Azərbaycan gəncliyinə gərəyincə və yetərincə çatdırılmasına öz layiqli töhfələrini verəcəklər.

## ƏDƏBİYYAT


1. *Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı, 2007. (Tərtib edəni Ofeliya Bayramlı).*
2. *Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı, 2008; 2 cilddə. (Tərtib edəni Ofeliya Bayramlı).*
3. *Füyuzat (1906-1907). Bakı, 2006. (Transliterasiya edəni, çapa hazırlayanı və ön sözün müəllifi Ofeliya Bayramlı).*
4. *Azər Turan. Əli bəy Hüseynzadə. Moskva, 2008.*
5. *Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim... Bakı, 1996.c*
6. *Yusuf Akçura. Türkçülüyün tarixi. Bakı, 2006.*
7. *Ziya Göyalp. Türkçülüyün əsasları. İstanbul, 1996.*




Scanned with ACE Scanner

# S.C.PİŞƏVƏRİNİN HƏYAT VƏ FƏALİYYƏTİ MÜASİR ƏDƏBİYYATŞÜNASLIĞIN NƏZƏR NÖQTƏSİNDƏ

**Sakibə ƏLƏSGƏROVA,**
**filologiya üzrə fəlsəfə doktoru**

*"Elə çırax yandırmaq lazımdır ki, ixtiyar öz əlimizdə olsun".*
**Ş.M.Xiyabani.**

***Açar sözlər:*** *Seyid Cəfər Pışəvəri, ədəbiyyatşünaslıq, siyasət, publisistika.*

Seyid Cəfər Pişəvəri (Cavadzadə) İnqilabi Demokratik Hərəkatın rəhbəri və fəal iştirakçısı kimi ədəbi və tarixi sənədlərdə adı hallanan mübariz inqilabçı olub. O, arxasız, köməksiz oldu, ancaq xalqı üçün əlindən gələni etdi.

Kiçik yaşlarından həyatın çətinlikləri ilə üzləşən, yaşayışın ağırlığı ucbatından valideynləri ilə bərabər Bakıya gələn Cəfər oğurluq, cinayətkarlıq, zorakılıq kimi böyüklərin tanımaq və anlamaq istəmədikləri istilahları hələ uşaqkən qavramışdı. Onlar qaçaq-quldur tərəfindən canı boğazına yığılan Zeyvə əhlindən idi. Həmin ərazilərdə xalq mülkədarların əlində şəxsi mülkiyyətə çevrilmişdi. Pişəvəri xatirələrində yazır ki, mülkədarların şəxsi silahlı dəstələri kəndləri talayır, əllərinə keçən nə varsa, aralarında bölüşdürürdülər. Bu da ağır şəraitdə yaşayan ailənin Bakıya gəlişini tətikləyən səbəblərdən biri idi.

Əkrəm Rəhimli (Bije) 2009-cu ildə nəşr elətdirdiyi və Pişəvərinin həyatı və ictimai-siyasi fəaliyyətinə həsr etdiyi "Mübarizə burulğanında keçən ömür" kitabında yazır: "Mir Cavad ailəsi ilə birlikdə Bakıya köçməmişdən əvvəl o, bu şəhərlə tanış idi. Zeyvədə əkin-biçin qurtaran vaxt ailəsini dolandırmaq xatirinə işləmək üçün Bakıya gəlmişdi. Bu mənada Bakı onun üçün əvvəlcədən tanış idi" (1, səh.25). Həmin dövrdə dünyada işlədilən neftin yarısından çoxu Bakıda hasil olunurdu. Odur ki, Cənubi Azərbaycandan, Qafqazın digər ərazilərindən işləmək üçün buraya çox adam gəlirdi. İranşünas alim M.S.İvanov "Noveyşaya istoriya İrana" əsərində yazır: "...Bakı neft mədənlərinə və Qafqaz şəhərlərinə Arazın o tayından gələnlərin sayı orta hesabla 200 min nəfərə çatmışdı" (2, səh.11). Bakıda, Naxçıvanda, Tovuzda, Gədəbəydə zavod, mədən, dəmir yollarında çalışan və ailəsinə çörək pulu göndərən güneylilərin çox acı taleyi var idi. Düzdür, vətənlərinin digər yarısında idilər, ancaq şərtlər onları ucuz, işlək fəhlə qüvvəsinə çevirmişdi və müəssisələr üçün gələcəyə iş qüvvəsi təminatı verən insanlar idi. Hələ XX əsrin əvvəllərində satirik şair M.Ə.Möcüz "Qürbət qurbanları" şeirində bir tikə çörək ucbatından ailəsindən ayrı həyat sürənlərin çəkdiklərini qələmə almışdı. Mühacir fəhlə həyatı bahasına az bir vəsait əldə edib evinə göndərir, İran məmurları isə ona şərik çıxır:

*Əhli-qürbətdi, bilirsən, bu şəbüstərli tamam,*
*Gedirik ta gətirək külfətə bir loğma təam,*
*Onu da siz alasız zur ilə, ey əhli-zülam,*
*Verisiz ənniyə, kirşanə, hənayə, rəngə.*



Vətəndən əl çəkib ehtiyac üçün qürbətə getməyin məcburiyyəti idi Pişəvərinin ailəsini Bakıya gətirən. Güneydən gələnlər Bakıda "isti" qarşılanırdı. Həmin dövrdə Bakı həm dolanışıq üçün, həm də inqilabi fəaliyyət üçün münasib bir mərkəz sayılırdı.

Pişəvərinin bacısı Rüxsarə Xalxalda qalmışdı, qardaşları Mir Xəlil və Mir Səlim Bakıda və Leninqradda ali ixtisasa yiyələnmişdi. S.C.Pişəvəri "Ajir" qəzetində "Mənim həyatım" adı ilə yazır: "Ailəmizin maddi çətinlikləri məni erkən yaşlardan əmək fəaliyyətinə başlamağa məcbur etdi". Bacısı Suğra qardaşı Seyid Cəfərin əmək və təhsil fəaliyyətini normal tənzimlədiyini, hətta iranlı fəhlələrə, ailə üzvlərinə 3 il pulsuz təhsil verdiyini xatirələrində qeyd etmişdir.

İranda Azərbaycan və başqa ölkələrdə Pişəvəri haqqında nəşr olunan kitablarda onun siyasi, bədii, elmi, publisistik fəaliyyətinə qiymətlər verilir, bədii obrazı yaradılır, başçılıq etdiyi inqilabi hərəkat və onun rəhbərinə aid xoş sözlər deyilir. Nəinki irihəcmli əsərlərin, hətta kiçik məqalələrin belə hazırlanmasına nə qədər zəhmət çəkilməsini nəzərə alsaq, Pişəvərinin xalq və ziyalı təbəqə tərəfindən nə qədər sevildiyinin təsdiqini görürük.

İslamiyyətdən, ərəb və fars dillərindən "İttihad" məktəbində, Bakı bələdiyyəsinə məxsus məktəbdə dərslər verən Seyid Cəfər xalqın maariflənməsini çox yüksək qiymətləndirirdi. Çünki onun dünyagörüşünün formalaşmasında Bakının elmi-mədəni mühiti böyük rol oynayırdı. Bir sözlə, Pişəvəri çox güclü məktəb keçmişdir. Ancaq onun siyasi görüşləri zaman-zaman istiqamətini dəyişmişdir. Bir müddət yalnız Cənubi Azərbaycan xalqının azadlığını düşünən Seyid Cəfər sonralar M.Cəfər Bağırovla görüşlərinin birində açıqlamışdır ki, mən ümumiran xalqlarının azadlıq mübarizəsini təşkil etsəydim, daha münasib nəticə alınardı. Bir müddət sonra isə Moskvaya inanır və ümid bağlayır. Moskva isə daima öz mənafeyini düşünən bir mərkəz olub, ona sərf etməyəndə bağladığı ən güclü müqaviləyə xəyanət edib. Onlar Pişəvəriyə isə yalnız kömək edəcəkləri barədə söz vermişdi. Amerika və İngiltərənin İrana güclü silah yardımı, İranın Sovetlərə Şimal neftindən müştərək istifadə təklifi və s. kimi məsələlər azadlıq mübarizəsinin kökündən baltalanmasına səbəb oldu. Azərbaycan Milli Hərəkat rəhbərliyinin köməklik haqda Sovetlərə son müraciətindən bir cümləyə diqqət yetirək: "İndi on minlərlə kəndli fəqət silah tələb edir və bu köməyi bir an verməklə İran xalqının azadlığı və Sovet siyasəti təhlükədən xilas ola bilər və illa xətər çox yaxın və çox böyükdür" (1, səh. 230). Ancaq müraciət cavabsız qaldı. Bu barədə Siruz Mədədi mətbuatda çıxış edib.



Scanned with ACE Scanner

Məlumatların əksəriyyəti Pişəvərinin siyasi, ədəbi və publisistik fəaliyyətinin elmi-tədqiqat baxımından təhlili zamanı öyrənilmiş və ortaya çıxmışdır. Bir jurnalist kimi formalaşandan, siyasi dünyagörüşü tam oturandan sonra Pişəvəri həyatın müxtəlif sahələrində düzgün istiqamət vermək bacarığına malik siyasətçi, ədib və jurnalistə çevrildi. Düşüncələrində və apardığı mübarizədə kəskinləşən Pişəvəri üçün mətbuat dayaq, söykənəcək rolunu oynadı. "Açıq söz", "Ajir", "Əkinçi", "Füyuzat", "Molla Nəsrəddin" və s. kimi mətbu orqanlar onun xalqla dialoqunda, fikrinin tam anlamı ilə çatdırılmasında böyük rol oynadı. Yazılarını 15-ə qədər müxtəlif imzalarla çap etdirməsi onun üçün avantaja çevrilmişdi. Çünki bir neçə məqaləni eyni mətbu orqanda çap etdirmək, müəllifin gizliliyini qorumaq və s. baxımından sərfəli idi. Siyasilər çox vaxt öz mənafeyi naminə yüksək mövqelərindən əl çəkmir. Yuxarıda qeyd etdiyimiz kimi Pişəvəri xalqa pulsuz dərs verməklə, mübarizəyə, xalqın oyanışına maddi və mənəvi dəstək göstərməklə bu hərəkətinin şüurlu surətdə, bilərəkdən və qəlbən, istəkli bir şəkildə yerinə yetirildiyini sübut etdi. Hərtərəfli qabiliyyətə malik olan bu cür şəxsləri tarix az-az, özü də vaxtında yetişdirir.

Eyni vaxtda həm siyasi lider, həm xalq müəllimi və jurnalisti kimi fəaliyyət göstərən, elmi və bədii yaradıcılıqla məşğul olan, dövründəki nəhəng dövlətlərin siyasiləri ilə üz-üzə xalqın düşdüyü vəziyyəti müzakirə edən Pişəvəri xalqın öz haqqını tələb edəcək səviyyədə ayılması üçün əlindən gələni edirdi. O, yazılarında qeyd edirdi ki, millətimiz elmsiz olduğundan hürriyyətdən və hüquqlarından yetərincə faydalana bilmədi. Seyid Cəfər tarix, ədəbiyyat və mədəniyyətimizi toz-torpaq içində qalmış bir cəvahirə bənzədirdi. Yazdığı şeirləri, felyetonları, elmi və publisist məqalələrini çap etdirərək öz missiyasına sədaqətlə xidmət edirdi. Publisist yazılarında özgəyə ümid olmamağı xalqa söyləyir, onları birliyə, intizama dəvət edirdi. O, 1947-ci ildə nəşr olunan "Ədalət firqəsinin tarixindən" əsərində İran Demokrat təşkilarını doğru və düzgün bir təşkilat kimi qiymətləndirir. "Hürriyyət" qəzetində firqənin mənafeyinə xidmət edən yazılarla çıxış edir. Zaman keçdikcə püxtələşən, həyatın hər çətin üzünü görən S.Cəfər "Qəsr - Qacar" zindanına 10 ilini verdi – 1930-cu ilin yanvarı və 1940-cı ilin apreli arasındakı bu zaman kəsiyi onun mənəviyyatına, iradəsinə çox yükləndi. Əkrəm Rəhimli (Bije) yazır: "S.C.Pişəvərinin zindan divarları arasında yazdığı xatirələrdən bəlli olur ki, Rza şah məmurları ona fiziki, psixoloji əzab-əziyyət verməklə, ondan özlərinə gərək olan cavabı almağa çox çalışsalar da, onun iradəsini sındıra bilməmişlər" (1, səh.65). Əkrəm Rəhimli onun "Zindan xatirələri dəftəri"ni 3700 günlük zindan həyatının acı epopeyası adlandırır. Əslində Pişəvərinin yaşadıqları bir örnəkdir. Azərbaycan oğlunu gənc fədaidən müdrik liderə, cavan publisistdən nasir və şairə, güclü alimə, sonrakı nəsil üçün əsərləri mənbə rolunu oynayan sələfə çevirən bir istinadgahdır. Onu nə "Qəsr-Qacar" zindanı, nə illərin əzab-əziyyəti getdiyi yoldan sapdıra bilmədi. Çoxları üçün dəyərli məsləhətçi olan S.Cəfər mübarizəyə tam hazır olmadan, zamanı və məkanı qiymətləndirmədən çevrilişə başlamağı ağılsızlıq hesab edirdi. O, fikirlərində çox da haçalanmırdı. Məqsədi İrandakı rejimi



demokratik bir quruluşla əvəz etmək idi. Sovet hökumətindən başqa bir yerdən də kömək gözləmirdi. Xalqının və özünün arxasız olması, tarixi şəraitin onun fikirləri ilə nisbətən uyğunlaşması onun belə düşünməsinə səbəb olurdu. Xalqının istiqlaliyyəti uğrunda son damla qanına qədər vuruşmaq iqtidarı olan bir inqilabçının "ölkənin təhlükəsizliyinə və istiqlaliyyəti əleyhinə fəaliyyətdə" suçlanması insanı sözün bitdiyi yerə gətirir. Sovet dövlətinə inanan Pişəvəri həbsdə olduğu müddətdə düşünür, analizlər edir və nəticəyə gəlir ki, aldanıb, xəyanətə uğrayıb. 1940-cı ilin mart ayında istintaq zamanı verilən "Siz kommunist əqidəsində varsınızmı?" sualına "Xeyr" cavabını verib zindandan və Kazandakı sürgün həyatından sonra Tehrana gəlir (1941-ci il, 14 sentyabr). Bije yazır: "Mayası azadlıq və demokratiya yolunda mübarizə ilə yoğrulmuş S.C.Pişəvəri zindan həyatından sonra Tehrandakı siyasi mühitə tez alışdı" (1, s. 75).

Yenə də gündəmdə demokratik azadlıqlar, diktatura ilə mübarizə, sülh, istiqlaliyyət kimi məsələlər var idi. Fikirlərinə görə İran Xalq Partiyasının Mərkəzi Komitəsində tərkibə seçilməmişdir. Ona görə ki, o, İranda fəhlə sinfinin hələ də formalaşmadığını görür, olamayan bir sinfin partiyasının xəyali mübarizəsinin iştirakçısı olmaqdan çəkinmişdi. Ancaq məramnaməsinin hazırlanmasına kömək etmişdi.

Pişəvərinin azadlıq mübarizəsində "Ajir" (haray) qəzetinin böyük rolu olub. O, bu qəzeti maddi çətinliklər olmasına baxmayaraq, bir müddət ayaqda saxlamağı bacarıb. Bundan əvvəl bir çox mətbu orqanlarda müxbir, redaktor, baş redaktor kimi fəaliyyət göstərib. Siyasi fikirlərini xalqa, inqilabçılara bu şəkildə çatdırmağın üstünlüyünü qeyd edib. Bir neçə məqaləni çıxmaqla qəzet farsca nəşr olub. Bir dəfə Balaş Azəroğlunun şeirlərini Azərbaycan dilində verdiyi üçün hökumət "Ajir"in həmin nömrəsini müsadirə edib, 50 tümən də cərimə etmişdir. Həftədə 3 dəfə çap olunan bu qəzetin hər bir nömrəsində Pişəvərinin məqaləsi olub, baş məqaləni də mütləq özü yazıb. Deməli, bir nömrədə bir neçə yazısı da olurdu. Qəzetin nəşrində ona kömək edən Kəşavərz xatirələrində yazır ki, qəzetdəki yazıların əksəriyyəti mənə və Pişəvəriyə aid olurdu. Pişəvərinin qəzetdəki fəaliyyəti onun digər fəaliyyətlərini üstələyir. Bir müxbir çevikliyi ilə insanlarla tez ünsiyyət bağlamağı bacaran S.Cəfər özünün ədəbi-bədii, siyasi və publisistik fəaliyyətini bir müddət "Ajir" vasitəsilə istiqamətləndirməyi və tənzimləməyi bacardı. Elə bunun özü də xalqın bu sahədə proqramlaşmasına, mübarizəsini düz istiqamətə yönəltməsinə kömək edirdi. Eyni zamanda "Ajir" Tehran şəhərindəki azərbaycanlı ziyalıları, qələm sahiblərini ətrafında toplayırdı. Pişəvəri Tehrandan Azərbaycan rayonlarına gəlir, xalqın yaşayışını öz gözləri ilə görməyə çalışırdı. Deputat mandatı ləğv ediləndən sonra o başa düşdü ki, xalqın qanını soranlarla dil tapmaq mümkün deyil. O, deputatlığı ona görə istəyirdi ki, bundan ideyalarını həyata keçirmək üçün istifadə etsin.

Pişəvərinin Azərbaycana döndüyü vaxt orada iqtisadi vəziyyət çox ağır idi. Xalqın dili, dini, adət-ənənəsi təhqir olunur, Azərbaycandan Tehrana daşınan taxılın az bir hissəsi xalqa qaytarılırdı. Ümumiyyətlə İran hökuməti çalışırdı ki, Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən İranın içərisində



Scanned with ACE Scanner

"həzm" olunsun və milliyyəti aradan qaldırılsın. "S.C.Pişəvəri siyasi fəaliyyətini davam etdirmək üçün 1945-ci ilin yayında Təbrizə gəlmək ərəfəsində Azərbaycan partlamağa hazır olan barıt çəlləyini xatırladırdı" (1,səh.102). Pişəvəri Azərbaycanda fəaliyyətə başlayanda xalqın iradəsinə, gücünə və özünün yüksək səviyyədə siyasi təşkilatlandırma bacarığına arxalanırdı. İnanırdı ki, xalqın istiqlaliyyətini və ölkənin inkişafını təmin edə biləcəkdir. O, əvvəlki inqilablarda iştirak etmiş şəxslərlə, vətənpərvər insanlarla dialoqa girir və onların görüşlərini alırdı. İran Xalq Partiyasının təşkilatlanmasında əməyi olan Pişəvəri həmin partiyanın proqramındakı milli tələblərin lazımi səviyyədə olmadığını görür və məcburən Azərbaycan Demokratik Firqəsini yaradır. 1945-ci ilin sentyabr ayının üçündə yaranmış firqənin fəaliyyəti tutumlu oldu. Bir çox mənbələrdə tez-tez adı çəkilən "Şəhrivər hadisəsi" firqənin yarandığı zamanı diqqətə çatdırır. Bu firqə İranın çoxmillətli aqrar bir ölkə olduğunu göstərə bildi. Azərbaycan Demokrat Hərəkatı güclü bir zəmin üzərində formalaşmışdı. Səttar xanın başçılığı ilə 1905-1911-ci illər Məşrutə inqilabı, Ş.M.Xiyabaninin rəhbərliyi ilə həyata keçirilən 1918-1920-ci illər inqilabi hərəkatı ən güclü istinadgah idi. "12 Şəhrivər" (3 Sentyabr) müraciətində onların iştirakçıları, övladları, qohumları da imza mərasimində iştitak etmişdi.

Pişəvəri yazılarında qeyd edirdi ki, biz əvvəl öz evimiz olan Azərbaycandan başlayırıq, Azərbaycanın tərəqqisi İranın tərəqqisinə səbəb olacaqdır.Xalq öz istəklərini firqənin bəyannaməsində gördü, Pişəvəriyə inandı və onun ardınca kütlə axını başladı.

Professor V.Əhməd yazır: "M.C.Pişəvəri ADF-in və Azərbaycan Milli hökumətinin yaranması uğrunda mübarizədə son dərəcə mühüm rol oynamış, partiyanın Mərkəzi Komitəsinin sədri və Milli hökumətin baş naziri olaraq partiya proqramının və Milli hökumətin proqramının həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir" (3, səh.54). Xalq qoşununu yaradaraq əldə olunacaq istiqlaliyyətin əldən verilməməsinin təminatını əvvəlcədən müəyyənləşdirən S.Cəfər milli ordunun təşkilinə xüsusi qayğı ilə yanaşırdı. O, "haqq və azadlığı qorumaq onu almaqdan asandır", deyə düşünürdü. Torpağın önəmini ardıcıl olaraq qeyd edir, kəndlilərin təşkilatlanmasını nəzarətdə saxlayırdı. 1946-cı ilin aprelində Pişəvəri Kəndlilər qurultayının çağırılmasına nail oldu və özü bu qurultayda fəal iştirak etdi. ADF xalqın təhsilə cəlb olunması sahəsində tədbirlər həyata keçirirdi. Təbrizdə müəllim, həkim və s. ixtisaslı kadrlar hazırlayan universitet fəaliyyətə başladı. Polis məktəbi təsis olundu. İran hökuməti qarşısında Azərbaycanın muxtariyyəti məsələsi qaldırıldı. "Aprelin 28-də (1945) Pişəvərinin başçılığı ilə Tehrana gedən nümayəndə heyəti Azərbaycan məsələsinin sülh yolu ilə həllinə nail olmaq üçün danışıqlara başladı....Azərbaycan nümayəndə heyəti 33 maddədən ibarət təkliflə çıxış etdi" (3, səh.57). Sonralar uyğun razılaşmalar oldu, ancaq bu İran üçün zaman qazandırdı, fars şovinizmi silahlı hücuma hazırlaşdı. Təbrizdə vəziyyət ağırlaşanda S.Cəfər, bir sıra inqilab rəhbərləri, 8 mindən çox insan Quzey Azərbaycana keçdi. Sovet hökuməti onları siyasi sığınmaçı kimi qəbul etdi. Çünki İrandakı hadisələri 1941-ci ildən izləyirdi və fikri



orada kommunist rejimi yaratmaq idi. Lap dərinliyinə diqqət etsək, bolşeviklər hakimiyyətə gələndən İranda bu sahədə güclü təbliğat aparılırdı. Prof. Rəhim Əliyev "Cənubi Azərbaycanda Milli Hərəkat" adlı əsərində yazır: "Komintern xətti ilə gedən bu işin bir sahəsi də bacarıqlı İran kommunistlərinin Moskvadakı Şərq Xalqları Universitetində təhsil alması idi" (4, səh.28). S.Cəfər Pişəvəri də həmin universiteti bitirmişdi. Bir qədər əvvələ getsək, Sovet hökuməti qoşunlarını İrana göndərərkən həyatın hər sahəsindən olan mütəxəssislər də göndərmişdi. Ordu qəzeti kimi təqdim olunan "Vətən yolunda" əslində azərbaycanlılar arasında sovet rejiminin təbliği ilə məşğul olurdu. M.İbrahimov (qəzetin redaktoru) və Qulam Məmmədlinin (mətbəə müdiri) üzərində ağır yük var idi. Altı ay fəaliyyət göstərən qəzet ikinci dəfə 1944-cü ilin aprelində nəşrə başladı və 1946-cı ilin may ayına qədər çıxdı. Qəzetdə siyasi yazılardan çox bədii materiallar nəşr olunurdu. Qəzetdə faşizm əleyhinə, Azərbaycanın siyasi və mədəniyyət tarixinə, vətənpərvərlik, millətçilik, sosializmin üstünlükləri, marksist rejiminin yaradılması mövzularında materiallar verilirdi. Bakıdan xüsusi məqsədlə Cənuba göndərilmiş ziyalılar xalqımızın tarixi və mədəniyyəti haqqında olan yazıları ilə geniş kütlənin diqqətini çəkirdi. Fars mətbuatının təsiri altında olan, çox hissəsi isə yazıb-oxumağı bacarmayan insanlar üçün yeniliklər çox idi. "Vətən yolunda" qəzetindəki publisist yazılar Cənubi Azərbaycanda milli şüurun inkişafına, milli tərəqqi ideyalarının populyarlaşmasına böyük təsir göstərir və mühüm tarixi əhəmiyyət kəsb edirdi" (4, səh.33).

Xalqının istiqlaliyyəti uğrunda mübarizə aparan Pişəvəri ədəbi-bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyat tarixində mühüm yer tutmuşdur. Şair, yazıçı, tərcüməçi kimi dövrü mətbuatda yazıları nəşr olunan, irihəcmli əsərləri ilə diqqət çəkən Pişəvərinin yaradıcılığı özünə layiq olan bir şəkildə izlənilir. Ancaq onu qeyd etmək lazımdır ki, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan şöbəsi"nin bu sahədəki fəaliyyəti qiymətləndirilməlidir. Şöbənin əməkdaşları prof.R.Əliyev, prof.V.Əhməd zaman-zaman elmi yazılarında Pişəvərini xatırlamış, sonralar bu yazılarını genişləndirərək onun həyat və yaradıcılığını daha geniş diapazonda izləməyə çalışmışlar. V.Əhmədin ona həsr etdiyi "M.C.Pişəvəri: həyatı, mühit və yaradıcılığı" monoqrafiyası 4 fəsildən, hər fəsil isə 3 bölmədən ibarətdir. Monoqrafiyada Pişəvərinin uşaqlıq və gənclik illəri, yaşadığı mühit, əmək fəaliyyəti, zindanda olduğu illər, sonralar milli mətbuat uğrunda sərf etdiyi zəhmət, ədəbi-bədii yaradıcılığı öz qiymətini almışdır. Tədqiqatçı Pişəvərinin ədəbi-tənqidi fikirlərinə geniş yer verərək onun ədəbiyyatın bədii-estetik funksiyası və tərbiyəvi əhəmiyyəti haqqında fikirlərini təhlilə cəlb etmiş, icitmai-tarixi rolunu qiymətləndirmişdir. Ədəbiyyatımız tarixində Axundov, Nərimanov və b. kimi görkəmli yer tutan S.Cəfərin özünün klassik və çağdaş ədəbi əsərlərə münasibəti Vüqar müəllim tərəfindən sistemli şəkildə verilmişdir. Pişəvəri yazırdı ki, babalarımızın yaratdığı, hifz etdiyi sənəti qoruyub müasirliyə doğru irəliləməliyik. Keçmişin zəngin təcrübələrinə söykənməklə ədəbiyyatın hər sahəsində müvəffəqiyyət əldə etmək olar. O, nəinki ədəbiyyat və siyasi tariximiz haqqında, hətta musiqimizin tarixinə



Scanned with ACE Scanner

diqqət yetirir və milli musiqimizin, eləcə də Şərq musiqisinin gözəlliyi haqqında öz qiymətli fikirlərini söyləyirdi. V.Əhməd yazır ki, Bakıda "Vətən" operasını izləyən S.C.Pişəvəri "Bakı sovqatı" oçerkində həmin operada Qərb və Şərq musiqisinin sintezindən xoşhal olmamış, hətta Şərq musiqisinin çox zəif ştrixlərlə verilməsinə təəssüfləndiyini bildirmişdir. "Adət-ənənələrimizin, milli musiqimizin, bir sözlə, milli irsimizin qorunmasını təkrar olaraq diqqətə çatdıran S.Cəfər onu qorumağın vacibliyini, gələcək nəsillər üçün dərindən öyrənilməsini tövsiyə etmişdir. O, hər bir xalqın öz mədəniyyətinin inkişafının tərəfdarıdır. Çoxmillətli dövlətlərdə ayrıseçkilik mədəniyyətin təktərəfli inkişafı deməkdir və barbarlıq sayılır. "Bugünkü dünya anlayır ki, geridə qalmış xalqları əzməklə barbarlığa son qoymaq olmaz, yalnız bu xalqlara kömək etməklə həqiqi insani mədəniyyətə nail olmaq olar" (5, №: 160). V.Əhməd Pişəvərinin ana dilinə münasibətini, dilin xalqın varlığını təşkil edən əsas amillərdən biri olması kimi fikirlərini olduğu kimi verməyə çalışmışdır. O, yazırdı ki, Azərbaycan dilini inkişaf etdirməklə xalqın birliyini saxlamaq mümkündür. Xüsusən dilin saflığının qorunmasının vacibliyini irəli sürmüşdür.

İstedadlı jurnalist, redaktor olan S.Cəfərin publisist yazılarının xalqımızın dünya səviyyəsində tanınmasında böyük rolu oldu. Onun məqalələrində xalqlar dostluğu, vətənpərvərlik kimi məsələlərə yüksək qiymət verilmişdir. O, mətbuatda dilimizdən sadə, anlaşıqlı, saf bir şəkildə istifadə etməyi məsləhət bilirdi. Monoqrafiyada Pişəvərinin publisistikasının xüsusiyyətləri təhlilə cəlb olunarkən onun ilk qələm məhsulları, "Hümmət", "Açıq söz", "Hürriyyət" və "Həqiqət" də nəşr olunmuş yazıları, ictimai-siyasi mövzuda verdiyi informasiyaları, tənqidi fikirləri və s. alim tərəfindən araşdırılmışdır. İnqilabçı yazıçı publisistikasında da dövrün tələblərini cavablamış, güclü yazı nümunələri yaratmışdır. Hər yazısından azadlıq, isitqlaliyyət qoxusu gələn Pişəvərinin ilk və son kəlmələri "Vətən", "xalq" olub. O, ancaq xalqına arxalanıb. Bağırovla söhbətində də bunu açıqca söyləyib. Rusa arxalanan Quzey rəhbərinin əsəbiləşməsini diqqətə almayıb, təkcə azərbaycanlıların deyil, İrandakı digər xalqların da adını çəkib.

Ədəbi-bədii yaradıcılığında da xalqının həyatını, mühitini, ehtiyaclarını qələmə alan Pişəvəri əlimizdə olan bir neçə şeirində Sabirdən təsirlənmiş, kəndlinin əməyinin mənimsənilməsinə göz yuma bilməmiş, dövrün iqtisadi vəziyyətini təsvir etmişdir:

*Nədən ötrü gərək verə dehqan*
*Hasili-rənciri yesin bəy - xan?*

Hisslərini sabirsayağı qələmə alan şair bəylərin siyasətinə nifrətlə yanaşır. Kəndliyə, fəhləyə insan kimi yanaşmayanlara "kin qusur". Kəndlinin dərdindən, ahından, ağır həyatından yazan Pişəvərinin "zindanlı günləri"ni unutmamalıyıq. Hər kəs onun memuarlarını imkan tapanda oxumalıdır. Özünü xalqına qurban verən, rahat yaşayışı özünə haram edən, xalqına inanan, onu arxası sayan Pişəvəri dünyasını dəyişəndə də əziyyət çəkdi. İnanırıq ki, onun ağır həyatını daha da ağırlaşdıran kəslər böyük Yaradan və tarix qarşısında cavab verəcəklər. Bir Pişəvərinin yetişməsi yüz illər alır.



Güclü zəka, intellekt, elmi və bədii təfəkkür, dərin publisist bacarıq, poetiklik, siyasi və məişət etikası və s. kimi xüsusiyyətlərin bir şəxsin üzərində cəmlənməsi də mücərrəd sayıla bilər.

Ancaq Azərbaycanımızın qəhrəman oğlu S.C.Pişəvəri belə nəhəng bir şəxs idi və Sovet rejiminin günahı ucbatından köməksiz bir şəkildə hamının ola bilməyən nəhəng dünyasına gözünü tənha yumdu.

## ƏDƏBİYYAT


1. Əkrəm Rəhimli. Mübarizə burulğanında keçən ömür. Bakı, 2009.
2. M.S.İvanov. Noveyşaya istoriya İrana. Moskva, 1965.
3. Vüqar Əhməd. M.C.Pişəvəri. Həyatı, mühiti və yaradıcılığı. Bakı, 1998.
4. Rəhim Əliyev. Cənubi Azərbaycanda milli hərəkat (1941-1946) Bakı, 2013.
5. "Ajir" qəzeti, № 160, iyun 1944.
6. Vüqar Əhməd. Şeyx Məhəmməd Xiyabani. Bakı, 2010.
7. Sakibə Ələsgərova. Mirzə Əli Möcüz Şəbüstəri. Bakı, 2002.


## XÜLASƏ

**Milli hərəkat rəhbəri S.C.Pişəvərinin**
**həyatı və fəaliyyəti müasir ədəbiyyatşünaslığın nəzər nöqtəsində**

Məqalədə müasir ədəbiyyatşünaslıqda İnqilabi Demokratik Hərəkatın rəhbəri və fəal iştirakçısı S.C.Pişəvərinin həyatı və fəaliyyəti barəsində deyilənlər və yazılanlar araşdırılmışdır. Müəllif haqlı olaraq göstərmişdir ki, İranda Azərbaycan və başqa ölkələrdə Pişəvəri haqqında nəşr olunan kitablarda onun siyasi, bədii, elmi, publisistik fəaliyyətinə qiymətlər verilir, bədii obrazı yaradılır, başçılıq etdiyi inqilabi hərəkat və onun rəhbərinə aid xoş sözlər deyilir. Burada S.C.Pişəvərinin həyat və yaradıcılığına həsr olunmuş irihəcmli əsərlər, habelə kiçik məqalələrə qədər böyük əksəriyyəti təhlil süzgəcindən keçirilmiş, düzgün elmi qənaətlər əldə edilmişdir.

## РЕЗЮМЕ

**Жизнь и деятельность лидера Национального движения**
**Сеида Джафара Пишавари в аспекте современного литературоведения**

В статье были изучены статьи и исследования в современном литературоведении, посвященные жизни и деятельности лидеру и активному участнику революционно-демократического движения Сеида Джафара Пишавари. Автор показал, что в художественных, научных и публицистических книгах, изданных в Иране, Азербайджане и других странах дается высокая оценка его деятельности, создается его поэтический образ. В статье подавляющее большинство книг и статей, посвященных его жизни и деятельности были проанализированы автором и были получены научные результаты.

## SUMMARY

**Life and activity of the leader of national movement**
**Seyid Jafar Pishavari in aspect of modern literary criticism**

In this article| the articles and researches in the modern literary criticism, the devoted lives and activity to the leader and the active participant of revolutionary-democratic movement of Seyid Jafar Pishavari were studied. The author showed that in the art, scientific and publicistic books published in Iran, Azerbaijan and other countries appreciation of its activity is given, its poetic image is created. In article the vast majority of books and articles devoted to his life and activity were analysed by the author and scientific results were received.



Scanned with ACE Scanner

# ƏDƏBİYYAT TARİXİNİN TƏDRİSİNDƏ HEYDƏR ƏLİYEV NƏZƏRİ İRSİ VƏ ŞƏXSİYYƏTİ İLƏ BAĞLI MƏSƏLƏLƏR

**Ramil ƏLİYEV,**
**filologiya üzrə elmlər doktoru, professor**

***Açar sözlər:*** *ədəbiyyat, Heydər Əliyev, şəxsiyyət, obraz.*

Ədəbiyyatda insan, şəxsiyyət və ona inam problemi həmişə öndə olmuşdur. Şəxsiyyətin formalaşması və onun məqsədyönümlü fəaliyyəti tədqiqatların da aparıcı mövzusudur. Bədii ədəbiyyatda insan – qəhrəman – şəxsiyyət – obraz amilinin müxtəlif səviyyələrdə inkişafı ədəbi, fəlsəfi, sosioloji, psixoloji aspektlərdən izah olunmaqdadır. Bu aspektlərin hər birində şəxsiyyət və fərd, onun gücünə inam əsas diqqət mərkəzindədir. Ədəbiyyatın bu problemləri həll etməsində həmişə şəxsiyyətin roluna ehtiyacı olmuşdur. Müasir dövrdə belə bir şəxsiyyət isə ədəbiyyatımızın böyük qayğıkeşi, ulu öndər Heydər Əliyevdir. Müstəqillik dövründə ədəbiyyatın sosioloji təhlilinin aparılmasında da şəxsiyyətə inamın böyük rol oynadığını görürük.

**Şəxsiyyət və ədəbiyyat.** Ədəbiyyat tarixi müxtəlif dövrlərdə görkəmli şəxsiyyətlərin qayğısı ilə həmişə özünün yeni mərhələsinə daxil olur. Əgər XX əsrin əvvəllərində ədəbiyyatın inkişafında Firudin bəy Köçərlinin imzası ilə ilk tarixi qeydəalma mərhələsi başlanmışdısa, həmin əsrin son onilliklərində Heydər Əliyevin yaxından köməyi ilə ədəbiyyat tarixində xüsusi təkamül mərhələsi yarandı. Əgər XX əsrin əvvəllərinin ədəbiyyat tarixçiliyi ədəbi faktları qeydə almaqla və ona şərh verməklə tamamlanırdısa, əsrin sonunda ədəbiyyat tarixçiliyi onu himayə edən tarixi şəxsiyyətin milli heysiyyatı və azərbaycançılığı ilə daha yüksək zirvələri fəth etdi.

XX əsrin 60-cı illərinin əvvəlində milli ədəbiyyatda yeni meyillərin, tendensiyaların, xüsusilə azərbaycançılıq məfkurəsinin yer alması müşahidə olunurdu. Yeni ədəbi qüvvələrin himayə olunması, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi böyük şairlərin yaradıcılığı ilə bağlı yaranan qorxulu proseslərin aradan qaldırılması məhz Heydər Əliyev şəxsiyyətinin uzaqgörənliyi ilə bağlı olmuşdur.

Ədəbiyyat tarixində Heydər Əliyev şəxsiyyətinin rolu məsələləri bir neçə tarixi faktlardan asılı olaraq tədris zamanı gənc nəslin nəzərinə çatdırılmalıdır. Çünki ədəbiyyat tarixçiliyi tədrislə həmişə qarşılıqlı əlaqədə inkişaf edir. Bu mənada tədrisin əhəmiyyəti tarixi ədəbi şəxsiyyətlərin yaradıcılığının tərənnüm edilməsi, əsərlərinin geniş auditoriyalarda təbliği məsələləri ilə ölçülür. Bu məsələlər bir neçə aspektdə öz elmi və pedaqoji həllini tapır.



Ədəbiyyatın tədrisinin ən ümdə vəzifəsi kitab və dərsliklərin hazırlanmasında təlimin yeni keyfiyyətlərlə zənginləşməsinə rəvac verən Heydər Əliyevin ədəbiyyatla bağlı çıxışlarından istifadə etməsidir. Hələ 1972-ci ildə Azərbaycan yazıçılarının 5-ci qurultayında H.Əliyev ədəbiyyatın mühüm problemlərinə toxunmuş, xüsusilə o zamankı gənc yazıçıların yaradıcılığına diqqət artırmağı tövsiyə etmişdir [1, s.26].

**Heydər Əliyev və humanist məsələlər.** XX əsrin sonunda Azərbaycan ədəbiyyatının tədrisi yeni mərhələyə qədəm qoydu. Bu dövrün ədəbiyyatının tədrisini səciyyələndirən mühüm keyfiyyət amili yenə də H.Əliyevin adı ilə bağlıdır. Tədrisdə adları qadağan olunmuş şair və yazıçıların, dastanların təbliği məsələlərinə indi yeni prizmadan yanaşılır. Milli ədəbiyyat tariximizin, milli dastan tariximizin səhifələrinə daha diqqətlə nəzər yetirilir. H.Əliyevin təhsil ilə bağlı verdiyi fərmanlar, qərarlar, xüsusi çıxışları ədəbi şəxsiyyətlərin, ədəbi abidələrin adlarının xalqa qaytarılmasında mühüm rol oynayır. Onun bu tarixi xidmətlərini aşağıdakı kimi təqdim etmək olar:

- Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı;
- Səməd Vurğunun 90 illiyi ilə bağlı nitqi;
- M.Füzuli ilə bağlı yubileyin keçirilməsi;
- Hüseyn Cavidin ev-muzeyinin açılışı;
- M.Arazın yubileyi ilə bağlı çıxışı;
- «Kitabi-Dədə Qorqud»un 1300 illiyinin keçirilməsi və s.[1]

Vaxtilə adları az qala ədəbiyyat tarixindən çıxmaq təhlükəsi ilə qarşılaşmış H.Cavid, B.Vahabzadə, X.Rza Ulutürkün ədəbi şəxsiyyətləri, dünya ədəbiyyatı tarixində qalan əsərləri məhz Heydər Əliyev dühasının xilaskarlığı sayəsində xalqa qaytarılır. Onun bu tarixi xidmətindən qazanan təkcə ədəbiyyat tarixi olmur, eləcə də ədəbiyyatın tədrisi də bu xidmətdən faydalanır. Burada diqqəti cəlb edən insan amili, ona qayğı, bədii yaradıcılığa olan inamdır. H.Əliyev də onlara yaradıcı şəxsiyyət kimi inam bəsləmiş, ədəbiyyata humanizmini əsirgəməmişdir. Vaxtilə ədəbiyyat tarixi dərsliklərindən adları çıxarılmış şair və yazıçılar, milli dastanlar yeni ədəbiyyat dərsliklərinə salınır, gənc nəsil onların adları ilə bağlı tarixdə baş vermiş haqsızlıqlarla tanış olur. Məsələn, XX əsrin əvvəllərində Hüseyn Cavidin yaradıcılığı və şəxsiyyəti ilə bağlı baş verən hadisələr öz məcrasından çıxdı, B.Vahabzadənin «Gülüstan» poeması «Şəki fəhləsi» qəzetində dərc olunduqdan sonra əsərin yayılmasına qadağa qoyuldu və müəllif təhlükə ilə üzləşdi. Qəzetin tirajı yığışdırıldı. Beləliklə, ədəbiyyata qarşı aqressiya, təcavüz insidenti başlandı. İnsana inam hissi itdi. Təbii bir qanunauyğunluq kimi, bunların nəticəsi olaraq, onların adları da ədəbiyyat dərsliklərinə salınmadı. Bu dövrün ictimai-siyasi hadisələrinin nəticələrinin mənfi məcrada inkişaf etməməsi üçün şəxsiyyətin roluna ehtiyac yarandı.

---

[1] Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Bakı. Azərnəşr, 1997; Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı. Azərnəşr, 1997; Müstəqilliyimiz əbədidir. 3-cü kitab. Bakı. Azərnəşr, 1999; Müstəqilliyimiz əbədidir. 20-ci kitab. Bakı: Azərnəşr. 2000. Müstəqilliyimiz əbədidir. 42-ci kitab. Bakı. Azərnəşr. 2012.



Scanned with ACE Scanner

**Yaradıcı insanların qorunması, şəxsiyyətə inam və sosial humanizm.** Heydər Əliyev ədəbiyyatda keyfiyyət dəyişikliklərini hiss edərək onun yaradıcılarını aqressiyadan qorumağı missiya kimi üzərinə götürdü. Eyni həyəcanlı illəri Xəlil Rza Ulutürk yaşamaqda idi. Tədris sahəsi bu şairlərin adlarının ədəbiyyat tarixinə qaytarılması səbəbindən dərslik və proqramlarda onların əsərlərinin təhlilinə yer ayırmağı məqsədəuyğun hesab etdi. Bu gün XX əsr Azərbaycan ədəbiyyatının tədrisində H.Cavid, B.Vahabzadə və Xəlil Rzanın əsərləri üzrə təhlillər yüksək elmi səviyyədədir.

H.Əliyev Azərbaycana dönəndən sonra Ali Sovetin sessiyasında Bəxtiyar Vahabzadənin cəsarətli çıxışını minnətdarlıqla xatırlayırdı [3, s.219]. 15 aprel 1995-ci il tarixli fərmanı ilə müstəqillik dövrünün böyük şairlərinin (B.Vahabzadə, M.Araz, M.Dilbazi və X.R.Ulutürk) «İstiqlal» ordeni ilə təltif edilmələri də ədəbiyyata göstərilən qayğının ən yaxşı təzahür forması idi [3, s.54]. Onlar istiqlal şairləri idi və öz ədəbi-ictimai-siyasi məfkurələrində azadlığın bəxş olunmadığını, onun qətrə-qətrə yığılmamasını, qan bahasına əldə ediləcəyini görürdülər. Xəlil Rzanın Lefortovo həbsxanasında azadlıq uğrunda çəkdiyi əziyyətlər bu azadlıq aşiqini sındıra bilməmişdi. Onun «Dədə Heydər – Atatürk» şeirində H.Əliyev şəxsiyyətinə olan inam özünü bariz şəkildə göstərirdi. Şair yazırdı:

Azadlıq allahıtək əyləşib öz yerində,
Yerin, göyün nuru var peyğəmbər gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində,
Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük,
Dədə Heydər – Atatürk. [2, s.264 - 265]

Bu şeir Heydər Əliyev şəxsiyyətinə olan böyük sevgidən doğulmuşdu və onun şəxsiyyətinin tərənnümü idi. 1992-ci ildə Naxçıvanda Ümid körpüsünün açılışında Türkiyə – Naxçıvan birliyinin ifadəsi olaraq Xəlil Rza bu şeiri söyləmişdi.

Son zamanların ali məktəb üçün yazılan Azərbaycan ədəbiyyatı dərsliklərində X.Rzanın yaradıcılığına yer ayrılmaması təəccüb doğurur [4]. Bunun əksinə olaraq, Bakı Dövlət Universitetinin nəşri olan «Müasir Azərbaycan ədəbiyyatı» dərsliyinin 2-ci cildində Xəlil Rza yaradıcılığına yer ayrılmış, şairin yaradıcılığı qismən təhlil olunmuşdur [5, s.458 – 465]. Zənnimizcə, Xəlil Rzanın H.Əliyevə həsr etdiyi əsərlərin ədəbiyyat dərsliklərinə salınması çox vacibdir.

**Heydər Əliyevin şəxsiyyətinə ədəbi münasibət.** Ədəbiyyat tarixi dərsliklərində Heydər Əliyevin Azərbaycan ədəbiyyatı ilə bağlı məqalə və şərhlərinin yer almaması da narahatlıq doğurur. Məsələn, 1999-cu ildə «Azərnəşr» tərəfindən çap olunan H.Əliyevin «Ədəbiyyatın yüksək borcu və amalı» kitabından nəzəri mənbə kimi istifadə etmək olar. Amma bu yararlanma kor-koranə olmamalıdır.

Azərbaycan ədəbiyyatının təbliği ilə bağlı H.Əliyevin ictimai fəaliyyəti haqqında çox yazılmışdır. Bu sıraya Akif Əliyevin «Heydər Əliyev və ədəbiyyatımız», Ədəbiyyat İnstitutunun yüksək səviyyəli müəlliflərinin yazılarını özündə əks etdirən «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» kitablarını daxil etmək olar [6; 3]. Hər iki kitabın tədrisdə əhəmiyyəti, onlardan istifadənin müəllimlərə nə qədər fayda verəcəyi göz önündədir. Məsələn, A.Əliyev Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» (1-ci kitab; 2-ci kitab. Bakı, 1997) kitabında bu dahi şəxsiyyətin ədəbiyyata bağlı olduğunu, xüsusilə S.Vurğunun yaradıcılığı, onun ailəsi, «Vurğun ocağı» ilə fəxr etdiyini yazır [6, s.284].



Heydər Əliyevin elmi-nəzəri məqalələri də yeni ədəbiyyat tarixinin yazılmasında mühüm rol oynayır. «Qoy ədalət zəfər çalsın» ("Literaturnaya qazeta", 18 noyabr 1981), «Yazıçılarımızın şərəfli vəzifəsi» («Azərbaycan» jurnalı, 1971, № 6), «Ədəbi birlik» («Ədəbiyyat və incəsənət» qəzeti, 14 noyabr 1972), «Dostluq və qardaşlıq bayramı» («Kitablar aləmində» jurnalı, 1975, № 3), Azərbaycan yazıçılarının VI qurultayında nitqi («Azərbaycan» jurnalı, 1976, № 6), «Xalqların dostluğu ədəbiyyatın dostluğudur» («Azərbaycan kommunisti», 1980, № 9) və başqa məqalələri ədəbiyyatşünaslığın aktual məsələlərinə həsr edilmişdir.

Azərbaycan ədəbiyyatı tarixi dərsliklərində «Heydər Əliyev və Hüseyn Cavid», «Heydər Əliyev və «Kitabi-Dədə Qorqud», «Heydər Əliyev və Bəxtiyar Vahabzadə», «Heydər Əliyev və Xəlil Rza Ulutürk», «Heydər Əliyev və milli ədəbiyyat problemləri», «Heydər Əliyev və klassik ədəbiyyat», «Heydər Əliyev və Azərbaycan folkloru» kimi bölmələrin yazılması böyük öndərin şəxsiyyətinə olan məhəbbətin təzahürüdür. Ədəbiyyatşünaslığımız «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» toplusunda adları çəkilən mövzulara aydınlıq gətirmişdir. Bu vəzifənin dərsliklərdə və proqramlarda öz həllini tapması müəlliflər üçün o qədər də çətin olmaz.

**Heydər Əliyevin folklor humanizmi.** Azərbaycan şifahi xalq yaradıcılığında Heydər Əliyev şəxsiyyəti artıq obrazlaşmaqdadır. Zənnimizcə, bunun səbəbi Heydər Əliyevin şifahi xalq ədəbiyyatına göstərdiyi qayğı olmuşdur. «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanlarının təbliğində, Aşıq Alının, Dədə Ələsgərin, Dədə Şəmşirin yubileylərinin keçirilməsində Heydər Əliyevin təşəbbüsü və qəbul olunan qərarların rolu böyük olmuşdur. 2002-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində «Folklor haqqında Qanun»un qəbul edilməsi göstərilən qayğı ilə bağlıdır [3, s.89]. Bütün bunlara bir cavab kimi Aşıq Əhlimanın, Aşıq Muradın, Aşıq Mahmudun [3, s.90], Aşıq Haşımın, Aşıq Soltanın, Məhəmmədnəbi Əlixanovun yaradıcılığında [7, s.626] Heydər Əliyev obrazının yaradıldığını görürük.

Göründüyü kimi, Azərbaycan ədəbiyyatı tarixinin tədrisi yeni mərhələyə qədəm qoymuşdur. Bu ədəbiyyat tarixinin yaradıcıları yazıçı və şairlər olmuş, təhlil və ideya məfkurəsinə isə tənqidçilər və ideoloqlar istiqamət vermişlər. Ədəbiyyat tarixinin məmnuniyyətlə xatırladığı, bəhs etdiyi yaradıcı şəxsiyyətlər içərisində Heydər Əliyevin adı ön sıralardadır. Bunu Heydər Əliyev haqqında yazılan kitablar sübut edir.

**Nəticə.** Ədəbiyyatda intibah həmişə olmuşdur. İntibah prosesi insan, ona humanist münasibət və qayğı məsələlərindən kənarda deyildir. Müasir



Scanned with ACE Scanner

mərhələdə də ədəbiyyatın intibah prosesini keçməsi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev sosial sferada insana və yaradıcı şəxsiyyətə inanmışdır. Onun ədəbiyyata və şəxsiyyətə qayğı sahəsində gördüyü işləri aşağıdakı kimi xarakterizə etmək olar:

- H.Əliyevin şəxsiyyətin ədəbi yaradıcılıq prosesində roluna böyük inamı olmuşdur;
- H.Əliyev 60-cı illərdən başlanan intibaha meyilli ədəbiyyatın mayakına çevrilmişdir;
- H.Əliyev milli folklorun keşiyində durmuş, folklor şəxsiyyətlərinə önəm vermişdir;
- H.Əliyev görkəmli aşıqların şəxsiyyətinə qiymət vermişdir;
- Sosial sferadakı xidmətləri nəticəsində bədii yaradıcılıqda onun obrazı yaradılmışdır.

### ƏDƏBİYYAT


1. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Tərtibçi V.Quliyev. Bakı: Ozan, 2000.
2. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. Şeirlər və poemalar. Bakı: təhsil, 2012.
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009.
4. Əhmədov Bədirxan. Azərbaycan ədəbiyyatı tarixi. XX əsr. 2-ci cild. Bakı, 2010.
5. Müasir Azərbaycan ədəbiyyatı. 2-ci cild. Bakı, 2007.
6. Əliyev A. Heydər Əliyev və ədəbiyyatımız. Bakı, 2007.
7. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, 2006.



### РЕЗЮМЕ

**О вопросах наследия и личности Гейдара Алиева в процессе преподавания литературной истории**

Литература привлекает внимание как продукт постоянно развивающегося литературного процесса, и в качестве главной силы ведущей этот процесс вперед выступают личности, одним из которых является Гейдар Алиев. Его заслуги перед отечественной литературой очень велики. Гейдар Алиев выполнил огромную работу в плане покровительства писателей и поэтов, а также других вопросов связанных с литературой. С его именем связано оценка на государственном уровне творчества классических поэтов, проведение юбилеев выдающихся ашугов, празднование 1300 летней истории эпоса «Книга моего Деда Коркуда» на высшем уровне. Все это способствовало созданию образа Гейдара Алиева в азербайджанском фольклоре.

В статье выдвигается вопрос преподавания наследия Гейдара Алиева в учебниках.



### SUMMARY

**About the heritage and personality of Heydar Aliyev in the teaching of the history of literature**

The literature draws attention as the product of the continuously developing literary process, and the forces leading this process are the famous personalities, one of which is Heydar Aliyev. Heydar Aliyev has performed great services for the Azerbaijani literature in terms of both patronizing the writers and poets and drawing attention to the issues related to the literature. The value given to the creation of the classical poets by the government and high-level celebration of the 1300 year anniversary of the "Kitabi-Dede Gorgud" epos are connected with the name of Heydar Aliyev. All these resulted in establishment of the image of Heydar Aliyev in the Azerbaijani folklore as well.

The article brings forward the issue of teaching the heritage of Heydar Aliyev in textbooks.




# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİ TƏLİMİNİN MƏZMUNCA İŞLƏNİLMƏSİ


**Asif HACIYEV,**
**ARTPİ-nin aparıcı elmi işçisi,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**


**Açar sözlər:** *məzmun, təlim, tələb, dil, nitq, bacarıq.*

Ümumtəhsil məktəblərində aparılan kurikulum islahatı bütün fənlərin, o cümlədən "Azərbaycan dili" fənninin məzmunca yenidən işlənilməsinə gətirib çıxardı. Təhsilin hər bir səviyyəsində (ibtidai, orta və tam orta təhsil) gözlənilən ümumi nəticələr fonunda konkret siniflər üzrə standartlaşdırılmış bacarıqların verilməsi fənnin məzmununu müəyyənləşdirməyə və təlim prosesini şagirdlərin dil və nitq fəaliyyətinə müvafiq istiqamətlər üzrə qurmağa imkan yaratdı. Təhlil göstərdi ki, dilin daxili quruluşu ilə bağlı linqvistik bilik və bacarıqların formalaşdırılmasını önə çəkən ənənəvi məzmundan fərqli olaraq yeni modeldə işlənilmiş bu məzmun şagird nitqinin fəaliyyət növlərinə uyğun inkişafına və praktik mahiyyət daşıyan ən zəruri dil fakt və hadisələrinin mənimsənilməsinə yönəldilib. Beləliklə, dilə yiyələnmə şagirdin oxu və ya müşahidə vasitəsilə öyrəndiklərini, düşündüklərini şifahi və yazılı şəkildə ifadə etmə, başqaları ilə ünsiyyət qurma bacarıqlarının sinifdən-sinfə təkmilləşməsini, son nəticədə isə nitq mədəniyyətinin formalaşmasını bir məqsəd kimi həyata keçirir. Yeni proqramda məzmun dəyişməz istiqamətlər (xətlər) üzrə biri digərini tamamlayan və inkişaf etdirən alt standartlar şəklində verilsə də, təcrübə göstərir ki, təhsil səviyyələrinin özünəməxsus xüsusiyyətlərini nəzərə almadan müvafiq dərsliklərdə onun optimal variantda işlənilməsinə nail olmaq mümkün deyil.

İbtidai siniflərdə Azərbaycan dili inteqrativ fənn kimi nəzərdə tutulduğundan şagirdlərin nitq bacarıqlarının inkişafı və dünyagörüşlərinin artırılması dilin daxili qurluşunu əks etdirən sadə qaydalara və xalqımızın tarixinin ən önəmli səhifələrini, əxlaqi-mənəvi dəyərlərini, adət-ənənələrini öyrənməyə xidmət edən bədii və elmi-kütləvi mətnlərə istinadən yerinə yetirilir. Ona görə də ibtidai siniflər üçün işlənilmiş Azərbaycan dili dərsliklərində mətn nümunələri üzərində iş həm də dilə aid fakt və hadisələrin mənimsənilməsinə xidmət edir. Daha dəqiq desək, mətnin məzmun və ideyası üzərində iş onun struktur elementlərini təşkil edən abzas, cümlə və söz üzərində işlə tamamlanır. Şagirdin düzgün, axıcı (rəvan), şüurlu, ifadəli oxu bacarıqları mətni təşkil edən dil vahidlərinin məntiqi və qarammatik əlaqəsinin dərki yolu ilə möhkəmləndirilərək formalaşması nisbətən daha çətin sayılan yazı bacarıqlarının və linqvisitik təfəkkürlərinin inkişafına zəmin yaradır. İlk baxışda sadə görünən bu aydın metodik yanaşmaya baxmayaraq, Azərbaycan dili dərsliklərinin işlənilməsində iki mühüm problem hələ də mübahisə obyekti olaraq qalmaqdadır ki, bunlardan



Scanned with ACE Scanner

birincisi mətn nümunələrinin seçimi, digəri isə dil fakt və hadisələrini əks etdirən materialların hansı ardıcıllıqla verilməsi ilə bağlıdır. Metodik ədəbiyyatda bədii və elmi-kütləvi mahiyyət daşıyan materialların seçimində müxtəlif amillər qabardılsa da, şagirdlərin bədii-estetik zövqünün inkişafı və ətraf aləm haqqında bilgilərinin genişlənməsi başlıca şərt kimi açıqlanır. Eyni zamanda belə bir tələb qoyulur ki, bədii materiallar nəsr və nəzmin müvaziliyi gözlənilməklə uşaqlara aid şifahi və yazılı ədəbiyyatın ən dəyərli nümunələrini, elmi-kütləvi materiallar isə təbiət və cəmiyyətə aid ən aktual məsələləri əks etdirməlidir. Bundan əlavə, mətn nümunələrinin seçimində dil və üslub məsələləri vacib element kimi götürülməlidir. Belə ki, təqdim edilən materialın lüğət tərkibi və qrammatik quruluşu şagird üçün sadə və anlaşıqlı olmalı, üslubi baxımdan isə aydın və dərkolunan səviyyədə işlənilməlidir. Təhlil göstərir ki, ibtidai siniflər üçün hazırlanmış yeni nəsil Azərbaycan dili dərsliklərində bu tələblərə tam riayət olunmamışdır. Onların tərtibində aşağıdakı nöqsanlar xüsusi olaraq diqqəti cəlb edir:

- nəzm nümunələri ilə müqayisədə iri həcmli nəsr nümunələrinə daha çox yer verilir;
- yazılı ədəbiyyatla müqayisədə şifahi ədəbiyyat nümunələri zəif işıqlandırılır;
- elmi-kütləvi materiallar bəzən maraq doğurmayan mövzulara aid olur;
- elmi-kütləvi materialların dili şagirdlərin anlam səviyyəsinə uyğun adaptə edilmir və s.

Ən mübahisəli məqam isə dilin daxili quruluşuna aid məlumatların hər hansı bir metodik prinsipə əsaslanmadan verilməsidir. Adətən, ibtidai siniflərdə dillə bağlı materiallar pilləli və spiralvari şəkildə təqdim edilir ki, bu da müvafiq linqvistik bilik və bacarıqların mərhələ-mərhələ dərinləşdirilərək möhkəmləndirilməsini təmin edir. Başqa sözlə, fonetika, leksika, morfologiya və sintaksisə aid ən zəruri bilgilərin sadədən mürəkkəbə doğru siniflər üzrə həcm gözlənilməklə bölüşdürülməsi mənimsəmə üçün optimal şərait yaradır. Lakin mövcud dərsliklərdə özünü təcrübədə doğrultmuş bu prinsiplərə əməl edilmədiyindən dil materialları siniflər üzrə qeyri-proporsional həcmdə paylanmışdır. Bunun nəticəsidir ki, II və III sinif dərsliklərində dilimizin qrammatik quruluşuna aid məlumatlara geniş yer verilirsə, IV sinif dərsliyində pərakəndə şəkildə paylanmış bir neçə dil qaydasına rast gəlinir. Təbii ki, dil fakt və hadisələrini əks etdirən biliklərin sistemsiz təqdimi təlim yükünün asandan çətinə doğru düzgün müəyyənləşdirilməsinin qarşısını alır. Beləliklə, şagirdlərin linqvistik biliklər əsasında formalaşan idraki inkişafında boşluqlar yaranır ki, bu da pedaqoji, psixoloji və metodik baxımdan yolverilməzdir.

"Azərbaycan dili" fənni qarşısında qoyulmuş vəzifələrin bir qismi V sinifdən başlayaraq "Ədəbiyyat" fənni üzərinə köçürülür. Doğrudur, şifahi və yazılı nitq vərdişlərinin inkişafı hər iki fənn üçün ortaq prioritet məsələlərdən sayılsa da, ədəbi və linqvistik bacarıqların aşılanması baxımından diferensasiya edilir. Bu mərhələdə "Azərbaycan dili" artıq inteqrativ fənn kimi deyil, bir çox fənlərlə, o cümlədən "Ədəbiyyat" fənni ilə qarşılıqlı



əlaqədə olan fənn kimi tədris olunur. Odur ki, təlim prinsiplərində, təlim materiallarının işlənilməsində yeni yanaşmalara istinad olunması zəruriliyi ortaya çıxır. Mövcud təcrübə isə göstərir ki, V və VI siniflər üçün hazırlanmış Azərbaycan dilinə aid yeni dərsliklərdə bu əsaslı dəyişiklik nəzərə alınmamış, ibtidai siniflərdə götürülən xətt eynilə davam etdirilmişdir. Fikrimizcə, bunun başlıca səbəbi əksər dünya ölkələrində təlimin bu mərhələsində də, yəni orta təhsil səviyyəsində dil və ədəbiyyatın bir inteqrativ fənn kimi tədris olunması və həmin əsasda hazırlanmış dərsliklərin örnək olaraq götürülməsidir. Qabaqcıl təcrübənin öyrənilib ölkəmizin təhsil sistemində yayılması təqdir edilməli amildir. Lakin hər bir yanaşma mexaniki şəkildə deyil, müvafiq prinsiplərə istinad edilərək tətbiq edilməlidir. Ona görə də təhsil strategiyasının köklü şəkildə yeniləşdiyi müasir mərhələdə Azərbaycan dili təliminin hansı prinsiplər əsasında həyata keçirilməsinə bir aydınlıq gətirilməlidir ki, bir çox metodik xarakterli məsələlərin, o cümlədən təlim materiallarının işlənilməsində nələrə istinad olunması dəqiq müəyyənləşdirilsin.

Araşdırılan problem dilimizin tədrisi metodikasının ən aktual məsələlərindən biri kimi daim diqqət mərkəzində olub, bu gün də öz elmi əhəmiyyətini itirməyən dəyərli fikir və mülahizələrin irəli sürülməsi ilə müşahidə olunur. Bunlardan aşağıdakılar üzərində ayrıca dayanmaq istərdik. Görkəmli alim B.Əhmədov Azərbaycan dili təlimində aşağıdakı 3 metodik prinsipə istinad edilməsini məqsədəuyğun sayır:

1) dil təliminin semantik-qrammatik prinsip üzərində qurulması;

2) təlimdə dilin nəzəri məsələlərinin şagirdin nitq praktikası zəminində şərh edilməsi;

3) təlimdə dilin vahid strukturasının mühafizə olunması, yəni dilin bütün komponentlərinin, nitqin növ və formalarının qarşılıqlı əlaqədə götürülməsi, fənlərarası əlaqəyə diqqət yetirilməsi (1, 68-74).

Hər bir prinsipin mahiyyətini nəzəri və praktik baxımdan açıqlayan alim onların həm ümumdidaktik prinsiplərlə, həm də özləri arasında qarşılıqlı əlaqədə götürülməsini vacib bilir (1, 79).

Digər görkəmli alimimiz Ə.Əfəndizadə isə ümumdidaktik mahiyyət daşıyan prinsiplərin dil təlimində spesifikləşmə xüsusiyyətindən çıxış edərək onları aşağıdakı kimi qruplaşdırır:

1) Azərbaycan dili kursunda bölmələrin bir-biri ilə əlaqələndirilməsi prinsipi;
2) Azərbaycan dili üzrə nəzəri biliklər əsasında bacarıq və vərdişlərin formalaşdırılması prinsipi;
3) şagirdlərin dil duyumunun inkişaf etdirilməsi prinsipi;
4) Azərbaycan dili təlimində şifahi və yazılı nitqin qarşılıqlı əlaqəsinə əsaslanma prinsipi;
5) təlim prosesində nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyinin gözlənilməsi prinsipi (2, 5-6).

Azərbaycan dili təliminin məzmununu və təşkilinin əsas istiqamətlərini müəyyənləşdirməyə xidmət edən bu prinsipləri birləşdirən başlıca cəhət dillə nitqin, nəzəri məlumatlarla praktikanın, dilin daxili quruluşunu əks etdirən bölmələrin, eləcə də nitqin şifahi və yazılı formalarının qarşılıqlı əlaqədə



Scanned with ACE Scanner

götürülməsidir. Bütün müsbət cəhətlərinə baxmayaraq, bu prinsiplər əsasında işlənilən təlim materiallarında nəzəri biliklərin aşılanması praktik vərdişlərin formalaşması ilə müqayisədə önə çəkilir, linqvistik anlayışların şərhinə isə nitq bacarıqlarının formalaşmasına xidmət edən bədii mətn nümunələrindən daha geniş yer verilirdi. Bunun nəticəsidir ki, dil haqqında normativ qaydalar çərçivəsində müəyyən biliklər qazanmış ümumtəhsil məktəbini bitirən şagirdlərin şifahi və yazılı nitq bacarıqları qoyulan tələblər səviyyəsində inkişaf etmirdi. Sözsüz ki,"Azərbaycan dili" fənn kurikulumu işlənərkən bu neqativ hallar ilk növbədə nəzərə alınmışdır (6). Buna görə də təlimin məzmunu şagirdlərin hərtərəfli nitq mədəniyyətinin formalaşmasına xidmət edən ən zəruri bacarıqlar üzərində qurulmuşdur ki, onları səciyyəvi xüsusiyyətlərinə görə 3 qrupa ayırmaq olar:

- nitq bacarıqları;
- dil bacarıqları;
- linqvistik bacarıqlar.

Əgər nitq bacarıqları ünsiyyət prosesində qazanılan və müəyyən əməliyyatlar, təmrinlər vasitəsilə avtomatlaşan qabiliyyətləri əhatə edirsə, dil bacarıqları intiutiv şəkildə insana verilmiş, lakin müşahidə və mütaliə vasitəsilə dərinləşdirilən qabiliyyətləri əhatə edir. Nitq bacarıqları şifahi ünsiyyətdə, dil bacarıqları isə yazı prosesində daha aydın özünü göstərir. Nitq və dil bacarıqları arasında qarşılıqlı əlaqə olmasına baxmayaraq, onlar müstəqil şəkildə də fəaliyyət göstərə bilirlər. Məhz bunun nəticəsidir ki, bəzən yazı qabiliyyəti yüksək olan şagirdlərin danışıq qabiliyyəti zəif olur, yaxud aydın, məntiqi nitqə malik şagird fikrini yazılı şəkildə ifadə etməkdə çətinlik çəkir. Ona görə də təlim prosesində dil və nitq bacarıqlarının qarşılıqlı əlaqədə inkişaf etdirilməsi vacib sayılır. Linqvistik bacarıqlar isə dil fakt və hadisələrinin ümumiləşdirilməsi yolu ilə əldə edilən idarki qabiliyyətlərdir.

Müasir mərhələdə Azərbaycan dili təliminin metodik prinsiplərini müəyyənləşdirərkən bu istiqamətlərdən çıxış edərək, onları aşağıdakı kimi ifadə etməyi məqsədəuyğun bilirik:

1. Dilin nitq fəaliyyəti zəminində tədrisi prinsipi;
2. Dilin şagirdlərin dil duyumunun inkişafı istiqamətində tədrisi prinsipi;
3. Dilin linqvistik təfəkkürünün formalaşması yönümündə tədrisi prinsipi.

Dilin nitq fəaliyyəti zəminində tədris prinsipi təlim materiallarının işlənilməsində, təlim prosesinin təşkilində nitqin dinləyib-anlama, danışma, oxu və yazı kimi fəaliyyət növlərinə əsaslanmağı zəruri edir (5). "Azərbaycan dili" fənn kurikulumunda ümumi təlim nəticələrinin reallaşdırılması üçün şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək, onları sistemləşdirmək məqsədi daşıyan məzmun xətlərinin üçü (dinləyib-anlama və danışma, oxu və yazı) bu prinsip əsasında müəyyənləşdirilmişdir. Odur ki, dərslik və dərs vəsaitləri hazırlanarkən təlim materiallarının seçimində və işlənilməsində bu prinsip aparıcı xətt kimi götürülməlidir. Məlumdur ki, bitkin, tamamlanmış nitq rabitəli mətn formasında şifahi və yazılı şəkildə ifadə olunur. Yeni nəsil dərsliklərində bu amil nəzərə alındığından mövzular müxtəlif məzmunlu mətnlər üzərində qurulmuş tapşırıqları əhatə edir.



Metodik araşdırmalar təlim materiallarını əks etdirən həmin mətnlərin mövzu, üslub, janr baxımından rəngarəngliyini bir tələb kimi irəli sürür. Yığcamlığı, struktur bitkinliyi ilə səciyyələnən bu mətnlər nəqli, təsviri və mühakimə xarakterli olmaqla yanaşı, məlumatlandırıcı və tərbiyəvi mahiyyət daşımalı, əsasən bədii, qismən də elmi-kütləvi məzmunda olmalıdır. Bədii mətnlərin seçimində görkəmli söz ustalarının əsərlərinə və ya onlardan götürülmüş parçalara üstünlük verilməlidir. Professor Ə.Əfəndizadə bu amilə xüsusi önəm verərək yazır: "Azərbaycan dili dərslərində həmişə bədii sözün, obrazlı ifadələrin ətri gəlməlidir. Bu fənnə aid materiallarda klassiklərimizin, sovet ədəbiyyatı nümayəndələrinin, həmçinin görkəmli alimlərin, mütəfəkkirlərin gözəl kəlamlarından, təkraredilməz ifadə tərzlərindən, eləcə də folklor materiallarından və s. geniş istifadə olunmalıdır" (3, 16). Burada diqqəti belə bir fakta yönəltmək istərdik ki, müəllif "sovet ədəbiyyatı nümayəndələri" dedikdə geniş mənada deyil, Azərbaycan sovet ədəbiyyatının korifeylərini nəzərdə tuturdu. Ümumiyyətlə, dərsliklərdə dil və üslub baxımından zəif işlənilmiş, didaktik əhəmiyyət daşımayan təlim materialları getməməlidir.

Mətn üzərində işlə əlaqədar tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsinə yönəldilməlidir. Ona görə də qoyulan şərtlər verilmiş mətnə ad seçmək, onun məzmununu I və ya III şəxs adından danışmaq, sonluğu dəyişmək, yaxud yeni məzmunda tamamlamaq, oxşar mövzuda mətn tərtib etmək və s. kimi şagirdlərin şifahi və yazılı nitqinin hərtərəfli inkişafına xidmət edən işlərlə bağlı olmalıdır. Nitq və təfəkkür arasındakı dialektik əlaqə onların müvazi inkişafında bu tipli tapşırıqların müstəsna rol oynadığını sübuta yetirir.

Dilin şagirdlərin dil duyumunun inkişaf etdirilməsi istiqmətində tədrisi prinsipi, ilk növbədə, dilə həssas münasibətin, sevgi və qayğının aşılanmasını təmin edir. Şagirdin doğma dilə yiyələnmək istəyi sözlə işləmək bacarığından başlayır. Sözün sehrinə düşüb onun daşıdığı məna çalarlarını mənimsəmək şagirdin lüğət ehtiyatının zənginliyi üçün başlıca şərtdir. Söz ehtiyatının zənginliyi isə fikir zənginliyi deməkdir. Dil xalqın tarixi yaddaşını, mənəvi dəyərlərini özündə yaşadan elə bir sərvətdir ki, şagird qəlbində ona hisslər oyatmaqla vətənə, torpağa əbədi sədaqət duyğusu yaratmaq mümkündür. Odur ki, təlim materiallarında frazeoloji birləşmələrlə zəngin aforistik deyimlərə, yer, tayfa, tarixi şəxs adlarının, eləcə də bəzi arxaizmlərin mənşəyini anlamağa imkan verən etimoloji arayışlara mütəmadi şəkildə müraciət olunmalıdır. Şagirdlərin dil duyumu verilmiş mətnin ideyasının, onun hissələri arasında məntiqi əlaqənin, fikir daşıyıcısı olan açar sözlərin müəyyənləşdirilməsi, eləcə də tanış olmayan çətin sözlərin semantikasının açıqlanması zamanı daha aydın inkişaf edir. Məlumdur ki, müasir şagirdi təlimə cəlb etməyin ilkin şərti məhz onda maraq, həvəs hissinin gücləndirilməsidir. Bu prinsip dil dərslərində həmin didaktik funksiyanın reallaşmasını təmin etməklə onun keyfiyyət göstəricilərinin yüksəlməsinə zəmanət verir.



Scanned with ACE Scanner

Dilin linqvistik təfəkkürünün formalaşması yönümündə tədrisi prinsipi dilin daxili quruluşunu əks etdirən fakt və hadisələrin müşahidə, müqayisə, mücərrədləşdirmə, ümumiləşdirmə və tətbiqetmə əməliyyatları vasitəsilə şüurlu mənimsənilməsini nəzərdə tutur. Dilin səs sistemi, lüğət tərkibi, qrammatik strukturu haqqında ən zəruri biliklər əsasında formalaşan linqvisitik bacarıqların inkişafı dil və təfəkkür arasında məntiqi əlaqədən qaynaqlanır. Odur ki, dil dərslərində şagirdin idraki fəaliyyəti linqvistik bilik və bacarıqların qazanılması yolu ilə aktivləşir. Dərsliklərdə dil qaydalarının asan və aydın mənimsənilməsi üçün sadə şəkildə şərhi nə qədər önəmlidirsə, dilin daxili sistemini gözləmədən sadələşdirmə adı altında primitivləşdirilməsi şagirdlərin məntiqi təfəkkürünün inkişafının ləngidilməsi deməkdir. Əgər bu şərhlərdə səbəb-nəticə əlaqəsi açıqlanmırsa və müvafiq bacarıqların formalaşması üçün tapşırıqlar nəzərdə tutulmayıbsa, dilə şüurlu yiyələnmə prosesi qurula bilməz.

Təhlil göstərir ki, dilin daxili strukturunu əhatə edən sistematik kursun mətn sintaksisi əsasında tədrisi daha səmərəli nəticələr əldə etməyə imkan yaradır (4). Şagird səsin mahiyyətini söz daxilində, sözün məna xüsusiyyətlərini cümlə daxilində, cümləni isə mətn daxilində daha aydın səciyyələndirə bilir. Mətn cümlə ilə müqayisədə daha tam fikir bitkinliyinə və bütövlüyünə malikdir. Bu mənada fonetika, leksika, morfologiya və sintaksisə dair bilik, bacarıqların mətn üzərində müşahidə aparılması yolu ilə aşılanması bir tələb kimi gözlənilməlidir. Linqvistik bacarıqların aşılanması elə bir prosesdir ki, mətn üzərində müşahidə ilə başlayıb mətnin dil və üslub xüsusiyyətlərinin səciyyələndirilməsi ilə tamamlanmalıdır. Bu proses mətn→cümlə→söz→cümlə→mətn sxemində həyata keçirilir.

Dil təlimində maraq doğuran məqamlardan biri də metodik vəsaitlərdə konkret mövzuların tədrisinin müvafiq alt standartlardan çıxış edilərək şərh edilməsidir. Məlumdur ki, alt standartlar mahiyyətcə tam olan əsas standartın asandan çətinə doğru sıralanmış tərkib hissəsi kimi, şagirdlərdən tələb edilən ən vacib bacarıqları özündə ümumiləşdirir. Dərslikdəki mövzular həmin alt standartların reallaşması üçün müəllimə material verir. Müəllim isə sinfin hazırlıq səviyyəsindən çıxış edərək istənilən alt standartlara istinad etməklə dərsin məqsəd və vəzifələrini, gedişatını müəyyənləşdirir. Təbii ki, dərsliklərə verilmiş metodik rəhbərliklərdə yeni təlim metodikasına kifayət dərəcədə alışmamış müəllimlər üçün nümunə modellərin verilməsi faydalıdır. Lakin bu zaman nəzərə çatdırılmalıdır ki, istənilən mövzunu tədris edərkən alt standartların seçimində müəllim sərbəstdir. Əgər belə olmasa, müəllimlərdən yaradıcı fəaliyyət gözləmək müşkül problem olaraq qalacaqdır. Deməli, dərslik müəllifləri hər hansı bir mövzunu işləyərkən şagirdlərin nitq, dil və linqvistik bacarıqlarının inkişafına yardım edən əsas stantdartın bütün alt standartlarının reallaşmasına imkan yaratmalıdırlar ki, müəllimlər lazımi seçim edə bilsinlər.

Aydındır ki, yeni ideyalar praktikada həmişə istənilən səviyyədə tətbiq olunmur. Bu mənada yeni nəsil "Azərbaycan dili" dərslikləri də istisnalıq təşkil etmir. Onların işlənilməsində həm nəzəri, həm də metodik mahiyyət



daşıyan nöqsanlara yol verilmişdir ki, bu da təlim prosesində daha qabarıq üzə çıxır. Fikrimizcə, gələcəkdə belə qüsurların qarşısını almaq və təlim prosesini optimallaşdırmaq üçün aşağıdakı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi vacibdir:

1. Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin bütün mənzərəsini: məqsəd və vəzifələrini, gerçək durumunu, səciyyəvi xüsusiyyətlərini və s. əks etdirən konsepsiyası işlənilməlidir.

2. Bu sahədə müəyyən təcrübəsi olan dilçi və metodist alimlərdən, yaradıcı, qabaqcıl müəllimlərdən ibarət müəyyən heyət yaradılmalıdır ki, onlar dərsliklərin işlənilmə mexanizmini müəyyənləşdirib ona nəzarət edə bilsinlər.

**Tədqiqatın elmi yeniliyi:** təhsil sahəsində aparılan kurikulum islahatından çıxış edilərək ümumtəhsil məktəblərində Azərbaycan dilinin təlim prinsipləri və onların mahiyyəti müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti:** dərslik və dərs vəsaitlərində təlim materiallarının hansı aspektlərdən işlənilməsi açıqlanmışdır.

## ƏDƏBİYYAT


1. *Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, Mütərcim, 2007.*
2. *Əfəndizadə Ə. Azərbaycan dili təliminin metodik prinsipləri haqqında. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, Bakı, 1986, № 1.*
3. *Əfəndizadə Ə. Azərbaycan dili təliminin məzmun problemləri. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, Bakı, 1987, № 1.*
4. *Hacıyev A. Azərbaycan dilindən sistematik kursun sintaksis əsasda tədrisinə dair. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, 2000, № 4.*
5. *Hacıyev A. Dilin nitq fəaliyyəti zəminində tədrisi. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, Bakı, 2007, № 4.*
6. *Hacıyev A. "Azərbycan dili" fənn kurikulumunun mahiyyəti və təlim prosesdində ondan istifadənin nəzəri-praktik məsələləri. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, Bakı, 2012, № 3.*


## РЕЗЮМЕ


**Вопросы разработки содержания обучения азербайджанскому языку в общеобразовательных школах**

*В общеобразовательных школах азербайджанский язык внедряется на основе нового педагогического подхода. Поэтому, одной из актуальных проблем является разработка принципов, отраженных в содержании его учебного материала. Данная статья посвящена именно этой проблеме.*


## SUMMARY


**Issues of the usage of teaching the azerbaijani language in content at secondary schools**

*Azerbaijani language teaching is achievedon the basis of the ultimate pedagogical approaches. For this reason the use of the priciples according to which the teaching materials reflected in its content are used is quite an actual issue. In this article the problem has been explored.*




Scanned with ACE Scanner

# ŞAH İSMAYIL XƏTAİ LİRİKASININ TƏDRİSİ

**Yaqub BABAYEV,**
**filologiya üzrə elmlər doktoru**

Pedaqoji universitet və institutlarının filologiya fakültələrində Xətai irsinin öyrədilməsinə kifayət qədər saat ayrılmışdır. Dərslik və dərs vəsaitlərində də sənətkarın yaradıcılığı barədə əhatəli danışılmışdır. Lakin araşdırmalar genişləndikcə yeni faktlar aşkara çıxarılır. Oxuculara təqdim etdiyimiz bu məqalədə şairin lirikası ilə bağlı yeni yanaşmaları əhatə etməyə çalışmışıq.

Məxəz və mənbələrdə Ş.İ.Xətaidən, təbii olaraq, daha çox bir hökmdar, xanədan sahibi, ictimai-siyasi xadim, dövlət rəhbəri və fateh kimi söhbət açılmışdır. Bununla belə onun ədəbi şəxsiyyəti və yaradıcılığı da unudulmamışdır. Ayrı-ayrı salnamələrdə, tarix kitablarında, təzkirələrdə, XIX-XX yüzilliklərdə isə müxtəlif filoloji araşdırmalarda ondan bir şair, qələm əhli kimi bəhs olunmuşdur. Ümumiyyətlə, **Xətai irsinin öyrənilməsi və nəşri sahəsində** xeyli işlər görülmüş, faydalı təşəbbüslər göstərilmişdir.

Təzkirəçilərin şairimiz barədə verdiyi bilgi onun öz oğlu Sam Mirzədən başlayır. Farspərəst mövqeyi ilə fərqlənən Sam Mirzə fars dilində yazdığı «Töhfeyi-Sami» (1550) təzkirəsində sənətkar haqqında bir-iki cümlə həcmində məlumat və onun fars dilində 1 beytini nümunə verir. Sonrakı dövrlərdə L.Azər, R.Hidayət, K.Çələbi və s. təzkirəçilərin söylədikləri yığcamlığı və xəsisliyi ilə fərqlənir. S.Ə.Şirvani, M.Tərbiyət kimi müəlliflərin təzkirələrindəki məlumatlar isə nisbətən genişliyi ilə diqqəti cəlb edir.

Avropa və rus ədəbiyyatşünaslarının gördüyü işlər Xətainin ədəbi irsi ilə Qərb oxucusunu tanış etmək mənasında əhəmiyyətli təşəbbüs təsiri bağışlayır. Avropa şərqşünaslarından İ.Hammer-Purqştal, Ş.Riyo, E.Gibb və E.Braun, rus filoloqlarından A.Krımski v V.B.Minorski Azərbaycan sənətkarının həyat və yaradıcılığının bəzi cəhətləri, məqamları ilə bağlı məlumatlar vermiş, müəyyən mülahizələr söyləmiş, əsərlərindən bəzi örnəkləri rus və Avropa dillərinə tərcümə etmiş, bir sözlə, şair Xətainin Qərbdə tanınması istiqamətində faydalı fəaliyyət göstərmişlər.

Türk alimlərindən M.F.Köprülüzadə, İ.Hikmət, B.Atalay, Ə.Kölpınarlı və S.Nüzhət Azərbaycan şairinin yaradıcılığından söhbət açmışlar. S.Nüzhət onun divanını İstanbulda nəşr etdirmişdir. Təbii ki, Azərbaycanda sənətkarımızın bədii yaradıcılığının tədqiqi və nəşri daha intensiv xarakter daşımışdır. Tədqiqatçılardan Y.V.Çəmənzəminli, S.Mümtaz, H.Araslı, M.Quluzadə, M.Abbaslı və M.Qasımlının araşdırmaları xüsusilə diqqəti cəlb edir. Xətaişünaslıqda Ə.Məmmədovun gördüyü işlər daha çox təqdirələyiqdir. Ədəbiyyatşünas alim həm sənətkar Xətai ilə bağlı monoqrafiya yazmış, həm də şairin əsərlərinin iki cildlik elmi-tənqidi mətnini tərtib və nəşr etdirmişdir. Klassikimizin poeziyasının dilçilik aspektində tədqiqində Ə.Dəmirçizadə, T.Hacıyev, M.Cavadov kimi dilçilərimizin əməyi ayrıca qeyd edilməlidir.

**Lirikası**. Xətai klassik ədəbiyyatımızın məhsuldar və ünlü sənətkarlarından biridir. Ədəbiyyat tariximizdə onun ayrıca yeri vardır. Sənətkarın yaradıcılıq irsinin mühüm bir qismi bu gün əlimizdədir. Həmin bədii irs şeirlər **«Divan»ından** (heca vəznli şeirlər də daxil olmaqla), **«Nəsihətnamə»** və **«Dəhnamə» poemalarından, farsca bir neçə şeirdən** ibarətdir. Şairin həm divanı, həm heca vəznli şeirləri, həm də hər iki poeması **ana dilindədir**. Qaynaqlar onun **«Mənaqibül-əsrar və böhcətül-əhrar»** adlı əsərinin də olduğunu xəbər verir. Xətaişünas alim Ə.Məmmədov həmin əsərin qoşmalar məcmuəsi, yəni heca vəznli poeziya örnəklərindən ibarət toplu olduğunu qeyd edir. Mənbələr Xətainin ərəbcə şeirlər yazdığını da söyləyir. Beləliklə, şairin üç dildə –



Azərbaycan, fars və ərəb dillərində əsərlər qələmə aldığı bəlli olur. O həm **lirik**, həm də **epik** növdə qələmini sınamışdır. Yəni həm poemalar, həm də lirik şeirlər ərsəyə gətirmişdir. Diqqətəlayiq cəhətdir ki, lirik növün rəngarəng janrlarından faydalanmışdır. Biz onun lirikasında əruz vəzninin **qəzəl, qəsidə, mürəbbe, tərcibənd, tuyuğ, rübai, qitə** və s., heca vəzninin isə **gəraylı, qoşma, varsağı, bayatı** kimi janrlarına rast gəlirik. Bahadır sənətkar heca vəznli şeiri divan ədəbiyyatına gətirmiş, başqa sözlə, ədəbiyyatımızın bizə bəlli tarixində xalq poeziyası janrlarına müraciət edən ilk divan şairi kimi tanınmışdır.

Xətainin lirikası mövzu-məzmun etibarı ilə çoxşaxəli, çoxistiqamətlidir. Onun lirikasını təxmini olaraq aşağıdakı **mövzu qruplarına** ayırmaq mümkündür: **məhəbbət və gözəlliyin tərənnümü, təriqət poeziyası; dini məzmunlu poetik nümunələr; qazilik və ərənliyin təbliği, təlimi-didaktik şeirlər; peyzaj lirikası** və s. Əlbəttə, bu bölgüdə şərtilik vardır. Çünki sənətkarın bir sıra şeirlərinin mövzu dairəsini dəqiq sərhədlə ayırmaq mümkün deyil. Məsələn, bəzi məhəbbət, yaxud əxlaqi-didaktik şeirlərdə həm də təriqət ideyaları mövcuddur. Məlumdur ki, ilahi məhəbbəti tərənnüm və təbliğ edən bədii əsərlərdə, adətən, bu və ya digər dərəcədə təriqət görüşləri də özünə yer tapır.

Şairin əsərləri mövzu, məzmun, ideya etibarı ilə klassik ədəbiyyatımızın əsas və möhtəşəm sütununa nə qədər bağlı olsa da, onun orijinal cəhətləri, özünəməxsus keyfiyyətləri də çoxdur. Bu orijinallığın və özünəməxsusluğun ilk və ən başlıca cəhəti burasındadır ki, klassik poeziyamızın çoxəsrlik tarixində heç bir qələm sahibinin əsərləri Xətaidə olduğu qədər siyasi-ideoloji mahiyyət kəsb etməmişdir. Mürşid, hökmdar və başçı şairimizin poeziyası bədii abidə olmaqla yanaşı, həm də siyasi-ideoloji təbliğat mexanizmi, şiə-qızılbaş görüşlərinin təbliğat vasitəsi, siyasi hakimiyyətin nüfuzunu artırmağın və ideoloji yönümdə təlqini inancları yaymağın təsir üsulu rolunu oynamışdır. Bu baxımdan yanaşdıqda ilk Səfəvi hökmdarının divanı bir növ səfəviyyə təriqətinin şiə-qızılbaş mərhələsinin bədii-siyasi-ideoloji toplusudur. Tədqiqatçılar etiraf edirlər ki, bu gün həmin ideya və baxışlar sisteminin mahiyyətini öyrənmək üçün ən yaxşı mənbə elə Xətainin divanıdır.

Şiə-qızılbaş ideologiyasının Xətai mərhələsi ayrıca bir mərhələdir və bu etapın əsas konturları, mahiyyəti, məğzi onun poeziyasında aydın şəkildə öz inikasını tapmışdır. Şah İsmayılın bədii yaradıcılığının analizinə də məhz buradan başlamaq lazım gəlir. Bu, mürşid sənətkarın kimliyini, şəxsiyyətinin əzəmətini, gənc yaşda, az bir qüvvə ilə mübarizəyə başlayıb qüdrətli bir dövlət yaratmağının mümkünlüyünün səbəbini aydınlaşdırmaq, üzə çıxarmaq üçün də lazımdır.

Biz şairin lirikasında onun şəxsiyyətinə münasibətin aydın ifadəsini görürük. Aşağıdakı qəzələ nəzər salaq:

*Yer yox ikən, gög yox ikən, ta əzəldən var idim,*
*Gövhərin yekdanəsindən iləri pərgar idim.*
*Gövhəri ab eylədim, tutdu cahanı sərbəsər,*
*Yeri, gögi, ərşi kürsi yarədən səttar idim.*
*Gah Hüseynilən belə pustimi soydu qadilər,*
*Gah o Mənsur donuna girdim «ənəlhəq» dar idim.*
*Girdim Adəm cisminə, kimsənə bilməz sirrimi,*
*Mən bu Beytullah içində ta əzəldən var idim.*
*On səkkiz min aləmə, mən gərdiş ilə gəlmişəm,*
*Ol səbəbdən həqq ilə sirdar idim, sərdar idim.*
*Dünyasından mən onun sirrin bilirdim, ol mənim,*
*Dəryanın altındakı sac qızdıran ənnar idim.*
*Mən Xətaiyəm, həqi həq tanımışam bigüman,*
*Onun üçün ol yaratdı, mən ona dərkar idim.* **(1, 256)**

Qəzəl müəllifi burada daxili «mən»inin dili ilə danışır. Öz ruhani-vücudi varlığının mahiyyəti, başqa sözlə, ilahiliyi və şəxsiyyətinin qüdsiyyəti barədə düşüncələrini, batini inamını ifadə edir. Həmin dini-fəlsəfi, panteist-etiqadi düşüncələrin nüvəsində mütləq bir inanc və yəqinlik duyulur. Bu lirik qəhrəmanın



Scanned with ACE Scanner

«mən»i (ruhi həqiqəti) hələ yer, göy yox ikən əzəldən mövcud imiş. Yeri, göyü, ərşü kürsi yaradan səttar da odur. Bəllidir ki, dini-etiqadi mənada belə bir xüsusiyyət yalnız Mütləqə aid ola bilər. Xətai isə həmin ilahi xassələri həm də özünə müncər edir. Deməli o, insan olmaqla həm də Yaradana məxsus keyfiyyətlərə malikdir. Haqqın yer üzündəki təcəssümüdür. Allahın insan qiyafəsindəki zərrəsi və təmsilçisidir, təzahür nişanəsidir. Sadəcə olaraq dondan-dona girmiş, şəkildən-şəklə düşmüşdür. Gah Hüseyn, gah Mənsur, gah Adəm donunda cismani dəyişmələrə uğramışdır. Maddi aləmə *«gərdiş ilə gəlmiş»*, formadan formaya düşmüş, mahiyyət isə dəyişməmiş, öz ilahi məğzini saxlamışdır. Başqa sözlə, minlərlə libas və görkəmə düşən vahid substansiya, nəhayət, Xətai şəklində təcəlli tapmışdır:

*Həzaran dona girdim, mən dolandım,*
*Bu gün xəsm ilə mən meydanə gəldim.* **(1, 250)**

Mürşidi-kamil şairin yolunda yüzlərlə müridi, səfəvi-qızılbaş fədaisini cihada, qovğaya çağırış da öz şəxsiyyətinin qudsiyyətinə inamdan nəşət tapırdı. Əgər o, yer üzündə Haqqın təcəssümüdürsə, onun əqidəsi, çağırışı uğrunda mübarizə Haqq və həqiqət yolunda mübarizə deməkdir:

*Mənim yolumda yektalar gərəkdir,*
*Dini, imanı yəğmalar gərəkdir.*
*Mənimtək gövhəri nadan nə bilsin,*
*Məni bilməyə danalar gərəkdir.*
*...Mənəm sultan Xətai Heydər oğlu,*
*Mənim yolumda qovğalar gərəkdir.* **(1, 161)**

Minlərlə qızılbaş qazisinin Şah İsmayıl yolunda fədakarlıqla döyüşə (bəzən hətta silahsız) və ölümə atılmasının, Haqq uğrunda vuruşurmuş kimi mübarizəyə qatılmasının səbəbi də bunda idi.

Özünü *«bir mürşidi-təriqəti-pirü-cavan»* adlandıran gənc etiqad rəhbəri öz varlığında Vücudi-mütləqin sifətlərini görür. Mikrovücudda makrovücudun əlamətlərinin olduğunu yəqin sayan şair həmin mikrovücudu (Özünü) Tanrının fiziki aləmdəki zərrədə təzahürü kimi dəyərləndirir:

*Məndədir yer ilə göyin hikməti, həm qüdrəti,*
*Abü ataş, xakü badü cümlə ərkan məndədir.* **(1, 88)**

Azərbaycan səfəvilər dövlətinin görkəmli tədqiqatçısı O.Əfəndiyev şiə-qızılbaş məfkurəsinin Xətai mərhələsinin elmi səciyyəsini doğru-dürüst şəkildə belə ifadə edir: «Xətainin «Divan»ında öz əksini tapmış qızılbaş nəzəriyyəsinə görə, Xəlifə Əli allahdır və kim bunu qəbul etmirsə o, kafirdir. Məhəmməd yalnız peyğəmbərdirsə, Əli «Allah həqiqətinin təzahürüdür» («məzhər-i həqq»dir). İsmayıl özünün Əli və Fatimədən başlanan «mənşəyi» ilə fəxr edir. O Əlidə ilahi mahiyyətin başqa şəklə düşdüyünə inanır. Əvvəlcə o, (İsmayıl) Allahla (Əli ilə) bir olmuş, indi isə yenidən zühur etmişdir. Peyğəmbərin və imamın keyfiyyətləri onun simasında təcəssüm etmişdir. İnsan Allahın təcəssümü ola bilər. İsmayıl – insan qiyafəsində olan Allahdır (insan surətinə girmiş tanrı). O, bu dünyaya «Allahın nuru» (nuri xoda), «peyğəmbərlərin möhürü» (ənbiya xətmi), «kamil rəhbər» (mürşid-i kamil), «aparıcı imam» (imam-i rahnemə), mütləq həqiqət – Allah (həqq-i mütləq) kimi gəlmişdir. O, özünün «qazi», «sufi», «əxi» adlandırdığı tərəfdarlarından təkidlə pərəstiş, tə'zim, kor-koranə itaət (səcdə, socud) tələb edirdi». **(6, 47)**

Məhəbbət mövzusu Xətai ilirikasında aparıcı mövqedədir. Onun divanındakı şeirlərin mühüm bir qismini məhəbbət və gözəlliyin tərənnümünə həsr olunmuş poetik örnəklər təşkil edir. Əlbəttə, bu, səbəbsiz deyil. Şairə görə məhəbbət insanlığın başlıca şərti, adəm övladına məxsus hiss və duyğuların ən alisi, həqiqət yolunun mütləq və etibarlı bələdçisidir. Məhəbbətsiz yaşamaq haqqı unutmaq deməkdir. İstər maddi dünya, istərsə də axirət aləminin həqiqi şərəf, ləyaqət və ucalıq hissi yalnız sevgi ola bilər. Bir qoşmasında sənətkar həmin hissi belə mənalandırır:

*Məhəbbət aləmi haqqa yardır,*
*Məhəbbət etməyən can murdarıdır,*



*Dünyavü axirət yüzü qaradır,*
*Məhəbbətdən keçən haqdan da keçər.* **(3, 331)**

Ülvi həqiqəti dərk etdiyindən sənətkarın lirik qəhrəmanı eşqsiz yaşamaq istəmir. Onu daim əvəzsiz bir nemət, ilahi lütf kimi öz varlığında gəzdirmək istəyir, cananın eşqilə həmdərd, həmsirr olmaq arzusu ilə yaşamağı təmənna edir:

*Ya ilahi, sən məni bieşqi-canan eyləmə*
*Eşq ilə şadəm, könül, dərdimə dərman eyləmə.* **(1, 334)**

Şairə görə həqiqi eşq hissi ilə zarafat etmək (*«laf etmə»*) olmaz, çünki *«bu mənzildə səlatinlər gəda nisbəlidir»* (**9, 102**). Bu lirik qəhrəman eşq vadisində valeh, sərməst və heyrandır:

*Eşq içində valehü-sərməstü heyranəm vəli,*
*Gör necə Mənsur təki mən darə möhtac olmuşam.* **(1, 258)**

Eşq sirrindən xəbərdar arif aşiqə o da bəllidir ki, *«dərd dərdi-eşqisə mümkün degil səhhət sana»*. **(1, 46)**

Xətainin məhəbbət müstəvisində həqiqi eşqlə məcazi eşq qoşalaşır, paralel şəkildə bir-birini əvəz edir. Gah ilahi eşq qabarır, gah məcazi eşq təsvir hədəfinə çevrilir. Gah bəndənin Allaha, qulun mistik varlığa, gah da bəndənin bəndəyə, real, yer üzündə gördüyümüz aşiqin məşuqəyə məhəbbəti tərənnüm olunur. Ancaq unutmayaq ki, bu poeziyada nə qədər dünyəvi gözəldən, maddi aləmdəki bəndəyə bəslənilən eşqdən söhbət getsə də, alt qatda həmişə həmin gözəlin, bəndənin Xaliqin xəlq etdiyi xilqət, küllün bir zərrəsi olduğu unudulmur. Şairin *«Xaki-payin, dilbəra, bir tac dövlətdir mana»*, *«Dilbəra, dərdimə dərman səndən özgə kimsə yox»*, *«Ol pəri kim bu cahanda hüsninin həmtası yox»*, *«Qamətindən münfəildir sayeyi-sərvi büländ»*, *«Ta ki dərdindən olubdur yürəgim sədparələr»*, *«Dilbəra, səncileyin billah ki, yarım yox durur»*, *«Əya, gül yüzlü, çöhrən ayə bənzər!»*, *«Ey ki, sərxoşdur du çeşmin, ləblərin peymanədir»*, *«Yarı gördüm bu gün xəndan oturmuş»* və s. misralarla başlayan qəzəllərində dünyəvi gözəlin, həyati eşqin obrazlı, canlı və lətif təsvirini görürük. Sanki bunlar qarşımızda dayanan, gerçək aləmdə rastlaşdığımız nigarlar, dilbərlərdir. Buradakı məhəbbət də real aşiqin gerçək dilbərə yetirdiyi sevgidir.

Aşağıda istifhəm (bədii suallar) və bədii xitab üzərində qurulan və rəngarəng bəlağət (məcaz) vasitələri ilə bəzədilən qəzəl bütünlüklə həyati motivə malikdir. Dünyəvi aşiqin səmimi duyğularını ifadə edən poetik nümunədə dil canlı, hisslər dolğun, ahəng musiqili, ruh təbiidir. Bu, sevənin öz sevdiyindən almaq istədiyi cavabın və bunun üçün ona verməli olduğu sualların lakonik bədii lövhəsidir:

*Qızılgül, bağü büstanım, nə dersən?*
*Fəda olsun sana canım, nə dersən?*
*Qərarü səbrü aramım tükəndi,*
*Kəsildi, külli fərmanım, nə dersən?*
*Əridi iligim, qaldı sümügüm,*
*Bu təni tərk edər canım, nə dersən?*
*Xamu dərdlilərə dərman bulundu,*
*Dəvasız dərdə dərmanım, nə dersən?*
*Xamunun küfr ilə imanı vardır,*
*Mənim küfr ilə imanım, nə dersən?*
*Sənin məqsudun oldur kim, mən ölüm,*
*Halal olsun sana qanım, nə dersən?*
*Əgər yatsam min il toprağ içində,*
*Dürüstdür əhdü peymanım, nə dersən?*
*Xətai çün səni can ilə sevdi,*
*Sevən ölsünmü, sultanım, nə dersən?* **(3, 165)**

İnsanın camal gözəlliyinin təsvirində rəssam şairimizin poetik fırçası ikili boyalarla özünü təzahür etdirir: 1.Məşuq (insan) adi bəşəri xilqət, yer övladı kimi, dünyəvi təşbehatlarla rəsm edilir; 2.Rənglər adilikdən çıxıb müqəddəs, qeyri-adi, ilahi mahiyyət kəsb edir. Yarın hüsnündə qüdsi, hətta Xaliqə məxsus gözəllik nişanələri



Scanned with ACE Scanner

hikmətlərin) həqq sirrinə vaqif olan kamil insan, mərifət sahibidir. O, iradəli həqiqət yolçusu kimi təsəvvüfün bütün mərhələlərini keçib ürfana yetmişdir və *«mə'nidə gərçi aşiqü mə'şuq bir durur»* **(9, 95)** həqiqətini anlamışdır. Məna və surət aləmində mövcud olan bütün xilqətin, istər cismani, istərsə də hissi-mənəvi mahiyyət kəsb edən cümlə varlıqların külldən yarandığı cüzlər olduğuna inanan bu qəhrəman əslində «vəhdəti-vücud»çudur. Onun fəlsəfi qənaətinə görə gerçəklikdə vahiddən özgə heç bir reallıq mövcud deyil:

*Əhli-eşqin mə'niyi-zatü süfati bir durur,*
*Adəmə qıl səcdə zahid, qılmagil inkar bir.*
*...Olmadı bu sirrə məhrəm hər xəsisi-kəcsüxən,*
*Dərdimin dərmanı doğru, yar bir, əttar bir.*
*Pir birdir, sirr bir, iqrar bir, göftar bir.*
*İkilik sığmaz bu yolda, sirr ilə sirdar bir.*
*...Atəşi-eşqin tutuşdurdu vücudim şəhrini*
*Baxıram ki, hur birdir, nur birdir, nar bir.* **(1, 177)**

Sənətkar Həllac Mənsurun «ənəlhəq» şüarını qəbul edir. Kamil insanın, ali mərifət sahibi bəşər övladının ilahi məqama yüksələ bildiyinə inanır. Onun əqidəsinə görə divara səcdə, yəni namaz Haqqa etiqadın sadə və bəsit formasıdır. Vücudi-mütləqin vüsalını istəyən kimsə həqiqi eşq ilə onu sevib, pak qəlb və kamil idrakla Onun hüzuruna və məqamına ucala bilər. Onda Xaliqlə məxluq arasındakı fərq ortadan qalxmış olar. «Ənəlhəq» ideyası reallığa çevrilər. Şairin «divara səcdə»ni bəsit bir ibadət vasitəsi kimi qəbul etməməsi buradan irəli gəlir:

*Dünyavü üqbadə səntək yari-qəmxar istərəm,*
*Xəlq edər divara səcdə, bən də didar istərəm.* **(1, 247)**

Xətainin təriqət şeirlərində hürufiyanə motivlər də özünü göstərir. Türk alimi M.F.Köprülüzadə yazır: «Əsrlərdən bəri mövcud türkmən qızılbaşlığı cərəyanından əzəmi surətdə istifadə ilə o cərəyanın başına keçən və bir aralıq Anatolidəki Osmanlı hakimiyyətinin təməllərinə sarsan Şah İsmayıl Nəsimi və Həbibi kimi hürufi idi» **(4, 19)**.

Ümumiyyətlə, Nəsimi ilə Xətai arasında həm mənəvi, həm də bir yaradıcılıq körpüsü nəzərə çarpır. Bu bağlılıq müəyyən səbəblərlə əlaqəlidir. Belə ki, istər hürufiliyin, istərsə də qızılbaşlığın əsas ideya qaynaqlarından biri şiəlikdir. İmamət hər iki cərəyanın etiqadi görüşlərində əsas yer tutur. Digər tərəfdən hürufilər Allahın F.Nəimidə (onlar Nəimini canlı Allah kimi qəbul edirdilər), qızılbaşlar isə 1-ci imam Əlidə və onun ruhani varisi kimi Xətaidə təcəlli tapdığına inanırdılar.

Səfəvi şahının və şairinin poeziyasında Fəzlullah və Nəsimi ehtiramla, bir məslək fədaisi kimi yad edilirlər. Onun hürufi sənətkara nəzirələri də vardır. Xətainin *«Ayrılır»* rədifli qəzəli Nəsiminin eyni rədifli qəzəlinə cavabdır. Şah İsmayılda da qiblə bəzən Kəbədən dəyişib insanın üzünə doğru çevrilir. *«Hüsni-vəch»* («gözəl surət») qiblə, həmçinin Quran və onun ayələri kimi mənalandırılır:

*Ey sənin yüzinə baxdıq, qutlu oldu mahimiz,*
*Nə əcəb surət yaratdı sün'ilə Allahımız.* **(1, 188)**

vəsfinin arxasınca yarın camalının və onun hüsn detallarının Quran və onun ayələri ilə eyniləşdirilməsi gəlir:

*Surəyi-Vəlleyl zülfün, gözlərin «nə'mülbəsər»,*
*Leyk «sübhanəlləzi-əsra» durur əsrarımız.*
*Sureyi-Tə'viz oxurmən, dəmbədəm İxlas ilən,*
*Ta ki, hüsnini bəladan saxlasun cəbbarımız.* **(1, 192)**

Ümumiyyətlə, Xətaidə bəşəri xilqətin böyüklüyü, cəlalı, əzəməti və dəyəri hürufilərdə olduğu nisbətdədir. Yəni insan cismi əslində Allahın evidir. Onda Tanrının ərşini görmək mümkündür. O, əhli-mənadır, Allahın dostudur. İlahi nitq özü də adəmin şəninə kəramətlər söyləyir. O, səcdəyə layiq məxluqdur. Deməli, insan xilqətin ən ali və şərəfli məxluqudur. Bunu isə div olmayanlar, yəni mərifət sahibləri, ali həqiqətləri dərk edənlər anlaya bilər. Fəzlullah həqiqətinin dərki də buna xidmət edir:

*Ey həq əhli, sən sənin cismində beytullahi gör,*



*Xancarü əzm eyləsən lövhində ərşüllahi gör.*
*Adəmin şə'nində, kərrəmna, dedi nitqi-ilah.*
*Əhli-mənasən, həqiqət sümmə vəchüllahi gör.*
*Zakirəm, zikr eylərəm könlümdə özgə kimsə yox.*
*Natiqəm, nitqi-hidayət gəl həbibullahi gör.*
*Hazihi-cənnətiədnin dəftərin şərh eyləyən,*
*İblis olma, gəl sücud eylə, bu babüllahi gör.*
*Lövhi-məfhuzin Xətai əbcədin qıldı bəyan,*
*Div deyilsən, xatəmin xətmində Fəzlullahı gör.* **(1, 90)**

Xətai istər fiziki gücü, qüvvəti, istərsə də daxili təbiəti etibarı ilə cəngavər, yenilməz bir insan idi. Onun bahadırlığı, cəsarəti, şücaəti və qəhrəmanlığı bədii yaradıcılığına da hopmuşdur. «Qazilər sərdarı» adını alması təsadüfi deyildi. Qazilik və ərənlik sənətkarın lirikasını təşkil edən mövzular silsiləsində mühüm bir həlqə təşkil edir. Müəllifin *«Bu şahi-pürkərəm, sahibnəzərdir»*, *«Əzəldən şah bizim sultanımızdır»*, *«Kim ki sərməst oluban aşiqi-didar deyil»*, *«Olu kim, laf edər meydanə gəlsün»*, *«Əgildim, səcdə qıldım xanədanə»* qəzəllərində, *«Ərənlər»* qoşmasında, *«Qazilər deyən şah mənəm»*, *«Qalsın könül, yol qalmasın»* varsağılarında və s. lirik əsərlərində qazilik, igidlik və ərənlik ideyalarının bu və ya digər dərəcədə tərənnüm və təbliğini görürük. Həm də bu bahadırlıq keyfiyyətləri Xətaidə yalnız fiziki güc mənasında deyil, eyni zamanda mənəvi ərənlik, fədakarlıq anlamında da götürülür. Ruhun qazicəsinə tərbiyəsi ilə cismani şücaət qovuşur. *«Ərənlər»* qoşmasında comərd şair ərənlik ərkanını və özünün şücaət yolunu bu cür poetik dillə səciyyələndirir:

*Ərənlərin ərkanına, yoluna,*
*Ta əzəldən talib oldum, ərənlər.*
*Can ilə könüldən durdum, düşündüm,*
*Bu gün mürşüdümü buldum, ərənlər.*

*Can ilə könüldən gəzdim, aradım,*
*Həqqin didarını görmək muradım,*
*Didar ilə məhəbbətdir tələbim,*
*Ya bu gün, ya yarın öldüm, ərənlər.*

*Keçmişəm sərimdən, qorxmam ölümdən,*
*Münkir bilməz övliyanın halından,*
*Yəzid oğlu bir xarici əlindən*
*Çox dəmdir didardan qaldım, ərənlər.*

*Sən haqqı yabanda arama, sağın,*
*Uyduysan qəlbinə, həq sana yaxın,*
*Adəmə xor baxma, kəndini saqın,*
*Cümləsin adəmdə buldum, ərənlər.*

*Şah Xətayiyəm, ərz edəyim halimi,*
*Xərc edəyim əldə olan varimi,*
*Sürə-sürə şaha gedəm yüzimi,*
*Mürvət qəbul eylə, gəldim, ərənlər.* **(3, 340)**

Müəllifin dediyimiz mövzuda yazdığı şeirlərindən danışarkən bir məsələni xatırlatmaq lazım gəlir. Belə ki, şairin qazilik və ərənliklə bağlı təsəvvürlərinə, baxışlarına yenə də şiə-qızılbaş ideyaları çilənir. Motivləşmənin istiqaməti yenə də bu məcraya yönəlir. Yəni onun nəzərində igid, mücahid odur ki, Cəfəri məzhəbi (əslində şiə-qızılbaş ideyaları) uğrunda mübarizə aparmış olsun:

*Ləşkərim, ğazilərim, sufilərim, pirlərim,*
*Can ilə baş bu yolda mənə inkar degil.*



Scanned with ACE Scanner

*Qır Yezid ilə xəvarici, tükət, qalmaya heç,*
*Necə kim Cə'fəri məzhəbyə tələbkar degil.* **(1, 219)**

Haqqında danışdığımız müəllifin lirik əsərlərinin müəyyən qismi əxlaqi-didaktik şeirlərdən ibarətdir. Həmin şeirlər daha çox heca vəznində yazılmışdır. Doğrudur, şairin əruz vəznli əsərlərində də əxlaqi-tərbiyəvi fikirlər yox deyil. Ancaq heca vəznli poeziya nümunələrində deyilən motiv daha qabarıq və aparıcıdır. Əlbəttə, bu səbəbsiz deyil. Xətai bir mənəvi-ruhani rəhbər kimi xalq arasında böyük nüfuza malik idi. O, heca vəznində xalq şeiri janrlarında poetik örnəklər yazır və öz ideyalarını həm də bu əsərlər vasitəsilə kütlə arasında yayırdı. Belə ki, onun şeirlərini həm aşıqlar məclislərdə saz havasına uyğun çalıb oxuyur, həm də dərvişlər, müridlər gəzəri şəkildə söyləyir, təbliğ edir və yayırdılar. Bu cür lirik əsərlərdə mətləb və qayənin mümkün qədər sadə, dilin anlaşıqlı olması da əsas şərt idi. Xətai həmin şərtə də gözəl, məqsədəuyğun şəkildə əməl edirdi. Bu isə onun şeirlərinin kütlə içərisində geniş yayılmasına və təsir gücünün artmasına səbəb olurdu.

Xətainin əxlaqi-didaktik poeziyası daha çox təlimi-təşviqi səciyyə daşıyır. Müəyyən ideya və mətləbin geniş auditoriyada təbliğinə xidmət edir. Bu, şeirlərin ruhunda və bədii formasında aydın şəkildə sezilir. Onlar mövzu və ideyaca nə qədər didaktik, əxlaqi-tərbiyəvi ruhda olsa da, bu poetik örnəklərə təriqət və şiə-qızılbaş görüşləri də çilənir. «*Ənəlhəq sirrini Mənsurdan*», «*dərsimi məktəbi-ürfandan aldım*» – deyə iqrar edən bir sənətkarın yaradıcılığında deyilən mətləbin bədii inikası təbii idi.

Klassik sənətkarımızın təlimi-didaktik şeirlərinin bəziləri aşıq ədəbiyyatındakı ustadnamələri xatırladır. Bunlar məzmun, ideya və forma baxımından ustadnamə ənənəsinin mükəmməl nümunələri kimi qiymətləndirilə bilər. Məsələn, aşağıdakı qoşmada olduğu kimi:

*Bu gün ələ almaz oldum mən sazım,*
*Ərşə dirək-dirək çıxar avazım.*
*Dörd şey vardır bir qarındaşa lazım,*
*Bir elim, bir kəlam, bir nəfəs, bir saz.*

*Gözəl əlim çıxsa, çıxsa salınsa,*
*Bədir aylar kimi doğsa, dolunsa,*
*Dörd şey vardır bir qarındaşa lazım:*
*Bir xeyir, bir şər, bir ibadət, bir niyaz.*

*...Cahil olan söylər, sözünü bilməz,*
*Meydana gəlincə özünü bilməz,*
*Dörd şey vardır cənnət yüzünü bilməz:*
*Bir münkir, münafiq, bir Yezid, qanmaz.* **(3, 342)**

Xətainin hikmət və nəsihətlərində insan «mən»inin tərbiyəsi üçün birinci şərt kimi adəm övladının həyatda doğru yol tutması, halalla haramı ayıra bilməsi, əyri yoldan imtina bacarığı götürülür. Mənəvi paklığa və kamilliyə buradan başlanılır:

*Sufi isən, alıb satma,*
*Halalına haram qatma,*
*Yolun əyrisinə getmə,*
*Doğru yola nəzər eylə.* **(3, 344)**

Bunun üçün insan ilk növbədə batinindəki Əzazili – şeytani nəfsi öldürməyi, qəlbini şərdən, naqis dünyəvi ehtiraslardan təmizləməyi bacarmalıdır. Bu, həqiqət yolçusuna ilkin və zəruri bir tövsiyədir:

*Sil-süpür qəlbini, süddən bəyaz et,*
*Öldür nəfsini, şeytandan arıt,*
*Doxsan doqquz yerə çıxdı Bəyazid,*
*Halına münasib yeri bulunca.* **(3, 332)**

Müdrik qələm sahibinin **«Söz»** rədifli gəraylısı poeziyamızda söz və onun dəyəri ilə əlaqəli ən hikmətamiz, aforistik və təsirli bədii kəlamlardan biridir:



*Sözünü bir söyləyənin*
*Sözünü edər sağ bir söz.*
*Pir nəfəsin dinləyənin*
*Yüzünü edər ağ bir söz.*

*Söz vardır, kəsdirər başı,*
*Söz vardır, kəsər savaşı,*
*Söz vardır ağulu aşı,*
*Bal ilən edər yağ bir söz.* **(3, 348)**

Xətainin didaktik təliminin əsas fəlsəfi konsepsiyası mənən zəngin və kamil şəxsiyyət yetişdirməyə hesablanıb. (Buraya şiə-qızılbaş məfkurəsi ilə bağlı müəyyən notları da əlavə etməliyik). İnsanın sözü dürüst, qəlbi saf, əməli işıqlı olmalıdır. Nəciblik, humanizm, gözütoxluq, yaxşılıq, qürur və ləyaqətini gözləmək, özünü dərk etmək, səxavət, ədalət, etibar, sədaqət, Allahı və onun yaratdıqlarını sevmək və s. insani keyfiyyətlər tərbiyəçi şairimizin oxucuya və dinləyiciyə aşılamaq istədiyi mətləblər silsiləsinə daxildir. Onun öyüd-nəsihətləri sadə, aydın, sirayətedici və yaddaqalandır. Sanki xalq təfəkküründən süzülüb gəlir:

*Gövhərin keçməyən yerdə,*
*Satma, qardaş, kərəm eylə.*
*Lə'l daşını çay daşına*
*Qatma, qardaş, kərəm eylə.*

*Gördün bir yerdə aşina,*
*Hər nə dersən öz başına,*
*Yol daşını yol quşuna*
*Atma, qardaş, kərəm eylə.*

*Gördünsə bir yerdə rəqib,*
*Neylərsən yüzünə baxıb,*
*Münkiri qatara çəkib*
*Getmə, qardaş, kərəm eylə.*

*Xətayim çağırır, ərə,*
*Dünya belə gəlmiş zira,*
*Arif oxun əbəs yerə,*
*Atma, qardaş, kərəm eylə.* **(3, 346)**

## ƏDƏBİYYAT


1. *Xətai Ş.İ. Əsərləri (tərtib edəni: Məmmədov Ə.), 2 cilddə, I c., Bakı, Azərnəşr, 1975.*
2. *Xətai Ş.İ. Əsərləri (tərtib edəni: Məmmədov Ə.), 2 cilddə, II c., Bakı, Azərnəşr, 1976.*
3. *Xətai Ş.İ. Əsərləri (tərtib edənlər: Səfərli Ə., Yusifli X.). Bakı, Şərq-Qərb, 2005.*
4. *Köprülüzadə. M.F. Azəri ədəbiyyatına dair tədqiqlər. Bakı, Sabah, 1996.*




Scanned with ACE Scanner

# XI SİNİFDƏ HÜSEYN CAVİDİN "İBLİS" FACİƏSİNİN TƏHLİLİNDƏ YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ

**Bilal HƏSƏNLİ,**
**AMİ-nin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, respublikanın əməkdar müəllimi**

Ümumtəhsil məktəbləri üçün ədəbiyyat proqramında və fənn kurikulumunda dramatik əsərlərin tədrisinə mühüm yer ayrılmışdır. Müşahidələr göstərir ki, ədəbiyyat müəllimləri lirik və epik növün janrları ilə müqayisədə dramatik növün dram, komediya və faciə janrlarının fəal/interaktiv metodlarla tədrisində bir sıra çətinliklərlə qarşılaşırlar. S.Hüseynoğlu bu məsələ ilə əlaqədar yazır ki, bu gün dramatik əsərlərin tədrisinin yüksək səviyyədə həyata keçirildiyini iddia etmək doğru olmaz.Məktəb təcrübəsinin təhlili dramatik əsərlərin məzmununun öyrədilməsində, istərsə də təhlilində tətbiq olunan metod və iş növlərinin, necə deyərlər, yerində saydığını göstərir. Nəticədə dərsdə əsərin ideyası, bədii xüsusiyyətləri, obrazların xarakteri barədə dərslikdəki fikirlərin təkrarından irəli gedilmir. Tədqiqatçının haqlı olaraq qeyd etdiyi kimi, bu çətinlik həm də ədəbi növün mahiyyətindən, özünəməxsusluğundan irəli gəlir (bax: S.Hüseynoğlu. "Ədəbiyyat dərslərində yeni təlim texnologiyalar: fəal/interaktiv təlim", Bakı. 2009.).

Nəzərə almaq lazımdır ki, dramatik növə aid əsərlər bir sıra xüsusiyyətləri ilə digər ədəbi növlərdən fərqlənir. Görkəmli alim Əli Sultanlının məqalələrini ədəbiyyatşünaslığımızda dramaturgiya sahəsində elmi təhlil mədəniyyətinin ən yaxşı nümunələrindən sayan Yaşar Qarayev yazırdı ki, o, dram əsərini roman kimi, poema kimi yox, məhz dram əsəri kimi təhlil edirdi və bu təhlil öz xüsusiyyətləri ilə ayrıca, müstəqil təhlil janrı kimi ədəbi təhlilin bütün başqa janrlarından və üsullarından seçilirdi.

Məlumdur ki, dramatik əsərlər səhnədə oynanılmaq üçün nəzərdə tutulur və monoloq, dialoqlar şəklində yazılır. Həmin əsərlərdə müəllifin mövqeyi lirik, epik əsərlərə nisbətən daha çox gizlidir. Burada tərənnüm, təhkiyə deyil, qəhrəmanların hərəkəti və danışığı əsas yer tutur. Dramatik əsərdə bədii şərtilik güclü olduğu üçün süjet xəttinə, qəhrəmanların nitqinə, jest və mimikalarına, hərəkət motivlərinə xüsusi diqqət yetirilməlidir. Oxucu, tamaşaçı mətnaltı mənanı, müəllifin niyyətini remarka, dialoq, monoloq, əksər hallarda eyham, işarə şəklində olan replikalar vasitəsilə başa düşməyə çalışmalıdır.

Hadisələrin baş verdiyi mühit, məkan haqqında remarka və qəhrəmanların nitqi vasitəsilə məlumat verilir. Odur ki, tamaşaçıdan fərqli olaraq, oxucu hadisələrin baş verdiyi məkanı, əşya və təbiət təsvirlərini, qəhrəmanların portretini müəyyən detallar, eyhamlar, sözlər, ifadələr əsasında öz təxəyyülündə canlandırmalıdır.

Ədəbiyyatşünaslığımızda H.Cavidin "İblis" romantik mənzum faciəsi Azərbaycan dramaturgiyasını zənginləşdirən, onun mövzu sərhədini genişləndirən əsər kimi təqdim və tədqiq olunur. Sənətkarın humanist ideallarını əks etdirən bu dəyərli sənət nümunəsində simvolik İblis obrazı yaradılmışdır. Dünya ədəbiyyatında Lüssifer, Demon, Mefistofel kimi obrazlar olsa da, H.Cavidin yaratdığı obraz XX əsrin qüvvətli İblisidir. Bu İblis dünyaya o vaxtadək



görünməmiş müharibələr, kütləvi qırğınlar gətirən, zülm üzərində qurulmuş hakimiyyətin, nəfsin, mənfi ehtirasların quluna çevrilmiş şər xislətli insanın rəmzidir.

Əsərdə məkan konkretliyinin olmaması, faciəli hadisələrin Şərqdə cərəyan etməsi, müəllifin qaldırdığı xeyirlə şərin mübarizəsi probleminin ümumbəşəri səciyyə daşıdığını göstərir. Faciədə milli koloritin, mühitin olmaması, obrazların "beynəlmiləlliyi" də bunun göstəricisidir.

"İblis" faciəsinin məzmununun öyrənilməsinə həsr olunmuş dərsdə giriş məşğələsi keçilməli, əsərin yazılma tarixi barədə yığcam məlumat verilməlidir. Müəllimin tapşırığı ilə əvvəlcədən hazırlaşmış şagirdlər təqdimat vasitəsilə əsərdə təsvir edilən dövrü, mühiti səciyyələndirməli, tarixi məlumatı çatdırmalıdır.

Əsərin həcmi, mürəkkəbliyi nəzərə alınaraq, ilkin oxu, mətnlə ilk tanışlıq müəllimin tapşırığı ilə dərsə qədər aparılır. Şagirdlər əsəri müstəqil oxuyur, müəllimin tövsiyəsi ilə səhnələşdirmə hazırlayır, dərsdə nümayiş etdirirlər. Təlim prosesində isə əsərdəki dramatik epizodların rollar üzrə oxusu ilə yanaşı, karusel, zəncirvari oxu ilə öyrənmə (ziqzaq, mozaika) təşkil edilə bilər.

Dərsdə əsərin ilkin qavranılma səviyyəsini üzə çıxarmaq üçün evristik müsahibə aparılır, tanış olmayan söz və ifadələr aydınlaşdırılır, məzmunun necə qavranıldığı, bədii təsvir və ifadə vasitələri müəyyənləşdirilir.Faciənin məzmununun dərindən mənimsənilməsi təhlilin səmərəliliyi üçün zəmin yaradır.

**"İblis" faciəsinin təhlilinə həsr olunmuş dərsin məqsədləri:**

- Faciədəki obrazların xarakter və əməllərini mənəvi dəyərlərlə əlaqəli səciyyələndirir, müqayisələr aparır;
- Faciənin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün kontekstindən çıxış etməklə qiymətləndirir, əsaslandırılmış münasibət bildirir.
- Təqdimat və çıxışlarında fikirlərini əsaslandırır.

**İş forması:** fərdi iş, kiçik və böyük qruplarda iş.

**Metod, priyom və iş növləri:** beyin həmləsi, müsahibə, diskussiya,təqdimat

**Təchizat**:- "Ədəbiyyat". XI sinif üçün dərslik (müəlliflər: N.Cəfərov, İ.Həbibbəyli, N.Əliyeva, A.Bakıxanova). "Ədəbiyyat müntəxəbatı" (müəlliflər: N.Cəfərov, N.Nəcəfov, B.Həsənli).

- "Cavid ömrü" filmindən süjet.
- Əsərin tamaşası ilə bağlı şəkillər.

**Dərsin gedişi:**

**Fəallaşdırma və motivasiya mərhələsində** əsərdən bir parçanın səhnələşdirilməsi faydalıdır. Bu məqsədlə əvvəlcədən hazırlaşdırılmış şagirdlərin ifasında birinci pərdənin başlanğıcında İblisin, Mələyin sözləri və Arifin monoloqu nümayiş etdirilə bilər. İmkan olduğu təqdirdə internetdən – You Tube saytından "Cavid ömrü" filmindən xalq artisti Rasim Balayevin ifasında İblisin monoloqunun nümayiş etdirilməsi şagirdlərin fəallaşdırılması, yeni mövzuya – əsərin təhlilinə maraq oyadılması baxımından müsbət nəticə verir.

**Müəllim şagirdlərə sualla müraciət edir:** Əvvəlki dərsdə əsərin məzmunu üzrə öyrəndikləriniz və indi tamaşa etdiyiniz səhnə müharibə illərində yazılmış bu faciədə hansı problemlərin qoyulduğunu söyləməyə əsas verir?

Şagirdlərin müxtəlif cavabları dinlənilir, ümumiləşdirilərək lövhədə qeydlər aparılır. Müzakirə nəticəsində **tədqiqat sualı** müəyyənləşdirilir: **"İblis" faciəsində sənətkar şərlə mübarizədə çıxış yolunu nədə görür?**

**Tədqiqatın aparılması**

Şagirdlər kiçik qruplara ayrılır, iş vərəqlərindəki sual və tapşırıqlar üzərində işləyirlər.

**I qrup**

1. İblisi insanların törətdiyi cinayətlərdə günahkar saymaq olarmı?



Scanned with ACE Scanner

a. "İblis nə üçün insanları ittiham edərək, "canlar yaqar, evlər yıqar insan" deyir?
b. İblis surətinin təsviri ilə müəllif hansı həqiqəti ifadə etmək istəyir?
c. Müharibə faciəsinin qəhrəmanı kimi İblisi seçməkdə müəllifin niyyəti nədir?
d. İblis onu lənətləyən insanların yanına bir əlində "altun", bir əlində "qurşun" gəlməklə nə demək istəir?

**II qrup**

1. Arifin birinci pərdədə Allaha müraciət etməkdə məqsədi nə idi?
b. Arifi həqiqət axtarıcısı saymaq olarmı?
c. Arifin qəlbində hansı hisslərin, düşüncələrin mübarizəsi gedir?
d. Arifin çağırışına İblisin səs verməsi nə ilə bağlıdır?
e. Əsərin əvvəlində Allahdan imdad diləyən Arifin qatilə çevrilməsinin səbəbi nədir?

**III qrup**

1. Əsərin əsas konflikti nədir?
a. Ədib nəyi ən böyük şər hesab etdiyi müharibənin əsas səbəbi sayır?
b. Dramaturq faciəvi konfliktin həlli yolunu nədə görür?
c. H.Cavidin insanın qüsurunu ən sərt boyalarla tənqid etməkdə məqsədi nədir?
d. İnsanlar birləşib İblisi öz aralarından qovmaqla şərdən azad ola bilirlərmi?

**IVqrup**

a. Əsərin əvvəlində ataşlərdən, alovlar içində qəhqəhələr çəkən İblisin və Allaha üz tutub yalvaran Mələyin təsviri ilə ədib nə demək istəyir.
b. Əsərin sonunda bütün şər işlərdə İblisi günahkar sayan insanlar haqlıdırmı?
c. İblisin Arifə müraciətlə dediyi bu sözlərin mənasını şərh edin.

*Get, lakin o hörmət və məhəbbət,*
*Bir gün doğurar qanlı ədavət.*
*Get, bəllidir insandakı xislət;*
*Sizlərdəki ülfət; sonu vəhşət,*
*Sizlərdəki şəfqət; sonu nifrət,*
*Sizlərdəki rəhmət; sonu lənət.*

d. Əsərin sonundakı monoloqunda İblisin söylədikləri hansı həqiqəti əks etdirir?

**V qrup**

H.Cavidin **aşağıdakı** misralarından istifadə edərək bəşəriyyətin çıxış yolunu nədə **gördüyünü aydınlaşdırın.**

*a. Turana qılıncdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.*
*b. Kəssə hər kimsə tökülən qan izini*
*Qurtaran dahi odur yer üzünü.*
*c. Hər qulun cihanda bir panahı var,*
*Hər əhli-halın bir qibləgahı var.*
*Hər kəsin bir eşqı, bir ilahı var;*
*Bənim Tanrım gözəllikdir, sevgidir.*

Tədqiqatın aparılması üçün vaxt ayrılır. Müəllim qrupdaxili müzakirələrə nəzarət edir, zəruri hallarda şagirdlərin tədqiqatını məsləhətləri ilə istiqamətləndirir.

**Qazanılmış biliklərin mübadiləsi və müzakirəsi.** Ayrılmış vaxt bitdikdən sonra qrup sözçülərinin təqdimatları dinlənilir. Müəllim hər sözçünün çıxışından sonra həmin qrupun digər üzvlərinə müraciət edərək təqdimatla bağlı əlavələrinin olub-olmadığını soruşur. Sonra digər qrupların üzvlərinin sözçüyə sualları cavablandırılır, fikir mübadiləsi aparılır.

Müzakirə zamanı qeyd edilir ki, əsərin ilk pərdəsində qaranlıq səhnədə, uzanıb düşüncələrə dalmış Arifin təsviri, İblislə Mələyin gəlişi rəmzi məna daşıyır. İblis top

---

[2] Ədibin qızı Turan Cavidin qeyd etdiyi kimi, H. Cavid öz əsərlərinin "imlasına toxunmamağı" vəsiyyət etmişdir.Odur ki, əsərdən gətirilən nümunələr orijinalda olduğu kimi saxlanılmış, dil-üslubuna toxunulmamışdır.



gurultusu, ataşlar, alovlar içində olan dəhşətli müharibə səhnələrini qəhqəhələrlə seyr edir:

*Dəryalara hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kibi aqmaqda qızıl qan,*
*Canlar yaqar, evlər yıqar insan*

Mələk şahidi olduğu müdhiş səhnələrdən sarsılıb həyəcan içində Allaha müraciət edir:

*Ya Rəb, bu nə dəhşət, nə fəlakət?*
*Ya Rəb, bu nə vəhşət, nə zəlalət?*
*Yoq kimsədə insafü mürüvvət,*
*İblisəmi uymuş bəşəriyyət!?*

İblis bəşər övladının törətdiyi fəlakətlərdən məmnun qalaraq bütün əsər boyu insanları təqib edir, onları öz qurbanına çevirməyincə sakitləşmir. İnsanların Allahdan, haqqın nurundan uzaq düşməsindən, faciəli əməllərindən dəhşətə gələn Mələk isə onları tərk edir.

Şagirdlər qeyd edir ki, faciənin əvvəlində Arif bəşərin səadəti haqqında gözəl arzularla yaşayan bir gəncdir. Yer üzündəki ədalətsizliyi, zülmü görmək istəməyən Arif böhranlı hallar yaşayır. O, gördüyü faciəli mənzərələrdən, insanların bir-birinə qarşı qəddarlığından sarsılır:

*Yalnız deyil insanlara, vəhşilərə sorsan,*
*Onlar belə insandakı vəhşiliyə heyran!*

Arif Allaha yalvarır ki, insanların acı fəryadlarını eşitməmək, həyatdakı faciələrdən qurtulmaq üçün onu göylərə qaldırsın. Allahın dərd içində əzilən, məhv olan insanların fəryad dolu sədalarını, yalvarışlarını səbirlə seyr etməsi Arifi heyrətləndirir, bunun səbəbini başa düşə bilmir:

*Sənsiz doğamaz qəlbimə, vicdanıma, heyhat,*
*Bir şö'leyi-irfan.*
*En, gəl bana, yaxud bəni yüksəklərə qaldır,*
*Gəzdir qonağında;*
*Yerlərdə süründüm, yetişir, göylərə qaldır,*
*Dindir qucağında,*
*Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi*
*Cənnətdə mələklər?*
*Qaldır bəni, ta görməyim insandakı zülmü,*
*Baq, yer üzü inlər.*
*Ya Rəb, bu cinayət, bu xəyanət, bu səfalət*
*Bulmazmı nihayət?*
*İnsanları xəlq etmədə var bəlkə də hikmət,*
*İblisə nə hacət!?*

Müzakirə vaxtı şagirdlər qarşısında dəqiqləşdirici problemli sual qoyulur: **Necə oldu ki, əvvəlcə Allahdan imdad istəyən, həqiqət axtaran Arif axırda qatilə çevrildi? Arifin mənəvi iflasında, faciəsində günahkar kimdir?**

Şagirdlərin diqqəti ilk səhnədə İblisin və Mələyin qanlı səhnələrə münasibətindəki fərqlərə yönəldilir. Müzakirə zamanı belə qənaət yaradılır ki, ilk səhnədə İblis və Mələyin sözlərində, gördükləri dəhşətlərə münasibətdə həyatda iki qütbün-xeyirlə şərin mübarizəsi, qarşılaşdırılması öz əksini tapır. Bu qarşılaşmada iki qüvvənin bir-birinə zidd mövqeyi üzə çıxır: İnsanlar baş verən şər işlərdə İblisi günahlandırır, lənətləyir, İblis isə insanların törətdiyi cinayətləri öz əməllərinin nəticəsi sayır.

**Əsərdəki konflikt də bu qarşılaşmadan doğur**: Arifin təbiətində, taleyində özünü büruzə verən bu qarşılaşmada kim qalib gələcək: Mələk yoxsa İblis? Ondakı humanizm, məhəbbət, mədəniyyət, yoxsa nəfs, mənfi ehtiraslar?

İnsanın nəfsə, mənfi ehtiraslara uymasına çalışan İblis cilddən-cildə girir, gah mehmanxana sahibi kimi müsafirlərə qulluq edir, gah da şikəst və qoca yolçu



Scanned with ACE Scanner

qiyafəsində insanlara pozucu təsir göstərir.O, görür ki, iblistəbiətli insanlar onsuz da şər əməllər, cinayətlər törədir, hər cür rəzalətə, xəyanətə qadirdir:

*Bənsiz də, əmin ol sizə rəhbərlik edən var:*
*Qan püskürən, atəş savuran kinli krallar,*
*Şahlar, ulu xaqanlar, o çılğın dərəbəglər,*
*Altun və qadın düşkünü divanə bəbəklər.*
*Bin hiylə quran tilki siyasilər, o hər an*
*Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;*
*Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,*
*Onlar duruyorkən bəni təhqirə nə hacət?!*
*..Bən tərk edərim sizləri əl'an, nəmə lazım!*
*Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.*

Şagirdlər həyatdakı real iblislərin- şərə uymuş, öz nəfsinin quluna çevrilmiş kinli krallar, şahlar, ulu xaqanlar, tülkü siyasilər, məzhəb çıxaran, yol ayıran xadimi-ədyanların iç üzünü açan bu monoloqu, eləcə də əsərdəki digər obrazları təhlil edir, əsaslandırılmış münasibət bildirirlər.

Qeyd edilir ki, Arifin yerdəki zülmü görməmək üçün göylərə qaldırılmaq istəyi, yalvarış sədaları cavabsız qalır, çünki o, hələ Allahın eşidə biləcəyi mənəvi kamillik səviyyəsinə çatmamışdır. Bunu onun sonrakı əməlləri də sübut edir. Arif yaşadığı mühitin, altun, şərab, silahın pozucu təsiri ilə dəyişir, həqiqət axtaran, bəşərin səadəti haqqında xəyallara dalan romantik ruhlu bir gəncdən qardaşı Vasifin və bir zamanlar sevdiyi Xavərin qatilinə çevrilir.

Əsərdə Ariflə yanaşı, şəri təmsil edən digər obrazlar da diqqəti cəlb edir. Vaxtilə müqəddəs kitab- İncil adı ilə Ermənistana qurşun, silah-sursat daşımış erməni keşişi, Ərəbistanı qarışdıran, Dəccala uymuş fransız casusu, nəfsinə uyub ingilis dəllalına çevrilmiş İran şeyxi, qatil və soyğunçuya çevrilmiş ərəb zabiti İbn Yəmin obrazları ilə dramaturq şərin miqyasını, bəşəriyyətin bəlasına çevrildiyini göstərmək istəmişdir. İnsanların səadətini arzulayan Mələklə yanaşı, qeyrətli zabit olan Vasif, ədalət məhkəməsi qurub xainləri, qatilləri cəzalandıran Elxan xeyiri təmsil edən obrazlardır.

Müzakirə zamanı qeyd edilir ki, İblis rəmzi, simvolik surətdir. Təsadüfi deyil ki, müəllif əsərdə bu obraza canlı varlıq kimi yanaşmır, "İblis kimdir yox, nədir?" deyir:

*- İblis nədir?*
*- Cümlə xəyanətlərə bais.*
*- Ya hər kəsə xain olan insan nədir?*
*- İblis.*

Şagirdlərdə belə qənaət yaradılır ki, baş verən faciələrdə, ədalətsiz müharibələrdə, insanların törətdikləri saysız-hesabsız cinayətlərdə mifik obraz olan İblis deyil, nəfsə uyan, iblislik edən insanların özü günahkardır:

*İblis!.. O böyük ad nə qədər calibi-heyrət!*
*Hər ölkədə, hər dildə anılmaqda o şöhrət,*
*Hər qülbədə, kaşanədə, viranədə İblis!*
*Həp Kəbədə, bütxanədə, meyxanədə İblis!*
*Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,*
*Hər kəs bana aciz qul ikən, bəslər ədavət,*
*Lakin bəni təhqir edən, ey əbləhü miskin!*
*Olduqca müsəllət sana, bil, nəfsi-ləimin,*
*Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,*
*Daim ayaq altında sönüb məhv olacaqsın.*

H.Cavidin əsərdəki konfliktin həll yolunu, şərlə mübarizədə insanlığın çıxış yolunu nədə gördüyünü aydınlaşdıran şagirdlər qeyd edir ki, şair şərə qarşı mübarizədə bəşəriyyətin çıxış yolunu humanizmdə, insana məhəbbət və mədəniyyətdə, maarifdə görürdü.Şagirdlərin nəzərinə çatdırılır ki, ümumiyyətlə, Cavid öz əsərlərində "zehniyyətçiliyə", idealizmə, mistik və sxolastik fəlsəfələrə qarşı üsyan edir, onlara İblisin məsxərələri, kinayələri ilə gülürdü. Onun əsərlərində əsas tragik konfliktlər çox vaxt "bəşəriyyətçilik" və "ümumi məhəbbət" ideyaları, humanizm və maarifçilik



ideyaları cəbhəsində həll edilirdi.

Digər problemli sual əsərin ideyasını, müəllif mövqeyini dəqiqləşdirməyə xidmət edir: **Dramaturqun insan xislətindəki qüsurlardan söz açmaqda niyyəti nədir?** Müzakirə zamanı şagirdlərə aydın olur ki, müəllif bu qüsurları acı təəssüf hissi ilə göstərməklə onların insana yabançı, dağıdıcı mahiyyətini açmaq, oxucunu, tamaşaçını ayıltmaq, düşündürmək istəmişdir. Sənətkarın fikrincə, xeyirxahlığın da, şərin də mənbəyini göylərdə deyil, cəmiyyətdə, insanların daxilində, mənəviyyatında axtarmaq lazımdır. İnsanlığın səadəti, çıxış yolu xeyirxahlıqda, məhəbbət və mədəniyyətdə, öz içindəki mənfi ehtirasları, nəfsi boğmaqda, sərvət, rəyasət hərisliyindən uzaqlaşmaqdadır.

**Yaradıcı tətbiqetmə mərhələsində** şagirdlər qazandıqları bilik və bacarıqları tətbiq etməklə belə bir sual üzrə mülahizələrini bildirirlər: **"Əsərin yazıldığı dövrdən yüz ilə yaxın bir vaxt keçir. Dramaturqun qaldırdığı problemlər müasir dövrdə öz aktuallığını saxlayırmı?** " Şagirdlər bildirirlər ki, yaşadığımız dövrdə də insanın qarşısında xeyirə tapınmaq, öz təbiətindəki şərdən xilas olmaq vəzifəsi durur. Şər qüvvələrin törətdiyi, bəşəriyyətin xroniki xəstəliyinə çevrilmiş ədalətsiz müharibələr, torpaqların işğalı, "altun və qurşuna" güvənmək bu gün də dünyanın acı reallığıdır.İnsanın "nuri-həqiqət" axtarışları hələ də davam edir. Öz idrakının gücü ilə kosmosu fəth edən, ən yeni texnologiyaları kəşf edən insan xislətindəki şərlə bacarmır, ondan xilas olmaqda hələ də acizdir.

**Nəticə və ümumiləşdirmə mərhələsində** qazanılmış bilik və bacarıqlar əsasında tədqiqat sualı üzrə araşdırma və müzakirələr yekunlaşdırılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, müəllifin niyyəti bəşəriyyətə faciələr gətirən müharibə quzğunlarını ifşa etməklə yanaşı, bəd əməllərin, xəyanətlərin, rəzalətlərin, ədalətsizliklərin mənbəyinin insanların şərə uymasında, altun və rəyasət düşkünlüyündə, öz ehtiraslarının quluna çevrilməsində olduğunu açıb göstərməkdir. Əsər müharibə əleyhinə yazılsa da, hərbin dəhşətlərinə, insanlara gətirdiyi faciələrə münasibət bildirilsə də, sənətkarın fikrincə, müharibə səbəb deyil, nəticədir. Yaşanan faciələrdə günahkar mifik, ənənəvi-rəmzi surət olan İblis deyil, əsl iblis insanın içindəki şər xislətdir, boğa bilmədiyi mənfur ehtiraslardır. İnsanlığın, xeyirxahlığın, mədəniyyətin düşməni olan bu şər qüvvə ayaq basdığı hər yerə ölüm, fəlakət gətirir, işıqlı arzuları, saf niyyətləri puç edir. Çıxış yolu hər bir insanın daxilən, mənən saflaşmağa can atması, şəri təmsil edən qüvvələrə qarşı mübarizədə birləşməsindədir. Bəşəriyyət yalnız həqiqət,ədalət, mənəvi gözəllik, humanizm, mədəniyyətə tapınmaqla şərin kökünü kəsə bilər.

**Ev tapşırığı:**

Mövzulardan birini seçib esse yazın.

1. "Həyatda xeyirlə şərin mübarizəsi haqqında nə düşünürəm".
2. "Arifin taleyi məndə hansı hislər, düşüncələr oyatdı?"

Növbəti təhlil dərsində əsərin bədii xüsusiyyətləri araşdırılır. Romantik mənzum faciənin sənətkarlıq xüsusiyyətləri, dil və üslubu, süjet və kompozisiyası üzrə şagirdlərin tədqiqatı, müzakirə təşkil edilir.



Scanned with ACE Scanner

# TƏLİM RUS DİLİNDƏ OLAN MƏKTƏBLƏRDƏ HÜSEYN ARİFİN "AZƏRBAYCAN" ŞEİRİNİN ÖYRƏDİLMƏSİ

**Şəhla MİRZƏYEVA,**
**Bakı şəhərindəki 30 nömrəli tam orta məktəbin müəllimi**

İndiki şəraitdə Azərbaycan məktəbinin (ənənəvi dərs üsulunda əldə edilənləri qorumaq şərti ilə) qloballaşan və sürətlə inkişaf edən dünyada yeni təlim texnologiyalarına və dərs modelinə üz tutmasının fəlsəfəsini və məğzini anlamağa çalışmalıyıq. Doğrudur, bu islahatların təhsilimizə gəlişi prosesində səhvlərdən sığortalanmaq mümkün olmur. Axı "kurikulum" anlayışı 80 ilə yaxındır ki, inkişaf etmiş ölkələrdə öz işini görür. Müasir şəraitdə onun bəzi məqamları bizi təmin etməyə də bilər. Kurikulumu (həm də fənn kurikulumlarını) özümüzünküləşdirən mütəxəssislər, işçi qruplar, tərcüməçilər, dərslik müəllifləri və onları qiymətləndirən şəxslər sovet təhsil sisteminin yaxşı cəhətlərini və iyirmi illik müstəqillik dövründə əldə olunan təcrübə və nailiyyətləri mütləq nəzərə almalıdırlar. Buna görə də, yeni tədris standartları və proqramları (kurikulumları) ilə bağlı bəzi dırnaqarası mütəxəssislərin (o cümlədən, lazımi elmi-metodiki və nəzəri hazırlığı, kifayət qədər təcrübəsi olmayan şəxslərin) çıxış və mülahizələri əsassız və məntiqsiz görünür. Mən israrla onlara deyirəm: yeni terminlərin və təlim texnologiyalarının tətbiqi heç də bütün köhnə metodiki anlayışların və üsulların sıxışdırılmasını şərtləndirmir. Təlim-tərbiyə işi canlı prosesdir. Onun daim inkişafa, təkmilləşməyə ehtiyacı var. Bütün bunları nəzərə alaraq hər bir müəllim öz işinə məsuliyyətlə yanaşmalı və təcrübə mübadiləsi aparmalıdır.Son vaxtlar sosial şəbəkələr bu işdə onların ən gözəl yardımçısıdır desək, yanılmarıq. İKT-dən istifadə təlimin təşkili ilə bağlı təcrübə mübadiləsi üçün müəllimin internet vasitəsilə digər həmkarları və ya məlumat bazası ilə qarşılıqlı fəaliyyətini təmin edir.

Mən də bu prosesdən kənarda qalmamağa çalışır, dərslərimi müasir tələblər əsasında qurmağa səy göstərirəm.İndi həmkarlarıma dərslərimdən birini təqdim edirəm.

### V sinif

**Gözlənilən təlim nəticələri:**
Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.
Nitq prosesində jest və mimikalardan istifadə edir.
Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.
**Məzmun standartları:** 1.1.2; 2.1.2; 3.1.3.
**Mövzu:** H.Arifin "Azərbaycan" şeiri
**İnteqrasiya:** Azərbaycan ədəbiyyatı, tarix, informatika, musiqi
**İş forması:** bütün siniflə, kiçik qruplarla iş.
**İş üsulu:** beyin həmləsi, karusel.
**Resurslar:** dərslik, iş vərəqləri, kompüter, proyektor.



Şagirdlərə R.Muradovanın ifasında M. Şəhriyarın "Heydərbabaya salam" əsərinə yazılmış musiqi parçasının sədaları altında müvafiq fotoşəkillər göstərilir və soruşulur ki, bütün bunları birləşdirən nədir?
Gözlənilən cavab:
*- Azərbaycan, Vətən sevgisi.*
*Sonra bir neçə yönəldici suallar verilir:*
*Azərbaycan haqqına hansı şeirlər yazılıb?*
*Onlardan hansı daha cox xoşunuza gəlir.*
Cavablar dinlənildikdən sonra tədqiqat sualı təqdim olunur:

***H.Arifin "Azərbaycan" şeirində müəllifin oxucuya çatdırmaq istədiyi fikir nədən ibarətdir?"***

**Şagirdlərin iş vərəqləri:**

I iş vərəqi




II İş vərəqi




Qeyd: Birinci iş vərəqində H. Arifin "Azərbaycan" şeirinin birinci iki bəndi verilir.

III İş vərəqi




IV vərəqi




**Məlumatın müzakirəsi və təşkili.**

Bu mərhələdə lüğətlə iş də çox faydalı olar.

İş vərəqlərinin müzakirəsi zamanı isə şagirdlərin fikirləri dinləndikcə Şəki, Qarabağ və Bakı haqqında videofayllar göstərilə bilər. Qeyd etmək yerinə düşər ki, dil-ədəbiyyatın tədrisi prosesində İKT-dən istifadə:

1. Şagirdi əsas simaya çevirir.



Scanned with ACE Scanner

2. Müəllimə dərs zamanı daha çox faktlar və materiallardan istifadə etməyə və şagirdin yaradıcı fəaliyyətini qurmağa imkan yaradır;

3. Yeni təlim üsulları və təlimin təşkilinə, yəni müəllimin hazır bilik verəndən istiqamət verən bələdçiyə çevrilməsinə, təlim prosesində şagirdin obyektdən subyektə çevrilməsinə optimal şərait yaradır.

4. Müəllimin öz peşəkarlığına və nailiyyətlərinə inamını daha da artırır.

Məhz bunları nəzərə alaraq düşünürəm ki, hər bir müəllim İKT-dən istifadə bacarığına malik olmalıdır.

**Nəticə və ümumiləşdirmə.**

Vətənimiz haqqında çoxlu şeir yazılıb. Onlardan biri də H.Arifin "Azərbaycan" şeiridir. Bu şeirdə şairin vətənə, onun maddi və mənəvi sərvətlərinə məhəbbəti açıq-aydın hiss olunur. Şeirdə görkəmli şairlərimizdən S.Vurğunun, Füzulinin, Ü.Hacıbəylinin, M.Şəhriyarın adları çəkilir. Uca dağlarımız vəsf olunur. Yurdumuzun dilbər guşələridən olan Şəki və Şuşa məhəbbətlə tərənnüm edilir. Sonuncu bənddə şairin Vətənimizin xoşbəxt gələcəyinə inam hissi xüsusilə diqqət çəkir.

Bu şeiri oxuduqdan sonra Vətənə məhəbbətimiz daha da artır. Onun xoşbəxt gələcəyinə bir daha əmin oluruq.

**Qiymətləndirmə**

| QRUP | qrup I | qrup II | qrup III |
|---|---|---|---|
| MEYAR | | | |
| 1. Bədii mətni ifadəli oxuma və tərcümə | | | |
| 2. Mətnin aşıladığı ideyanı aydınlaşdırma və həyatla əlaqələndirmə | | | |
| 3.Müzakirədə söylənilən fikirləri qruplaşdırma və müstəqil fikir yürütmə | | | |
| 4. Fəal dinləmə və əməkdaşlıq | | | |
| YEKUN | | | |

**Ev tapşırığı:**

Şeiri əzbərləmək və " Dilimiz ölməz, Vətən bölünməz!" mövzusunda esse yazmaq.



# SİNTAKTİK TƏHLİL QRAMMATİK TƏHLİLİN TƏRKİB HİSSƏSİ KİMİ

**Qüdsiyyə QƏMBƏROVA,**
**filologiya üzrə fəlsəfə doktoru**

Praktik dilçiliyin əsas metodik vasitəsi qrammatik təhlildir. Qrammatik təhlil praktik çalışmalardan ən səmərəlidir. Çünki qrammatik təhlil zamanı şagird və ya tələbə istər keçmiş, istərsə də yeni dərsin nəzəri məsələlərini əyani vasitə əsasında təcrübədə möhkəmlədir. Bu mənada praktik təhlillər keçilmişlərin sistemləşdirilməsi işinə tətbiq olunduqda daha müsbət nəticələr əldə etməyə kömək olur.

Qrammatik təhlilin iki əsas növü məlumdur: 1) morfoloji təhlil; 2) sintaktik təhlil. Əgər biz sintaksisi qrammatikanın bir hissəsi kimi qəbul ediriksə, onda morfoloji bilikləri bu məsələdə unutmamalıyıq. Sintaktik təhlil, daha dəqiq götürüldükdə bütün dilçilik sahəsinə aid bilik və bacarıqları özündə birləşdirir:

1) Qrammatik təhlil qayda və tərifləri dəqiq mənimsəməyə əsas verir.
2) Qrammatik təhlil nəzəri biliklərin praktik şəkildə tətbiqini öyrədir.
3) Qrammatik təhlil müstəqil təcrübi iş vərdişi aşılayır.
4) Qrammatik təhlil məntiqi təfəkkürün inkişafını təmin edir.
5) Qrammatik təhlil əqli nəticə çıxarmaq bacarığı aşılayır.
6) Qrammatik təhlil orfoqrafiya qaydaları və durğu işarələrinə dair nəzəri biliklərin tətbiqinə imkan verir.
7) Qrammatik təhlil mövzulararası əlaqənin təcrübədə tətbiqinə şərait yaradır.
8) Qrammatik təhlil şifahi nitq vərdişlərinin formalaşmasına imkan yaradır.
9) Qrammatik təhlil morfologiya və sintaksisin əlaqəsini təcrübədə görməyə imkan verir.
10) Qrammatik təhlil müəllimə öz işinin nəticəsini düzgün qiymətləndirməyə əsas verən ən səmərəli üsuldur.

Məzmun baxımından qrammatik təhlilin ən geniş əhatəli növü sintaktik təhlildir. O həm şifahi, həm də yazılı aparıla bilər. Sintaktik təhlil iki cür olur: 1) cümlə üzvlərinə görə; 2) mürəkkəb cümlənin quruluşuna görə.

Sintaktik təhlildə aşağıdakı əsas məqsədlər vardır:

1) Cümlənin quruluşunu müəyyənləşdirmək; 2) cümlədə sözlərin əlaqəsini müəyyənləşdirmək; 3) orfoqrafiya qaydalarının və durğu işarələrinin tətbiqini mənimsətmək; 4) cümlənin məqsəd və intonasiyaya görə növlərini təyin etmək bacarığını mənimsətmək; 5) üslubi bilikləri aşılamaq; 6) ifadəli oxu vərdişlərini formalaşdırmaq.

Müəllimin gündəlik dərs prosesində fərdi sorğu zamanı şifahi və ya yazılı formada morfoloji-sintaktik təhlil aparması müsbət nəticələr qazandırır. Belə olduqda tələbələr iti fəhm, rabitəli və lakonik nitq vərdişi qazanmış olurlar.

Sintaktik təhlilin iki forması var: 1) yarımçıq; 2) tam. Sintaktik təhlilin yarımçıq formasında konkret mövzu seçilməlidir. Məsələn, "Sintaktik



Scanned with ACE Scanner

əlaqələr" bölməsindən "Tabelilik əlaqəsi" mövzusu üzrə təhlil aparmağı müəllim məqsəd kimi seçir. Bu zaman müəllimin tapşırığı ilə tələbələr ya bədii əsərlərdən mövzuya aid bitkin mətn seçir, ya da müxtəlif əsərlərdən nümunələr toplayırlar. Tapşırıq məhz həmin mətn üzərində icra olunur. Bu halda tələbə və şagirdlərdə qrammatikadan bilik əldə etməklə, bədii zövq tərbiyə edilir. Belə olduqda onlar ədəbiyyatda fərdi üslubu müəyyən etməyi və qiymətləndirməyi öyrənmiş olurlar. Sintaktik təhlilin bütöv forması isə hər hansı bölmənin öyrənilməsindən sonra tətbiq olunur. Məsələn, "Sadə cümlə və növləri" bölməsi başa çatdıqda müəllim keçilmişlərin sistemləşdirilməsi və yekunu məqsədi ilə bütöv sintaktik təhlil həyata keçirir. Bu halda orta və yekunu məqsədi ilə bütöv sintaktik təhlil həyata keçirir. Bu halda orta məktəblərdə müəllim məqsədinə uyğun olaraq rüblük, yarımillik və ya illik nəticələri müəyyən edir. Ali məktəblərdə isə praktik məşğələ saatlarında müəllimin tapşırığı bir qədər fərqlənir. Çünki burada orta məktəbdə qazanılmış bilik sintaktik təhlili bütün "Sintaksis" kursuna tətbiq etməyə imkan verir. Yenə əvvəldə qeyd etdiyimiz kimi, hazır cümlə nümunələri ədəbi dilin bütün üslub formalarında ola bilər. Tələbələr seçilmiş nümunələri səliqəli xətlə kartoçkalara yazmalıdırlar. Sonra bu nümunələr qruplaşdırılaraq xüsusi zərflərdə saxlanmalıdır. Zərfin üzərində nümunələrin hansı mövzuya aidliyi, hansı əsərdən götürülməsi və müəllifi qeyd olunmalıdır. Bu, tələbələrin gələcəkdə səriştəli müəllim olmasını formalaşdırır.

*Sintaktik təhlilin morfologiya ilə əlaqəsi.*

Məlum olduğu kimi, dilçilik elmi fonetika, morfologiya və sintaksis sahəsinin məcmusudur. Tam bütöv sistem kimi qavradığımız dili hissələrə ayırmaq nisbidir. Əslində onlar arasındakı əlaqə özü bizə dili dərk etməyə imkan yaradır. Qrammatikanın hələ orta məktəblərdə tədrisi zamanı, ən sadə şəkildə desək, nitq hissələrinin sintaktik rolu öyrədilir. Başqa sözlə, nitq hissələrinin müəyyənləşdirilməsi onların sintaktik rolundan asılı olur. Buna görə də, hər bir nitq hissəsinin tədrisi zamanı və qrammatik təhlildə sözün sintaktik vəzifəsi qeyd olunur. Məsələn, isim, ümumidir, adlıq haldadır, sintaktik vəzifəsi mübtəda və s. Morfologiya sözün formasını öyrənən bir elm kimi, leksik və qrammatik şəkilçilərin qoşulduğu sözlərin sintaktik funksiyasını da təyin etməyə kömək edir. Başqa sözlə, sintaksis (birləşmə, tərtibat) qrammatik-morfoloji üsulla formalaşır. Sözlər arasında qrammatik bağlılıq əsasında cümlə qurulur. Başqa sözlə, cümlə qurmanın əsas göstəricisi qrammatik vasitələrdir. Bu cəhətləri ilə morfologiya sintaksisin formalaşmasına yardım edir. Fikrimizcə, təcrübəli pedaqoqlar sintaksisin tədrisində tez-tez morfologiyadan məlum olan bilikləri xatırlatmalıdırlar. Praktik məşğələlərdə də bu əlaqəni unutmamaq üçün eyni cümlə üzərində həm morfoloji, həm də sintaktik təhlil aparmaq təqdirəlayiqdir. Bu iş biliyin təməli olan təkrarların effektivliyini təmin etməklə, həm də mövzulararası əlaqəni tam xatırlamağa imkan yaradır.

*Sintaktik təhlil. Sadə cümlənin təhlili.*

Cümlə növlərinə görə təhlildə hansı məsələlər nəzərdə tutulmalıdır?

1) Cümlənin məqsəd və intonasiyaya görə növlərinin təyini.
2) Cümlənin müxtəsər və genişliyi məsələsi .



3) Bütöv və yarımçıq cümlə məsələsi.
4) Xəbərin tapılması.
5) Mübtədanın tapılması.
6) Baş üzvlərdən birinə görə cümlənin növünün təyini.
a) Xəbər əsasında formalaşan cümlə növünün təyini.
b) Mübtəda əsasında formalaşan adlıq cümlənin quruluşunun və ifadə vasitələrinin təyini.
7) Sadə cümləni genişləndirən vasitələrin aşkarlanması.
a) İkinci dərəcəli üzvlər hesabına.
b) Cümlə üzvləri ilə əlaqəsi olmayan vasitələrin (xitablar, ara sözlər və ara cümlələr) aşkar olunması.
8) Cümlə üzvlərinin morfoloji əsasının tapılması.
9) Orfoqrafiya və durğu işarələri ilə bağlı biliklərin tətbiqi səviyyəsini yoxlamaq.
10) Cümlə üzərində akademik oxu vərdişini yoxlamaq.
11) Sintaktik təhlil sxemi qurmaqla uyğun cümlələr tapmaq vərdişini formalaşdırmaq.

*Mürəkkəb cümlənin təhlili.*

Mürəkkəb cümlə bir neçə sadə cümlənin məna və qrammatik cəhətdən birləşməsidir. Bu səbəbdən mürəkkəb cümlələrə tətbiq olunan tələblər xeyli fərqlidir. Mürəkkəb cümlələri təşkil edən sadə cümlələr bir-biri ilə məna əlaqələri vasitəsilə tabesiz, ya da asılı-tabelilik münasibətində birləşirlər. Beləliklə, tabesiz mürəkkəb cümlələrdə aşağıdakı məsələlər nəzərə alınmalıdır:

1) Cümlənin düzgün, tələb olunan intonasiya ilə oxunması.
2) Cümlənin tərkibindəki sadə cümlələrin miqdarını bilmək.
3) Sadə cümlələri bağlayan vasitələrin (bağlayıcılı və bağlayıcısız olması)göstərilməsi.
4) Orfoqrafiya və durğu işarələrinin işlənməsi qaydasının gözlənməsi. Bu barədəki nəzəri biliklərin yada salınması.
5) Tabesiz mürəkkəb cümləni təşkil edən sadə cümlələrin ayrı-ayrılıqda təhlil olunması.

*Tabeli mürəkkəb cümlələrin təhlili.*

1) Cümlənin düzgün intonasiya ilə oxunması.
2) Budaq cümlənin növünün dəqiqləşməsi.
3) Baş və budaq cümlənin tapılması.
4) Qəlib sözlərin rolunun yada salınması.
5) Baş və budaq cümləni bağlayan vasitələrin rolunun xatırlanması.
6) Baş cümlədən doğan sualın budaq cümlədə əks olunmasının əyani göstərilməsi.
7) Cümləni ya sadələşdirərək, ya da baş və budaq cümləni ayrı-ayrılıqda təhlil etmək.
8) Baş və budaq cümlənin yerini təyin etmə bacarığını öyrənmək.
9) Budaq cümlənin sxemini qurmağı öyrənmək.
10) Budaq cümlənin orfoqrafiyası-durğu işarələrinin işlənməsi qaydasının yoxlanması.

Bütün qeyd olunan məsələlər bir müəllimin pedaqoji təcrübəsinə əsaslanır. Lakin dərs prosesinin daha maraqlı qurulması hər bir müəllimin şəxsi bacarığı ilə müasir dərsə verilən pedaqoji tələblərin vəhdətindən asılıdır.



Scanned with ACE Scanner

# ŞAGİRDLƏRİNİZİ TANIYA BİLİRSİNİZMİ?

Məhəmməd BAHARLI

*Bilirsinizsə, lap yaxşı. Gəlin onları bir daha xarakterizə edək. Çünki təkrar biliyin anasıdır, deyiblər. Bəlkə yenə nəsə bir şey öyrənə bildik. Öyrəndik və onlarla daha yaxşı işləməyi bacardıq.*

*İlk söhbətimiz yeni insanla bağlıdır.*

YENİ İNSAN. Demokratik ruhlu yeni insan tərbiyə etmək ümumtəhsil məktəblərinin qarşısında duran başlıca vəzifələrdəndir.

Böyüməkdə olan nəslin bir vətəndaş kimi yetişməsi, formalaşması üçün ümumtəhsil məktəblərində hər cür imkan və bu imkanlardan səmərəli istifadə edə bilən yüksək ixtisaslı müəllimlər vardır. Lakin müəllimlərin işi nə qədər şərəfli, müqəddəs olsa da, bir o qədər çətin və məsuliyyətlidir. Çünki yeni insan tərbiyə etmək heç də asan məsələ deyildir.

Bu gün yeni məna kəsb edib daha geniş məzmunda meydana çıxan, yüksək zirvəyə qədəm qoyan yeni insan tərbiyəsi problemi ziyalıları həmişə düşündürmüşdür. Məsələn, vaxtilə N.Q.Çernışevski də "Nə etməli?" əsərini yazarkən qarşısına yeni insan haqqında bəhs etmək kimi çox mühüm bir vəzifə qoymuşdu. O deyirdi ki, mən bu insanları görmək üçün bütün Rusiyanı gözlərim qarşısına gətirdim və çox yox, cəmi dörd-beş yeni insan görə bildim. Çernışevskinin gördüyü həmin yeni insanlar başqalarından öz təzə arzu və əməlləri ilə fərqlənən, daim öyrənməyə can atan, inqilab əhvali-ruhiyyəli adamlar idilər. Bu vaxt H.B.Zərdabi isə "Əkinçi"də üzünü camaata tutub yazırdı ki, ayağına hamı kimi çarıq deyil, çəkmə geyən bəzi gənclərə niyə elə rişxəndlə baxırsınız?.. Zərdabinin nəzərincə, həmin gənclər də özlərinin zövqlü geyimləri ilə diqqəti cəlb edən yeni insanlar idilər.

İndi də yeni insan fərqli düşüncə qabiliyyətinə görə başqalarından seçilir. Əsas odur ki, bu qabiliyyəti dərk etməyi və qiymətləndirməyi bacarasan.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, yeni insanlardakı keyfiyyətlər çox vaxt başqalarına qəribə də görünə bilər, təəccüblü də. Gəlin elə bu günümüzə müraciət edək. Məktəblərin birində buna bənzər faktlardan biri ilə biz də rastlaşdıq. Ədəbiyyat müəllimi direktorun kabinetinə daxil olub həyəcanla dedi: — İnanın, Z.-nın əlindən dərs keçmək mümkün deyil. O, dərsdə rahat otura bilmir, dəlilik edir, imkan vermir ki, şagirdlərlə əməlli-başlı işləyim. Bunu nə qədər nəzərinə çatdırıramsa da, təsiri olmayır.

Müəllimin həyəcanı bizi də maraqlandırdı. Direktordan Z. haqqında qısa məlumat verməsini xahiş etdik. Öyrəndik ki, VII sinfə qədər başqa məktəbdə oxumuş, hazırda isə bu yeni kollektivə gəlib düşmüş həmin şagird haqqında direktor və müəllimlər hələ o qədər də geniş məlumata malik deyildilər. Nə isə, dərsdə biz də iştirak etdik. Bütün sinfə göz gəzdirib ədəbiyyat müəlliminin "anormal" kimi qələmə verdiyi həmin şagirdin kim olduğunu müəyyənləşdirməyə çalışdıq. Bütün şagirdlər rahat oturub yeni dərsin izahına qulaq asırdılar. Yalnız bir nəfərdən başqa. Bu bir nəfərin bizim qarşımızda da özünü narahat aparması deyəsən müəllimin ürəyincə oldu, çünki onun şikayəti özünü doğruldurdu. Həmin şagird Z. idi. O, arxadakı partalardan birində əyləşmişdi. Sol böyründəki şagirdə nəyi isə izah edir, suallar verirdi. Belə bir metod seçdik: müəllimin dəfələrlə etdiyinin əksinə olaraq ona yox, söhbətə tutduğu şagirdə işarə ilə bildirdik ki, sakit oturmaq lazımdır. Həmin şagird tədricən özünü Z.-dan, onun söhbətinin təsirindən ayırdı. Bir azdan Z. arxa tərəfə dönüb başqa bir şagirdi söhbətə tutmağa başladı. Arxadakı şagirdi də onun söhbətindən təcrid etdik. Lakin hiss olunurdu ki, Z.-nın söhbətini, suallarını, izahını dinləyən həmin şagirdlərin gözləri müəllimdə olsa da, fikirləri Z.-da qalmışdı. Biz bunun səbəbini iki cəhətdə görürdük: birincisi, Z.-nın söhbətinin maraqlı olmasında, ikincisi, müəllimin dərsi müasir tələblər səviyyəsində qurmamasında. Şagirdi



narahat edən fikir, məsələ dərs prosesindəcə üzə çıxarılmalı idi. Bu fikir nə idisə Z.-nın söhbəti vasitəsilə şagirdləri də maraqlandırırdı. Birdən o, özünü yığışdırıb ayağa qalxdı və onu narahat edən sualları yağdırmağa başladı. Bu suallar köhnə və yeni dərslərin mövzuları ilə əlaqədar idi. Onlar adi bir şagirdin sualları deyildi; özündən çox-çox uzağı görə bilən, dərin düşünməyi bacaran yeni bir insanın sualları idi. Soruşduq ki, həmin sualları o, özü necə başa düşür?

Z. sualları izah edir, hər dəfə isə yeni məsələlər üzə çıxır, başqa şagirdlər də ona qoşulub fikirlərini bildirirdilər. 45 dəqiqə bitmiş, ədəbiyyat dərsi qurtarmışdı. Fikir mübadiləsi isə davam edirdi. Bu axırıncı dərsdən yarım saat sonra ikinci növbənin məşğələləri başlanacaqdı. Şagirdlər isə vaxtın keçdiyindən xəbərsiz idilər...

Sonralar öyrəndik ki, həmin narahat, "dəlisov" oğlan orta məktəbi bitirən kimi Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş, orada yaxşı və əla qiymətlərlə oxumuşdur.

Bəli, buna görə də yaşından, tutduğu vəzifədən, ixtisas dərəcəsindən asılı olmayaraq hər hansı bir adamın keçirdiyi narahatlıq hissi, söylədiyi ağıllı fikir, yürütdüyü elmi mülahizə, etdiyi kəşf, qiymətli ixtira heç kimi pis mənada təəccübləndirməməli, heç kəs tərəfindən mühafizəkarlıqla qarşılanmamalıdır. Bu cür təəccüblənməmək, mühafizəkarlıq göstərməmək də elə yeni insana məxsus keyfiyyətlərdəndir. Belə keyfiyyətli yeni insanlar tərbiyə etmək isə daha çox pedaqoji kollektivlərin borcudur. Əlbəttə, heç kim yeni insan tərbiyəsinin mürəkkəb və uzunmüddətli bir iş olduğunu inkar edə bilməz. Lakin bu da bir həqiqətdir ki, həmin işin düzgün, səmərəli təşkili məktəb rəhbərlərindən çox asılıdır.

ŞAGİRD TƏBİƏTİ. Bir çoxu elə güman edir ki, şagird, necə deyərlər, uşaq olduğu üçün sadə məxluqdur və ona görə də burada təbiətdən söhbət açmağa heç bir lüzum yoxdur.

Bəzilərinə isə elə gəlir ki, bu sayaq fərdiləşdirmə aparmaq mənasızdır.

Bu fikirlər tamamilə yanlışdır. Əvvələn, şagird sadə məxluq deyildir. O, yalnız sadə görünür. İkincisi isə, onun mürəkkəbliklərlə dolu, eyni zamanda özünəməxsus təbiəti var. Həm də bu mürəkkəblik və özünəməxsusluq hər bir şagirdə xasdır. Həmin keyfiyyətlər istedadlı, o cümlədən yaradıcı düşünən, oxuduqlarına, gördüklərinə, eşitdiklərinə, bir sözlə, həyata fəal münasibət bəsləyən şagirdlərə daha çox aiddir. Şagird təbiətinin belə mürəkkəbliyi və özünəməxsusluğu isə hər şeydən əvvəl, yaşla və təlim əməyi ilə əlaqədardır.

Ulduzlara baxarkən bizə elə gəlir ki, onların hamısı bir boydadır, özü də günəş şüasından parıldayan dəniz ləpələri boyda. Hamısı da ləpələr kimi bir-birinə çox yaxındır. Bəs həqiqətdə necə, belədirmi? Əlbəttə, yox. Uzaqdan baxanda adamlar da ulduzlar kimi bu cür bir-birilərinə yaxın görünürlər. Halbuki, bəzən təbiətlərindəki mürəkkəblik və özünəməxsusluq onları bir-birilərindən çox fərqləndirir, mənən uzaq-uzaq adamlar edir. Şagird təbiəti də belədir. Bir sinifdə iyirmi beş nəfər şagird varsa, deməli, orada o qədər də təbiət var. Hər şagird təbiətini parçalanıb saysız-hesabsız atomlar əmələ gətirən molekullara bənzətsək, onda görərik ki, müəllim hər sinifdə necə çətin vəziyyətlərlə qarşılaşır. Bəs əslində necədir, müəllimlərin hamısı bu cəhəti nəzərə alırmı? Açıq deyək ki, yox. Ona görə də çox zaman təlim-tərbiyə işlərində şagirdlərin hamısına eyni cür yanaşırlar. Nəticədə isə şagirdlərin biri bilikli, digəri biliksiz olur.

Bizim hər birimiz şagird olmuşuq. Əgər unutmamışıqsa, birinci sinfə getdiyimiz çağları xatırlayaq, təlim əməyinə uyğunlaşmaqda çətinlik çəkdiyimiz ilk günləri yada salaq. O vaxt bizi başa düşməyib danlayan, hətta əsəbiləşib cəzalandıran valideynlərimizin, müəllimlərimizin amiranə göstərişlərinə qorxu gücünə itaət etməyə çalışardıq. Ancaq bu cür hərəkət düzgün idimi? Xeyr. Təəssüf ki, bu gün də belədir: bəzən biz valideynlər və müəllimlər də şagirdlərə həmin münasibəti bəsləyirik. Nəzərə almırıq ki, təlim əməyi ilk dəfə məktəbə qədəm qoyan uşaq üçün tamamilə yeni şəraitdir. Buna görə də şagirdin təbiətindən deyil, öz təbiətimizdən çıxış edərək onun qarşısında çox ciddi tələblər qoyuruq. Bu tələblərə istədiyimiz kimi əməl olunmadıqda isə şagirdi, necə deyərlər, sıxma-boğmaya salmağa başlayırıq. Belə olanda şagirddə çaşqınlıq, quru itaətçilik əmələ gəlir, şüurlu fəaliyyət isə arxa plana keçir.

Pedaqoq məhz o adama deyilir ki, çətin şəraitdən, hər cür psixoloji vəziyyətdən çıxış yolu tapır, yeni insan tərbiyə edib yetişdirmək kimi şərəfli bir vəzifənin öhdəsindən layiqincə gələ bilir. Bu cür nəcib peşə sahiblərinin ustalığı özünü ən çox şagird təbiətinə dərindən bələd olmaqda və ona düzgün təsir etməyi bacarmaqda göstərir.



Scanned with ACE Scanner

Budur, birinci sinif şagirdi N. sevimli gəlinciyini çantasında sinfə gətirib. Müəllim gəlinciyi görüb götürür və N.-i cəzalandırır. Məgər cəza ilə şagird təbiətinə təsir etmək olar? Düzdür, şagird, ola bilər ki, həmin cəzadan sonra sinfə gəlincik gətirməsin, lakin onun müəlliminə münasibəti də dəyişməzmi? Çox güman ki, dəyişə də bilər. Bu isə təlimə maraq tərbiyəsinə mənfi təsir göstərər. Belə halda ən yaxşı yol N.-in həmin hərəkətini bütün şagirdlərin iştirakı ilə təhlil etmək olmazmı? Olar! Həm də ona görə ki, bu hal təkcə N. üçün deyil, onunla yaşıd olan birincilərin əksəriyyəti üçün də xarakterikdir.

Son vaxtlar müasir şagirdlər haqqında daha çox giley eşidilir. Onların təbiətcə əvvəlki şagirdlərdən nadinc olduqları, bəzən heç kimlə, heç nə ilə hesablaşmadıqları və s. göstərilir. Həqiqətən də bu belədir. Lakin burada təəccüblü bir şey yoxdur. Təəccüblü yalnız müasir şagirdlərin təbiətindəki bu fərqə dinamikliyə görə müəllimlərin çaşıb qalmaları ola bilər. Məgər şagird təbiətində baş verən bu dönüşü dinamikliyi biz özümüz yaratmırıqmı? Televiziya, mətbuat, elmi-texniki tərəqqi, həyatımızdakı bütün dəyişikliklər, istər-istəməz, şagirdə də təsir edir və onu təbiətən bir neçə beş-on il bundan qabaqkı şagirdlərdən fərqləndirir. Müəllim beş-on il bundan qabaqkı müəllimlərin addımını atdıqda isə müasir şagirdlər barədə gileylənmə başlanır. Halbuki, gileylənmək yox, şagird təbiətindəki inqilabın əsl səbəblərini bilmək, şagirdə özünü tapmaqda, hadisələrdən düzgün nəticə çıxarmaqda, artmaqda olan daxili enerjidən səmərəli istifadə etməkdə köməklik göstərmək lazımdır. Bunun üçün isə müəllim öz üzərində daha çox işləməli və dərsə verilən müasir tələblərə müntəzəm əməl etməyə çalışmalıdır.

Şagird təbiətən müəyyən qədər elastikliyə malikdir. Ona görə də "düzəlməz şagird" deyənlər səhv edirlər. Bu baxımdan hər hansı bir şagirdlə işləmək, onu istənilən qəlibə salmaq mümkündür. Bu şərtlə ki, şagirdin qəlbinə, şüuruna yol tapasan.

Bəzən təbiətən pis hesab edilən şagirddə müəyyən bir hadisə qəflətən dönüş yaradır; bu hadisə hətta şagirdin bir-birinin ardınca törətdiyi xoşagəlməz halların ən pisi də ola bilər. Həmin hadisəyə görə şagirdi ağır cəza da gözləyər və o, bu anda heç kimə ümid bağlamaz da. Şagirdə verilən cəza haqlı da olar. Bəs onun təbiətində baş verən qəfil dönüşü görməməyi, nəzərə almamağı müəllimə bağışlamaq olarmı? Əlbəttə, yox, ona görə də uzun illərin gərgin zəhməti hesabına müalicə edilib həyata qaytarıldıqdan bir az sonra sürücünün ehtiyatsızlığından həlak olan xəstənin faciəsi həkimi nə dərəcədə sarsıdırsa, şagirdinin son taleyi də müəllimi o qədər ciddi narahat etməlidir.

Şagird təbiətindəki ən gözəl cəhətlərdən biri onun hər şeyi öyrənməyə can atması və hər şeyə inanmasıdır. Bu xüsusiyyət ən çox yuxarı siniflərə qədər davam edir. Bundan sonra dünyagörüşünün formalaşması ilə şagird marağında və inamında, bir növ, tənzimlənmə, konkretləşmə prosesi baş verir. Yəni o, maraq göstərdiyi peşələrdən biri üzərində dayanır, özünə müvafiq elm sahəsi seçir, təbiətinə uyğun dostlar arayır və s. Belə halda müəllimin şagirdlə iş xüsusiyyəti də bir qədər başqa forma və məzmun alır. Təəssüf ki, bəzən müəllimlər şagird təbiətindəki bu dəyişikliyə əhəmiyyət vermir, ona əvvəlki münasibətdə qalırlar. Bu hal təlimdə də özünü göstərir, şagirdin həyat hadisələri ilə tanış edilməsində də. Ona görə də şagird çox vaxt ən çətin problemləri təkbaşına həll etməli olur, bəzən ciddi səhvə yol verir, kömək və məsləhət üçün öz müəlliminə müraciət etməyi isə məqsədəmüvafiq bilmir.

Şagird təbiətinin belə mürəkkəbliyi və özünəməxsusluğu onun biliyinin üzə çıxarılmasına və qiymətləndirilməsinə də həssas, düzgün yanaşılmasını tələb edir. Bu sahədə dərsə cavab vermək və ya verməmək vahid meyar ola bilməz. Şagirdin hazırlıqlı olub-olmadığını duymağı, görməyi də bacarmaq lazımdır. Bütün bunlar üçün müəllimdən ilk növbədə əsl yaradıcı pedaqoqluq tələb edilir.

Təlim-tərbiyə işinin müvəffəqiyyəti şagird təbiətinin nəzərə alınmasından çox asılıdır. Şagird təbiətinə müsbət təsir göstərmək istəyən müəllim özündə həmin gücü toplamağı bacarmalıdır. Buna görə də şagird təbiətinin, xarakterinin öyrənilməsinə xüsusi diqqət yetirilməsi müəllimlərlə, xüsusilə pedaqoji ustalığın sirlərinə yiyələnməmiş gənc müəllimlərlə rəhbərliyin apardığı işdə əsas pedaqoji prinsiplərdən birinə çevrilməlidir.

ŞAGİRD SAKİTLİYİ, ŞAGİRD ŞILTAQLIĞI. Sinifdə dərs gedir. Şagirdlərin hamısı sakit oturub. Bir azdan 45 dəqiqə başa çatır. Müəllim həmişə olduğu kimi, bu dəfə də sinifdən razı halda çıxıb müəllimlər otağına yollanır. Yenə müəllimlər otağında giley-güzar eşidilir. Müəllimlərdən biri şagirdlərin dərsdə şıltaqlıq etmələrindən, digəri onların adi suallara belə



cavab verə bilməmələrindən və sairədən şikayətlənir. Dərsi sakit keçən müəllim isə giley-güzar edən yoldaşlarına qulaq asıb təkəbbürlə belə deyir:

— Balam, uşaqların dilini bilmirsiniz də, hünəri nədir ki, biri mənim dərsimdə şıltaqlıq eləsin.

Müəllimlər bu dəfə də ona həsədlə qulaq asırlar. Həmişə deyilən söz, həmişə aparılan həsəd! Əslində isə antipedaqoji takt! Bəli, bəli, antipedaqoji takt!

Şagirdləri sakit olan müəllimin üçüncü sinifdə dərs zamanı bir dəfə şagird A. nənəsinə məktub yazmış və onu yanındakı şagirdə oxutmuşdu. Yumor hissi ilə dolu olan həmin məktub hər iki şagirdin gülüşünə səbəb olmuş, bu isə müəllimə, özü demişkən, dəhşətli dərəcədə pis təsir etmişdi. Ona görə də müəllim hər iki şagirdi ayağa qaldıraraq ciddi cəzalandırmışdı. Bəs necə! Müəllim demişkən, axı onlar dərsdə şıltaqlıq etmişdilər. Bu ağır cəzadan sonra sinifdəki bütün şagirdlər həmin müəllimdən qorxmağa başlamışdılar. Ta o vaxtdan bəri müəllim həmin sinifdən razı halda çıxır.

"Sinifdə heç kim şıltaqlıq etmir". Təəssüf ki, bu söz çox zaman, necə deyərlər, ağına-bozuna baxmadan dərsin ümumi səviyyəsi üçün meyar götürülür. Halbuki, əgər dərs canlı keçmirsə, orada şagird mübahisəsi eşidilmirsə, hətta müəllimin özü problemli situasiya qarşısında qalmırsa, həmin dərsin yaxşı keçdiyini söyləmək olmaz. Yaxud o dərs ki səs-küylə, necə deyərlər, ağız deyəni qulaq eşitməməklə keçirsə, hər kəs öz bildiyini edirsə, həmin dərsi də yaxşı dərs adlandırmaq düzgün deyil. Əsl dərs o dərsdir ki, olduqca təbii keçir. Yəni müəllim çatdırmaq istədiyi fikri düzgün ifadə edə bilmədiyini duyub, sinfə müraciətlə yenidən həmin fikrin üzərinə qayıdır. Şagirdin nədəsə çətinlik çəkdiyini hiss edib, ona öz parta yoldaşına pıçıldadığını ucadan deməsini məsləhət görür. Yaxud nənəsinə məktub yazan şagirdlə yanaşı oturmuş şagirdi ayağa qaldırıb onların nəyə güldükləri ilə maraqlanır, bəlkə, bu gülüşün bütün sinif üçün faydalı olduğunu müəyyənləşdirir, məktubla tanış olur. Nənəsinə məktub yazan həmin şagirddə yumor yaradıcılığına xüsusi meyli üzə çıxarır. Bu hal daha yaxşıdır, nəinki şagirdləri susdurub yerində oturtmaq, sinfi çox vaxt lazım olmayan sakit, lal-dinməz vəziyyətə gətirmək.

Şagird sakitliyi, yaxud şagird şıltaqlığı müəllimi yanıltmamalıdır. Bu sakitlik və şıltaqlığın arxasında duran hikməti, əsl həqiqəti duymağı və görməyi bacarmaq lazımdır. Nəinki duymağı və görməyi, həm də çətin vəziyyətdən çıxmağı da müəllim bacarmalıdır.

Ümumiyyətlə, şagird sakitliyi və şagird şıltaqlığı uşaq təbiətinə məxsus mürəkkəbliklərlə əlaqədardır. Bu mürəkkəblikdən baş çıxarmaq üçün müəllim pedaqogika və psixologiya elmlərinin sirlərinə dərindən bələd olmalıdır. Məktəb rəhbərləri isə dərsə verilən müasir tələblərin təmin olunmasına nəzarəti gücləndirməlidirlər. Məhz bu yolla şagird sakitliyi və ya şagird şıltaqlığı məsələsi təlimdə problemə çevrilməz.

QÜRURLULUQ VƏ TƏKƏBBÜRLÜLÜK. Qürurluluqla təkəbbürlülük bir-birindən son dərəcə fərqli keyfiyyətlərdir. Qürurluluq yaxşı, təkəbbürlülük isə mənfi keyfiyyətdir.

Qürurluluq insanın daxili, mənəvi zənginliyi ilə bağlıdır. Belə gənclər tərbiyə edib yetişdirmək pedaqoji kollektivin, ailənin, ictimaiyyətin qarşısında duran vacib məsələlərdəndir. Çox təəssüf ki, bəzən bu mühüm məsələyə düzgün münasibət bəslənilmir, daha dəqiq desək, qürurluluğu təkəbbürlülüklə qarışdırır və zərərli hal hesab edib onun əleyhinə çıxırlar. Hətta elə müəllimlər, valideynlər, idarə rəhbərləri var ki, qürurlu olmağı insan ləyaqətini alçaldan cəhət kimi qiymətləndirdiklərindən bu cür xüsusiyyətə malik adamlara qarşı mübarizə də aparırlar.

Qürurlu olmağın özü çox böyük iradə, dözüm tələb edir və belə adamlar tez-tez onların malik olduqları xasiyyətə zidd adamların təzyiqinə məruz qalırlar. Həmin halda tərbiyəçinin, yaxud yaxın yoldaşın, yaşlı adamın onlara səhv münasibəti lap ağır təsir göstərməzmi? Şübhəsiz ki, bu cür səhv münasibətə son qoymaq, bunun üçün həssas və ehtiyatlı olmaq tələb edilir.

Nəzərə almaq lazımdır ki, qürurluluq ən gözəl keyfiyyətlərdən biridir. Qürurlu adamlar başqasının qarşısında alçalmağı, yersiz tənbeh olunmağı, tapşırılan işə məsuliyyətsiz münasibət bəsləməyi, gözükölgəliliyi heç vaxt ləyaqətlərinə sığışdırmazlar. Öz xarakterlərini yaxşı bildiklərindən və yüksək qiymətləndirdiklərindən onu heç nə ilə dəyişməzlər.

Təkəbbürlü adamlar isə, adətən, tamahkar və hiyləgər olurlar. Buna görə də ehtiyatlı və qorxaqdırlar. Lakin yeri gələndə hay-küy salmağı, özlərini öyməyi, zahirən mübariz, qayğıkeş,



Scanned with ACE Scanner

hərdən isə sadə göstərməyi də bacarırlar. Odur ki, qürurlu adamları tanımaq daha asandır, nəinki təkəbbürlüləri.

Təbabətdə olduğu kimi, pedaqogikada da düzgün müayinə, düzgün diaqnostika mühüm əhəmiyyətə malikdir. Məktəbin rəhbərliyi müəllimlərə, şagirdlərə fərdi yanaşmalı, onların xarakterindəki müsbət və mənfi keyfiyyətləri ayırd etməlidir. Məhz bundan sonra qüvvələri pedaqoji və şagird kollektivlərinin hər bir üzvündə rast gəlinən təkəbbürlülük kimi mənfi hərəkətlərə qarşı mübarizə aparmağa, qürurluluq kimi müsbət keyfiyyətlər formalaşdırmağa səfərbər etməlidir.

XARAKTER VƏ QABİLİYYƏT. Hər bir şagird bu və ya digər xarakterə, qabiliyyətə malikdir. Adamların birində xarakter aydın və sadə, digərində mürəkkəb və çətin olur. Birində qabiliyyət varsa, ola bilsin ki, digərində onu formalaşdırmağa ehtiyac duyulsun. Hər halda, tamamilə xaraktersiz və qabiliyyətsiz adam yoxdur. Təəssüf ki, bu cəhətləri müəllimlərimizin bəziləri bilmir, düzgün qiymətləndirmirlər. Belə nöqsanların başlıca səbəbi həmin müəllimlərin müşahidə aparmaq və mühakimə yürütmək bacarığının bəsitliyi, hər şeyə kor-koranə, yersiz və yanlış müqayisə ilə yanaşmaları, necə mürəkkəb təbiətli adamlarla işlədiklərini nəzərə almamalarıdır. Müəllim geniş müşahidə aparmağı, dərin və hərtərəfli düşünməyi bacarmırsa, qarşısındakı şagirdin xarakter və qabiliyyətini düzgün müəyyənləşdirə bilməyəcəkdir. Budur, yuxarı sinif şagirdlərindən biri bədii yaradıcılıqla da məşğuldur. Onun ədəbiyyat müəllimi isə bundan xəbərsizdir. Müəllim yalnız o vaxt xəbər tutur ki, şagird ona yanaşıb utana-utana deyir:

— Müəllim, ikipərdəli bir əsər yazmışam. Vaxtınız olsa oxuyub məsləhət verərdiniz.

Müəllim şagirdi başdan-ayağa süzüb, kinayə ilə cavab verir:

— Bala, sən heç bilirsən səhnə əsəri nədir?

Bu istehzanın şagirdə necə təsir bağışladığını təsəvvür etmək çətin deyil. Ancaq burada müəllimin nə cür düşüncə qabiliyyətinə malik olduğunu, istedada münasibətini görməyin mümkünlüyü bir yana, onun özünü başdan-ayağa süzüb kinayəyə qərq etmək bəlkə də az olardı.

Əlbəttə, şagirdə yuxarıdan aşağı baxmaq olmaz. Şagird sadəcə şagird deyil, o, gələcəyin ya şairi, ya alimi, ya kosmonavtıdır. Düzdür, onların arasında tez parlayanı da olur, gec üzə çıxanı da. Təəssüf ki, "qabiliyyətsiz" olaraq qalanı da var. Bu təəssüf hissinin yaranmasında təqsirin böyük bir qismi məhz müəllimlərin üzərinə düşür. Çünki şagird müəllimlər arasında yetişir.

Elə buna görə də şagirdin xarakterini və qabiliyyətini öyrənib nəzərə almaq onun ümumi inkişafında mühüm əhəmiyyətə malikdir.

Xarakterin öyrənilməsi qabiliyyəti inkişaf etdirmək və formalaşdırmaq üçün çox vacibdir. Xarakter və qabiliyyətin müəyyənləşdirilməsi peşəyə istiqamətləndirmədə xüsusi əhəmiyyətə malikdir. Əslində şagirdin xarakter və qabiliyyətini öyrəndikcə, onu hansı peşəyə istiqamətləndirməyin lazım olduğu da asanlıqla üzə çıxır.

Peşə xarakter və qabiliyyətə uyğun gəlməlidir. Deyək ki, şagird L. xaraktercə möhkəm və ağır təbiətlidir. Bir işi görüb qurtarmayınca rahat olmur. Geniş mühakimə yürütmək qabiliyyətinə, dərin biliyə, tədqiqatçılıq bacarığına malikdir. Belə halda onu başqa sahəyə yox, məhz elm aləminə maraqlandırmaq, istiqamətləndirmək faydalıdır.

Elə şagird olur ki, qabiliyyəti meyl etdiyi peşəyə uyğundursa da, xarakteri o sahə üçün münasib deyil və ya əksinə. Müşahidələr göstərir ki, belə hallarda ən səmərəli yol peşəni xarakter və qabiliyyətə görə seçib istiqamətləndirməkdir.

Digər hallar da ola bilər. Şagirdin xarakteri, qabiliyyəti də məlumdur. Lakin o, bu xarakter və qabiliyyətə münasib peşələrdən birini seçməkdə çətinlik çəkir və ya heç bu barədə fikirləşmir də. Bu zaman həmin şagirdi həm onun özü üçün, həm də ehtiyac duyulan sahələrdən biri üçün müvafiq peşəyə istiqamətləndirmək məqsədəuyğundur.

Ümumiyyətlə, peşəyə istiqamətləndirmə, irəlidə qeyd etdiyimiz kimi, çox mürəkkəb məsələdir və bunun bir sıra ciddi tələbləri vardır. Həmin məsələni daha düzgün həll etməyin yolu isə bizcə, kollektiv fəaliyyətdir; yəni məktəblərdə bu işlə məşğul olan xüsusi mikrokomitə yaratmaq və həmin komitə vasitəsilə işi təşkil edib nizama salmaqdır. Belə bir komitə məktəbin ən təcrübəli müəllimlərindən təşkil oluna bilər. Onun işinə məktəbin yerləşdiyi kənddə, qəsəbədə, rayonda çalışan müxtəlif peşə sahiblərindən ən qabaqcıllarını cəlb etmək olar. Komitə özünün rəngarəng tədbirləri ilə şagirdlərin xarakter və qabiliyyətlərini öyrənmək,



onları müəyyən peşələrə istiqamətləndirmək üçün xeyli iş görə bilər ki, bu da tədricən həmin sahədə zəngin təcrübəyə yiyələnməyə səbəb olar.

Obrazlı desək, peşəyə düzgün istiqamətlənmə müstəqil həyata hazırlaşan şagirdi uğurlu gələcəyə aparan möhkəm qanadlı quşdur. Bu quşun bir qanadı xarakterdirsə, o biri qanadı qabiliyyətdir. Xarakter və qabiliyyət seçilən peşəyə tam uyğun gəlsə, onunla daha çox ucalmaq olar.

YARADICILIQ MEYLİ. Şagirdin yaradıcılıq meyli onun yaradıcı fəaliyyət göstərməsi, yaradıcılıq sahəsinə istiqamətlənməsidir. Şagird yerinə yetirdiyi çalışmaya, mütaliə etdiyi əsərə, məşğul olduğu işə bu baxımdan yanaşmağı bacarmalıdır. Məhz bu halda, o, az vaxt ərzində çox səmərəli iş görər, əməyinin nəticəsi ona böyük sevinc gətirər.

Şagird yaradıcı fəaliyyətə malik deyildirsə, onun gördüyü iş usandırıcı, bezikdirici olacaqdır. Tutaq ki, şagird kimyadan "Qələvilər" bəhsini öyrənir. O, qələvilərlə dərindən maraqlanmırsa, kimyəvi reaksiyalar aparmaqdan zövq almırsa, öyrəndiyi bəhsin əhəmiyyətini dərk etmirsə, onun haqqında həvəslə düşünmürsə... burada yaradıcı fəaliyyətdən söhbət açmağa dəyməz.

Yaradıcı fəaliyyət şagirdlərin nəyə qabil olduqlarını, hansı peşələrə maraq göstərdiklərini aşkara çıxarır. Lakin yaradıcı fəaliyyətə asanlıqla nail olmaq mümkün deyildir. Bu cür fəaliyyət geniş düşüncə qabiliyyəti, dərin bilik və romantika tələb edir. Bunların hər üçünü şagirdlərə nəsib etmək mümkündür. Bir şərtlə ki, müəllimin özü o keyfiyyətləri mənimsəmiş olsun.

Əgər müəllimin özü yaradıcı fəaliyyəti təmin edən geniş düşüncə qabiliyyətinə, dərin biliyə və romantikaya malik deyildirsə, o, yaradıcı fəaliyyət göstərən şagirdi də düzgün qiymətləndirməyəcək, lazımi qaydada istiqamətləndirməyəcəkdir. Əksinə, belə şagird ona anlaşılmazlıq üzündən qəribə, bəlkə də sadəlövh görünəcəkdir. Belə yanlışlıq isə təbii ki, həmin müəllimi şagirdin gözündən salacaqdır. Məgər bu cür hadisələr azmı olubdur? Vaxtilə müəllimlərindən bir neçəsi Nyutonu, Darvini... yararsız, qabiliyyətsiz şagird kimi qiymətləndirmişdir. Bu gün də belə faktlarla rastlaşırıq. Bəli, bütün bunlar məhz müəllimin yaradıcı fəaliyyət göstərə bilməməsi, yaradıcı fəaliyyət göstərən şagirdi düzgün başa düşməməsi nəticəsində baş verir. Böyük rus pedaqoqu K.D.Uşinski nahaq yazmırdı ki, şəxsiyyətin müəyyənləşdirilməsinə və inkişafına yalnız şəxsiyyət təsir edə bilər. Xarakteri yalnız xarakterlə yaratmaq olar.

Şagird yaradıcı fəaliyyət göstə

rirsə, üstəlik yaradıcılıq sahəsinə həvəslidirsə, bu, müəllimlərdən daha böyük diqqət və xüsusi qayğı tələb edir. Təcrübə göstərir ki, yaradıcılıq sahəsinə həvəsi olan şagirdlərlə iş digər peşələrə istiqamətlənən gənclərlə aparılan işdən xeyli çətindir. Təəssüf ki, bu sahədə ciddi nöqsanlara yol verilir. Səbəbi isə müəllimlərimizin yaradıcılıq sahəsinə meyl edən şagirdlərin özlərinə məxsus, başqalarından fərqli xüsusiyyətlərə malik olduqlarını lazımınca qiymətləndirməmələri və bu cəhəti peşəyönümü üzrə aparılan işlərdə nəzərə almamalarıdır.

Yaradıcılıq, məsələn, rəssamlıq, heykəltaraşlıq, bəstəkarlıq, aktyorluq, rejissorluq, jurnalistlik sahələrindən birinə ciddi maraq göstərən şagird özünün xüsusi qabiliyyəti, davranışı, həyat hadisələrinə münasibəti, duyğu və düşüncəsi ilə çoxlarından fərqlənir. Belə istedadlara daha həssaslıqla yanaşmağa ciddi ehtiyac duyulur.

Təəssüf ki, bəzi müəllimlər bu cür şagirdlərə kömək etmək əvəzinə laqeydlik göstərir, onları hətta lağa qoyurlar. Burada mənim yadıma məktəblərdən birində şagirdin öz ədəbiyyat müəllimi haqqında gileyi düşür. Həmin şagird deyirdi:

— Mənə nə vaxtsa, sinif yoldaşlarım "qəribə oğlan" ləqəbi veriblər. Müəllimlərim də belə çağırır, bəzənsə kinayə edirlər. Ədəbiyyat müəllimim isə daha pis ləqəb verib. Səbəbi budur ki, onun maraqlandığı şeylər bəzən məni maraqlandırmır, onun düşüncələri bəzən mənə gülünc görünür. O, şagirdlərimizlə vədələşib dərsdən sonra futbol oynayır, mən isə futbola maraq göstərmirəm. O, oxuduğu hər bir əsəri bəyənir, mən isə bəzilərini bəyənmirəm.

Həmin şagird bədii yaradıcılıqla məşğul olurdu (hazırda tanınmış yazıçılardandır). Gün rejimini elə qurmuşdu ki, mütaliə ilə məşğul olmaq və hekayə yazmaq üçün daha çox vaxt sərf edirdi. Buna görə də dərsdən sonra az qala qaranlıq düşənəcən futbol oynayan yoldaşlarına qoşulmağa imkanı olmurdu. Belə şagirdlər çox həssas, kövrək, çılğın, ötkəm olurlar; odur ki,



Scanned with ACE Scanner

Fəqət... Mən istəyirəm ki, arif oxucu özü nəticə çıxartsın: qəzet niyə fəaliyyətini dayandırdı? Halbuki, bu vaxt yeni-yeni qəzetlər yaranır və məşhurlaşırdı.

Deyim ki, Təhsil Nazirliyi rəhbərlərinin Baş nazirə və digər müvafiq orqanlara qədər həyəcanlı məktubları olur və həmin məktublarda pedaqoji mətbuatın maliyyə kasadlığı (yalnız maliyyə kasadlığımı?!) ucbatından bağlanacağı bildirilirdi. Axı, hansı mətbuata dövlət pul verirdi ki, pedaqoji qəzet də yaddan çıxmasın?

Bəli, pedaqoji mətbuat öz fəaliyyətini dayandırdı. "Azərbaycan müəllimi"nin rəhbərliyi əmr verib redaksiyanın bağlandığını kollektivə elan etdi. Əməkdaşlar özlərinə iş axtarmağa başladılar. Beş ay çıxmayan, redaktorsuz qalan, qarşıdan isə altmış yaşı gələn qocaman bir qəzetə ikinci həyat vermək üçün məni dəvət edəndə növbəti əzablı günlərim başladı. Qısaca deyəcəyəm: qəzeti yaşatmaq üçün vəsait yox idi, abunəçilərdən yığılan altı ayın pulu xərclənmişdi, dövlət heç nə vermirdi və verməyəcəkdi də. Ştatda otuza yaxın işçi vardı. Bunu nə vaxtsa olsa da, bazar iqtisadiyyatı şəraitində, təsərrüfathesablı fəaliyyət məqamında ötüşdürmək olmazdı. Mən bu barədə təhsil naziri cənab Firudin Cəlilova məlumat verdim. Çətinliklərdən yan keçmək, nəşriyyata külli miqdarda borcdan yaxa qurtarmaq üçün nazir qərara gəldi ki, "Öyrətmən" adlı yeni bir qəzet açılsın. Hətta bu barədə əmr də verildi. Həmin əmrdə mən baş redaktor təyiun edildim. Etiraf edim ki, mən bu əmrlə razılaşmadım. Ona qalsa, "Təhsil" qəzetini çıxardırdım. Açıq deyəcəm, bu o "Təhsil" idi ki, bir gün "Azərbaycan" qəzetinin baş redaktoru Mehman Cavadoğlu mənə zəng vurub soruşdu: "Bəy (yəni Prezident Əbülfəz Elçibəy) deyir get qəzet çıxartmağı "Təhsil"dən öyrən, axı sən orada nə verirsən ki, bəy bu cür deyir?". Mənim cavabım belə oldu: rəhbərlərdən tənqid verirəm, yəni nazirlərdən, rektorlardan və s. Həmin vaxt sonuncu yazımız Xarici Dillər Universitetinin rektoru Zemfira Verdiyevadan idi: "Sandığı açsaq, neylərsən?".

Mən isə öz ənənəsi olan qocaman bir qəzeti — "Azərbaycan müəllimi"ni yaşatmaq istəyirdim. Bu halda nazir bütün yükü üstümə atdı və mənə möhlət verdi. Altı nəfər yaradıcı işçi seçdim. Maliyyə yardımçıları soraqlamağa başladıq. Əlimizdən ilk tutan Futurologiya İnstitutunun rektoru, pedaqoji elmlər doktoru, professor Rasim Əsədov oldu. (Yeri gəlmişkən xatırladım ki, bir neçə il əvvəl həmin instituta 2000 kitab bağışlamışdım). Rektor "Azərbaycan müəllimi"nin "Azərbaycan" nəşriyyatına bütün borclarını nəğd pulla ödədi. Qəzet 1993-cü ilin mart ayında mənim baş redaktorluğumla fəaliyyətə başladı. Bununla bərabər, Təhsil Qanununun 39-cu maddəsinə istinad edərək, pedaqoji mətbuatın dövlət büdcəsindən maliyyələşdirilməsi tələbi ilə respublika rəhbərləri qarşısında fasilə vermədən məsələlər qaldırdıq. Maliyyə Nazirliyi (nazir Saleh Məmmədov və müavini Fikrət Yusifov) bizə qəzetdə hər cür reklamlar verib, ətrafımıza oxucular yığmağı tövsiyə etdi. Baş nazirlin müavinləri (Əsgər Məmmədov, Kamil Vəliyev) maliyyə imkanının olmadığını bildirib, başqa çıxış yolu axtarmağımızı məsləhət gördülər. Biz isə onlara qəzet səhifələrində tənqidlə cavab verdik, ünvanlarına daimi teleqram dərc etdik. Bunun nəticəsi olaraq, Bakı Şəhər Fövqəladə Vəziyyət üzrə Komendantlığı məni 6 saat saxladı və nazirin Prezidentə müraciətindən sonra nəzərdə tutulan 1 aylıq həbsdən azad etdi. Bir az sonra redaksiyamız, şəxsən baş redaktor kimi mən dövlət rəhbərliyindən təzyiq yolu ilə qəzet üçün maliyyə əldə etməkdə günahlandırılaraq məhkəməyə verildik. Respublika prokurorluğu (baş prokuror İxtiyar Şirinov) həm bu səbəbdən, həm də ona ünvanlanmış tənqidimizə görə bizi istintaqa cəlb etdi. (Yazmışdıq: necə olur ki, nəzarət hüququna malik olan belə bir orqan dövlətdən əlavə xərc üçün üç yüz milyon rubl ala bilir, amma Məşədi İbadın hambalı demişkən, bizim bir abbasımızın qayğısını çəkmir?). Əlbəttə, biz haqlı idik və haqq da qalib gəldi. İstintaq dayandı. Bir çoxları mübarizəmizdə bizə arxa durdu və maliyyə yardımı təşkil etdi. Şəxsi tanışlığımız olmayan millət vəkili Mətləb Mütəllimov da zəng vurub mübarizədə redaksiyamızla həmrəy olduğunu bildirdi və maliyyə problemimizin həllinə ilkin mərhələdə öz təşkilatçılığı ilə kömək əlini uzatdı. Üst-üstə əllidən çox təşkilat və müəssisə, ayrı-ayrı adamlar, hətta işsiz qaçqın müəllimlər müraciətlərimizə laqeyd qalmadılar, qəzetin müntəzəm nəşri üçün yardım etdilər. Biz



bunlar barədə "Azərbaycan müəllimi"ndə vaxtaşırı məlumat dərc etmişik. Bu sahədə nazirliyimizdəki bəzi yoldaşlarımızın köməyini də xüsusi qeyd etmək istəyirəm. Amma onu da deməyə bilmirəm ki, redaksiyamızın hesabına köçürülmək üçün verilmiş 5 milyon rublun nazirlikdə 3 milyonunu plan-iqtisadiyyat idarəsinin rəisi bizdən əsirgədi. Halbuki o, tamam başqa təşkilatlara qarşı olduqca səxavətli idi.

"Azərbaycan müəllimi"nin fəaliyyəti bərpa edilsə də, o, hər həftə çıxa bilmirdi. Bir yandan kağız qıtlığı, bir yandan da inflasiya problemlər yaradırdı. Biz gücümüzü eyni zamanda ona yönəldirdik ki, qəzet oxucuların mənəvi-pedaqoji tələblərini ödəyə bilən informasiya vasitəsinə çevrilsin. Bunun üçün xüsusi plan tutub, aktual mövzular müəyyənləşdirdik və tamamilə yeni rubrikalar açdıq. Rubrikalardan bəzilərini xatırlatmaq istəyirəm: "Təhsil Qanunu işığında", "Məktəbşünaslıq", "Təhsil şöbələrində nə var, nə yox?", "Texniki peşə məktəblərinin problemləri", "Orta ixtisas təhsili", "Ali təhsil", "Məsləhət", "Oxucu hər şeyi bilməlidir", "Düşünmək lazımdır", "Həlli vacib məsələ", "İş təcrübəsi", "Məktəbəqədər tərbiyə: problemlər", "Metodika", "Pedaqoji söhbət", "Məktəb və pedaqogika tarixi", "Qabaqcıl məktəblər", "Müəllim nə düşünür?", "Ziyalı sözü", "Tələbə söz istəyir", "Siz bir valideyn kimi...", "Taleyimdə müəllim: məktəb və istedad" və s.

Qaldırdığımız problemlərin bir neçəsi nazirlikdə və prezident aparatında müzakirə olunub, müvafiq tədbir görüldü. Çalışırdıq ki, yazılarda təhsil işçilərinə öyüd-nəsihət yox, istiqamət verək, kömək edək, onların istək və arzularını, qayğı və ehtiyaclarını işıqlandıraq. Beləliklə, "Azərbaycan müəllimi"ni sevdirək və yaşadaq. Bunun üçün nazirlikdə və onun strukturlarında çalışan qələm əhlinin imkanlarından da geniş istifadə etdik.

Redaksiyanın iş şəraitini də yaxşılaşdırmağa səy göstərdik. Ayrı-ayrılıqda bəzi əməkdaşlarımızın redaksiyaya sponsor tapılmasında, iş otaqlarının sponsorların gücü ilə təmir olunmasında, ölkəmizin bu ağır sınaq dövründə vətənpərvərlik təşəbbüsləri qaldırılmasında xidmətləri əvəzsizdir.

Məhz kiçik yaradıcı kollektivin, artıq hər cür şablon, stereotip düşüncədən uzaq, özünə tənqidi münasibət bəsləyən, cüzi halal maaşı ilə dolanan pedaqoq-jurnalistlər dəstəsinin gərgin əməyi hesabına "Azərbaycan müəllimi" sevilə-sevilə ömrünün 60 yaşlı müdrik çağına qədəm qoydu. 1994-cü ilin noyabr ayında "Aktyor evi"ndə başda təhsil naziri cənab Lidiya Rəsulova olmaqla bütün rəhbərliyin iştirakı ilə qəzetin 60 illiyi təntənəli şəkildə qeyd edildi. Orada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin kollektivimizə təbrik məktubu oxundu.

Oxuculara verdiyimiz vədə — qəzetin nəşrində fasiləsizliyi təmin etmək vədinə sadiq qaldıq ki, bu da redaksiyamıza abunə pulundan əlavə milyonlarla rubla başa gəldi. Çünki abunədən sonra xərclər kosmik sürətlə artırdı. Bir sözlə, sınaqlardan üzüağ çıxdıq. "Azərbaycan müəllimi"nin adı hətta Beynəlxalq Millətlər Təşkilatının kataloquna düşdü. Sonralar təhsil naziri cənab Misir Mərdanov pedaqoji mətbuat işçiləri ilə görüşdə üzünü mənə və cəfakeş kollektivimə tutub deyəcəkdi: "Bütövlükdə mən bu qəzetin fəaliyyətindən razıyam. Son illər qəzetin səviyyəsi xeyli yüksəlmişdir. Qəzetlə Təhsil Nazirliyinin əlaqələri sıxlaşıb. Mənə verilən məlumata görə, hazırda qəzet özü özünü maliyyələşdirir. Bir çox qəzetlərdən fərqli olaraq, "Azərbaycan müəllimi" çətinliklərə mərdliklə sinə gərərək bu günədək yaşaya bilib, özü də öz ziyalılı simasını qoruyaraq saxlayıb. Bu qəzetdə yalnız və yalnız dövlətçiliyimizlə bağlı yazılar görürük. O, müəllim adına layiq səviyyədə çıxır, təhsil islahatının həyata keçirilməsində pedaqoji ictimaiyyətə yaxından kömək edir".

İstəsən və istəməsən də, həqiqətdən qaçmaq olmur. 60-la 70 yaş arasındakı həqiqətdən! Sevinirəm ki, mən bu qəzetə 10 ilə yaxın rəhbərlik etmiş, onun bərpasına və dirçəlişinə nail olmuşam.

Respublika müəllimlərinin mənim haqqımdakı xoş sözləri isə əməyimə verilən yeganə və ən böyük qiymətdir...



Scanned with ACE Scanner

# YENİ AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİ: MÜLAHİZƏLƏR

**Vaqif QURBANOV,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent,**
**Həqiqət QƏDİMOVA,**
**filologiya üzrə fəlsəfə doktoru**

***Açar sözlər:*** *yeni dərsliklər, pedaqoji düşüncələr, milli kurikulum, ana dili.*

Öncə belə bir cəhəti xüsusilə qeyd etmək istərdik ki, Təhsil Nazirliyinin nüfuzlu ekspert komissiyası tərəfindən müzakirə olunaraq bəyənilən dərslikləri təhlil etmək üçün didaktikaya, metodikaya və I-XI sinif Azərbaycan dili kurikulumuna yaxından bələd olmaq lazımdır [2,s.6-34]. Eyni zamanda onu da bilmək lazımdır ki, bu vaxta qədər kurikulum tələbləri əsasında yazılan I-IV sinif "Azərbaycan dili" dərslikləri təcrübədə sınaqdan çıxarılmış və təkmilləşdirilmiş şəklə salınmışdır. Biz onlardan bəziləri haqqında sözümüzü bu və ya digər dərəcədə demişik. Hazırda növbə V sinif "Azərbaycan dili" dərsliyinin olduğundan (Altun kitab, 2012, 199 s.) fikir və mülahizələrimizi konkret olaraq həmin dərsliyə aid edəcəyik [3]. Bu dərsliyin müəllifləri də I-IV siniflər üzrə "Azərbaycan dili" dərsliklərini tərtib edənlər – Rafiq İsmayılov, Dilruba Cəfərova, Gülarə Xudiyeva və Xanım Qasımovadır. Belə bir dərsliyin təhlilini vermək üçün əvvəlcə onun məzmununu öyrənməyə, sonra onunla keçirilən dərsləri bir neçə il ərzində təcrübədə müşahidə etməyə çalışdıq. Eyni zamanda, bu dərsliyin didaktik cəhətlərini qabaqcıl müəllimlər və metodist alimlər arasında müzakirələrini keçirdik.

Onu da xüsusi olaraq vurğulamalıyıq ki, ana dili kurikulumu əsasında yazılan dərsliklər üçün yeni təlim texnologiyası və yeni təlim metodlarının didaktik imkanlarına uyğun olması başlıca şərt sayılır. Həmin dərsliklərə Azərbaycan Respublikası Təhsil Nazirliyində yaradılmış nüfuzlu mütəxəssislərdən ibarət ekspert komissiyası müsbət rəy vermişdirsə, deməli, ona prinsip etibarilə hörmətlə yanaşmalı və qəbul etməliyik. Biz öz təhlilimizin metodologiyasını bu prinsipə görə müəyyənləşdirdik. Ancaq bəzən bu yol əsas tutulmur və nəticədə başqa yollar da seçilir; belə ki, dərslik və dərsliyə dair metodik vəsait istehsalata tətbiq olunan kimi, bir növ, təhlilə yox, təftişə başlanır-özü də köhnə fikirlərlə. Bəs köhnə fikirlər hansılardır? **Birinci-** dil dərsliyinin linqvistik materiallarla başlanmasının vacib olması; **İkinci-** dərslikdə təriflərə, qaydalara çox yer verilməsi və çalışma mətnlərinin yalnız biliyin bacarıq və vərdişə çevrilməsinə xidmət



etməli olması; **Üçüncü-** şagirdlərin təfəkkürünü inkişaf etdirmək üçün çalışmaların linqvistik sualların cavablarının axtarılmasına yönəlməsinin vacib sayılması və s.

Bizim qəti fikrimizcə, kurikulum təhsilinə uyğun yazılan V sinfin "Azərbaycan dili" dərsliyi də yuxarıdakı ölçülərlə düşünənlərin nəzərində öz həqiqi qiymətini ala bilməz. Odur ki, bizim də elmi mübahisələrimiz bu əsasda davam edir. Biz opponentlərə kurikulum təlimini, Qərb təhsili fəlsəfəsini, Bolonya prosesinə qoşulmağımızı xatırladır və bunları oxumağı məsləhət bilirik:

Təhsilimizin strategiyası barədə fikir yürüdən hər bir pedaqoq və ya nəzəriyyəçi alim gərək mütləq "Ana dili kurikulumu nədir?" sualına cavab tapsın. Bu cavabın çox əsaslı olması üçün "Kurikulumun hazırlanması və tətbiqi sənədləri" adlı vəsaitə diqqətlə baxsın ("Kövsər" nəşriyyatı, 2008, 224 s.). Həmin sənəddə göstərilir: "Ana dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbatları, şagirdlərin imkanları və maraqları nəzərə alınmışdır" [1,s.130]. Onun hazırlanmasında əsas prinsiplərdən biri nəticəyönümlükdür. Konkret demiş olsaq, məsələ belə qoyulur: "Ümumtəhsil məktəblərində ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqda şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir" [1,s.131]. Göründüyü kimi, burada əsas diqqət şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına yönəldilmişdir. Çünki orta məktəbi başa vuran hər bir gənc təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün təkcə elmi-nəzəri hazırlığa deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlərə, o cümlədən dil və ünsiyyət bacarıqlarına malik olmalı, yazılı və şifahi şəkildə səmərəli, yaradıcı ünsiyyət qurmağı bacarmalıdır. Bunun üçün də o, ana dilinə ibtidai, əsas və tam orta təhsil pilləsində yiyələnməyə çalışmalıdır [1,s.132].

...Əsas təhsil pilləsində şagirdlərdə ifadəli və şüurlu oxu, aydın və səlis, düzgün və ifadəli, şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi, nitqin leksik, qrammatik və üslubi cəhətdən zənginliyi, təcrübi baxımdan əhəmiyyətli olan dilçilik anlayışları və qaydalarının mənimsənilməsi, dil hadisələri zəminində şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində ana dilinə məhəbbət və hörmət hissinin formalaşdırılması təmin edilir [1,132 s.]. Bütün bunları nəzərə almaqla ana dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, təhsilin bütün pilləsi üzrə aşağıdakı məzmun xətləri təyin edilmişdir:

- Dinləyib-anlama və danışma.
- Oxu.
- Yazı.
- Dil qaydaları.

Əvvəlki proqramlarda "Qrammatika, yazı və nitq inkişafı" bacarığı ilə fonetika, sözün tərkibi, leksika, morfologiya və sintaksisə aid anlayışların



Scanned with ACE Scanner

təsviri verilmiş, bunlar tədris olunacaq təlim materialları kimi təsdiq edilmişdir.

Yeni ana dili kurikulumunda müəyyən olunmuş məzmun xətləri daha çox praktik əhəmiyyəti, ictimai dəyəri ilə seçilir [1, s.133].

Opponentlərimizə göstərilən sənəddə bu yazılanları səbrlə, axıra qədər oxumalarını tövsiyə edirik.

***Azərbaycan dili fənni üzrə təlim nəticələri.***

*Ümumorta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:*

- *dinlədiyi fikrə münasibət bildirməklə mövqeyini əsaslandırır;*
- *mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir;*
- *dil vahidlərindən istifadə etməklə müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur və onları təkmilləşdirir;*
- *müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir;*
- *şifahi və yazılı nitqində zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*

***V sinif***

- *dinlədiyi məlumatlarda əsas fakt və hadisələri müəyyənləşdirir;*
- *fikrini fakt və nümunələrlə əsaslandırır;*
- *lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyənləşdirir;*
- *mətni tələffüz qaydalarına uyğun oxuyur;*
- *mətndəki əsas fikri müəyyənləşdirir;*
- *mövzu ilə bağlı topladığı materialları ümumiləşdirir;*
- *mətnin tərkib hissələrini fərqləndirir;*
- *müxtəlif əməli yazılar (elan, məktub) yazır;*
- *cümlənin məqsəd və intonasiyaya görə növləri, sözün səs tərkibi, semantikası, tərkibi, yaranma üsulları və qrammatik mənasına (ad, əlamət, hərəkət bildirməsi) aid xüsusiyyətləri mənimsədiyini nümayiş etdirir;*
- *sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir, cümlənin sonunda və dialoqlarda durğu işarələrini tətbiq edir.*

***Məzmun xətləri üzrə əsas və alt-standartlar***

***1. Dinləyib-anlama və danışma***

***Şagird:***

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*
*1.1.1. Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır.*
*1.1.2. Dinlədiyi məlumatlardakı əsas faktları seçir.*
*1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
*1.2.1. Deyəcəyi fikrə müvafiq ifadə forması seçir.*
*1.2.2. Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.*
*1.2.3. Danışarkən mimika və jestlərdən yerli-yerində istifadə edir.*
*1.2.4. Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir.*

***2. Oxu***

***Şagird:***

*2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.*
*2.1.1. Lüğətdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir.*
*2.1.2. Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir.*
*2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.*
*2.2.1. Tələffüz qaydalarını gözləməklə mətni düzgün oxuyur.*
*2.2.2. Mətnin tərkib hissələrini fərqləndirir.*
*2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir.*

***3. Yazı***

***Şagird:***

*3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*
*3.1.1. Müxtəlif yazı formalarını (ifadə, inşa, esse, hekayə) fərqləndirir.*
*3.1.2. Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır.*
*3.1.3. Mətnin tərkib hissəsini (giriş, əsas hissə və nəticə) əlaqələndirir.*
*3.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.*



***4. Dil qaydaları***

***Şagird:***

*4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*
*4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərinə ayırır*
*4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.*
*4.1.3. Cümlənin sonunda və dialoqlarda durğu işarələrindən məqsədyönlü istifadə edir.*
*4.1.4. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir (2,s.21)*

Müzakirə təriqi ilə açdığımız söhbətlərin birində dilçi-nəzəriyyəçi professora V sinif "Azərbaycan dili" dərsliyinin didaktik üstünlüklərini belə xarakterizə etdik: bu dərslik nəticəyönümlü kurikulum əsasında tərtib olunaraq təlim məqsədləri və məzmun xətlərinə uyğun xarakterdə qurulmuşdur.

Öyrənilən mətndir, tədqiq olunan nitq parçasının dil xüsusiyyətləridir. Onun üzərində ədəbi dilin normaları əsasında əməliyyat aparılır: fonetik, leksik, qrammatik və üslubi.

Əvvəllər təlim işi dil qaydaları, normaları ilə başlar və dərk etdirilməsi üçün nitq materialı verilərdi və şagirdlər dildən nitqə getməkdə, yəni nümunələr söyləməkdə çətinlik çəkərdilər. İndiki halda isə dərs nitq materialını müşahidələrdən linqvistik nəticələr hasil olunur və anoloji mətn yaratmaqla öz apogeyinə yüksəlir. Bu üsul yaradıcı düşüncəyə, mədəni nitq zənginliyinə açılan yoldur və alqışlanmağa layiqdir. Çətin dərk olunması onunla əlaqədardır ki, bu barədə az yazılmış, deməli, təbliğatı zəif olmuşdur. Həmin diskussiya-dialoqmuzdan fraqmental olaraq burada da istifadə etsək yerinə düşər.

Opponent: Sizcə, dərsliyin əsas məzmunu dil qaydaları, linqvistik materiallardan ibarət olmalı deyilmi?

Cavab: Azərbaycan dili fənnin adıdır. Mənası azərbaycanca danışmağı öyrətmək üçün vəsait deməkdir.

Opponent: Əgər paraqraf – mövzu oxu mətni ilə başlayırsa, hansı biliklərdən söhbət gedir?

Cavab: Mətnlə başlayır; çünki dili nitq parçası ilə öyrədərlər.Mətn də dinləyib-anlamanı, yəni 1-ci məzmun xəttini mənimsəməyə xidmət edir.

Opponent: Bəs onda dil qaydaları necə olsun?

Cavab: Əvvəla,məzmun xətti dinləyib-anlama, sonra oxu, daha sonra yazı və sonda dil qaydalarına uyğun qurulanda nitq dildən önə keçmiş olur ki, bu da nitq mədəniyyəti aşılamaq təlimi və ya nəticəyönümlü təlimdir.

Opponent: Dərsliyə mən də baxmışam. Orada qaydalar görməmişəm, ancaq müxtəlif tipdən olan mətnlər görmüşəm.

Cavab: Siz V sinif "Azərbaycan dili" dərsliyini özündən əvvəlki sələfləri ilə müqayisə edirsiniz, ancaq onun proqram və ya kurikulum tələbləri əsasında tərtib olunduğunu nəzərə almırsınız. Yeni dərslikdə dil qaydaları öz yerində, yəni yazı məzmun xəttindən sonra verilir və belə materiallara 53 yerdə və ya 70 səhifədə rast gələ bilərsiniz. Bu qədər materialı necə görməmək olar?

*Məgər bunlar dil qaydaları deyil?*



Scanned with ACE Scanner

nitq (danışıq) zamanı tələffüzü gözləmək kimi ciddi məsələlərdən söhbət gedir.

2. Dərsliyin tapşırıqlarında nəzəri və təcrübi inteqrasiya tələbləri olmalıdır. Bu tələblərlə həm dərsliyin tərtibi prinsiplərini və həm də metodik vəsaitlərin nüvəsini zənginləşdirmək olar.

Beləliklə, biz görürük ki, bu məsələ geniş müzakirələrin (elmi-praktik konfransların, seminar – müşavirələrin) mövzusudur və belə tədbirlər keçirilməyincə, habelə dərslik haqqında linqvodidaktlar danışmayınca nəzəriyyəçi dilçilər müəllimləri çaşdırmalı olacaq və bu məsələ səhv qənaətlərə, oprior düşüncələrə aparıb çıxaracaqdır. Bizim isə qəti fikirimiz elədir ki,Azərbaycan dili dərslikləri nitq-dil-nitq formulasına uyğun olmalıdır. Bu, sağlam düşüncənin gəldiyi nəticədir.Avropa mədəniyyətinə inteqrasiya aparan xətt-istiqamət məhz belədir.

Əlbəttə, bu fikri ehkam kimi qəbul etmək də doğru olmazdı. Çünki Azərbaycan dili kurikulumu və dərslik tərtibi prinsipləri elmi-praktik konfransların mövzusu kimi araşdırılmalıdır. Əsl həqiqəti də belə tədbirlərdə müzakirə etmək daha doğru olardı.Belə bir təşəbbüsə rəvac verilməsi bizim qəti qənaətimizdir. Pedaqoqları və linqvistləri bu təklifə fəal qoşulmağa çağırırıq. Eyni zamanda qaldırdığımız elmi-pedaqoji problemlə əlaqədar jurnallarımızda məqalələr dərc olunmasını və televiziya kanallarında dəyirmi masalar, açıq söhbətlər keçirilməsini təklif edirik.

### ƏDƏBİYYAT


1. *Kurikulumların hazırlanması və tətbiqi məsələləri (metodik tövsiyə). "Kövsər" nəşriyyatı, Bakı, 2008, 224 s.*
2. *Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, "Mütərcim", 2012, 402 s.*
3. *Rafiq İsmayılov, Dilruba Cəfərova, Gülarə Xudiyeva, Xanım Qasımova. Azərbaycan dili (V sinif üçün dərslik). "Altun kitab", Bakı, 2012, 200 s.*


### XÜLASƏ


*Məqalədə ümumitəhsil məktəblərinin V sinifləri üçün kurikuluma uyğun tərtib edilən "Azərbaycan dili" dərsliyindən söhbət açılır;onun haqqında uzun müddətdən bəri və indinin özündə də dərslik tərtibçiləri kimi fəaliyyət göstərən nəzəriyyəçi-dilçilərin fikirlərinə tənqidi münasibət bildirilir. Eyni zamanda yeni ana dili dərsliklərinin tərtibi prinsiplərinə və məzmun strukturuna təhlilinə dair elmi-praktik konfransların keçirilməsinin vacib olması təklifləri verilir.*


### РЕЗЮМЕ


*В статье высказывается мнения о новых учебниках по родному языку, анализируются принципы составления новых учебников по нацианальному курикулуму и рекомендуется необходимости проведения научно-практических конференций по этому вопросу, с участием лингводидактов, лингвометодистов, лингвистов-авторов учебников и учителей родного языка.*






## ƏDƏBİ ALƏMDƏ

Yazıçılar Birliyinin "Natəvan" klubunda görkəmli ictimai xadim, maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin 150 illik yubileyi qeyd edilib. Tədbirdə Milli Məclisin mədəniyyət komitəsinin sədri, Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov Azərbaycan Respublikasının Pezidenti İlham Əliyevin "Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 21 yanvar tarixli sərəncamını ümumilikdə Azərbaycan ziyalılığına verilən qiymətin daha bir nümunəsi kimi dəyərləndirib. AYB-nin sədri, xalq yazıçısı Anar bildirib ki, Əli bəy Hüseynzadə XIX əsrin əvvəllərində Azərbaycan və eyni zamanda, türk xalqlarına yol göstərən və müxtəlif elm sahələrində dəyərli əsərlər yaradan tarixi şəxsiyyətlərdəndir. Filologiya üzrə elmlər doktoru Nizaməddin Şəmsizadə, "Əli bəy Hüseynzadə" ensiklopedik kitabının müəllifi Azər Turan, AYB-nin katibi Arif Əmrahoğlu və başqaları Əli bəy Hüseynzadənin həyat və yaradıcılığından söz açıblar.

***

1941-ci ilin oktyabr ayında Leninqradın faşistlər tərəfindən blokadada saxlanılması zamanı şəhərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illiyi ilə bağlı baş tutmuş konfransa dair martın 13-də Rusiya Dövlət Ermitajı, Sankt-Peterburqun Dövlət Universiteti, Sankt-Peterburqun İctimai Palatası və Ümumdünya Peterburqlular Klubunun birgə təşkilatçılığı ilə xatirə gecəsi keçirilib. Tədbirdə Azərbaycanın Sankt-Peterburq şəhərindəki baş konsulluğunun əməkdaşları, rusiyalı alimlər və ziyalılar, ictimai-siyasi xadimlər, Azərbaycan diasporunun üzvləri, tələbələr, mətbuat nümayəndələri iştirak ediblər.

***

Martın 14-də "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqının təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Prezident yanında Gənclər Fondu və Azərbaycan Yazıçılar Birliyinin dəstəyi ilə Muğam Mərkəzində "Gənc şairələrin II beynəlxalq Forumu" keçirilib. Forumda 24 ölkənin gənc şairələri iştirak ediblər.

***

Azərbaycanın Qırğızıstandakı səfirliyi və bu ölkənin Mədəniyyət, İnformasiya və Turizm Nazirliyi Bişkekin A.Maldıbayev adına Milli Opera və Balet Teatrında Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar ilə görüş təşkil etmişlər. Görüşdə Azərbaycan Yazıçılar Birliyinin katibləri, Qırğızıstanın şair və yazıçıları, elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun nümayəndələri iştirak etmişlər. Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov görkəmli yazıçı Anarın yubileyinin qardaş Qırğızıstanda keçirilməsini ölkələrimizin mədəni həyatında mühüm hadisə adlandırmışdır.

***

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ictimai xadim, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin 150 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilmişdir.

***



Scanned with ACE Scanner

Britaniya alimləri Midlseks Universitetinin professoru Rey Aylesin rəhbərliyi altında onkologiyada əsl çevriliş ediblər. Onlar xərçəngin ən qorxulu növlərinin, o cümlədən döş, bağırsaq, yumurtalıq, mədəaltı vəzi xərçənginin inkişafının qarşısını alan, hətta şişləri kiçildən vaksin yaradıblar. Bəzi aqressiv şişləri yalnız hamilə qadınlarda müşahidə olunan hormonlar əmələ gətirir. Söhbət xroniki qonadotropin hormonundan (hCG) gedir. Hamiləlik testi zamanı məhz bu hormon həlledici rol oynayır, yəni cavabın müsbət olduğunu göstərir. Professor Rey Ayles müəyyən edib ki, sidik kisəsi xərçənginin bəzi növlərində, mədəaltı vəzi, yumurtalıq, döş və bağırsaq xərçəngi hallarının yarısında hCG-nin müəyyən forması əmələ gəlir. Onun yaratdığı vaksin hCG-ni məhv etmək üçün immun sisteminin proqramını yenidən qurur. Nəticədə şişlər azalır, metastaz prosesləri ləngiyir. Vaksinin insanlar üzərində ilkin klinik sınaqları uğurla başa çatır. Buna baxmayaraq alimlər onu yalnız 5 ildən sonra bazara çıxarmaq niyyətindədirlər. Vaksin təkcə Böyük Britaniyada hər il minlərlə insanın həyatını xilas edə biləcək.

***

Yaponiya alimləri plastik su yaradıblar. Mineral gil və poliakrilat natrium qatılmış yeni materialın 90 faizi elə sudan ibarətdir. Bu su nə insanlar, nə də ekologiya üçün təhlükəlidir. Onun əsas tərkib hissəsi olan mineral gildən kosmetologiyada, poliakrilat natriumdan isə uşaq əskilərinin istehsalında geniş istifadə olunur. Şəffaf və elastik olan yeni material plastikin müəyyən növlərini əvəzləyəcək. Tərkibində kimyəvi maddələr olmadığı üçün təbabət və kosmetologiyada ona böyük ümidlər bəslənir. Belə ki, yeni materialın gələcəkdə silikonu əvəzləyəcəyi, cərrahiyyə əməliyyatlarında geniş tətbiq ediləcəyi gözlənilir. Plastik su toxumaları yapışdırmaq xüsusiyyətinə də malikdir. Sənayedə tətbiq etmək üçün onun sıxlığını artırmaq lazımdır. Neft ehtiyatları ilbəil azaldığından, sıxlığı yüksək olan belə suya ehtiyac artacaq. Hazırda neftdən alınan plastik kütlə plastik sudan istehsal oluna bilər.

***

Yeni Zelandiyanın Oklend Universitetinin alimləri balıqların "söhbətinə" qulaq asa biliblər. "Leigh Marine Reserve" dəniz qoruğundakı lent yazıları sübut edib ki, ümumi rəyə görə, planetin ən dinməz canlıları əslində söhbətcildir və müxtəlif səslər çıxarmağa qadirdir. Tədqiqat qrupunun rəhbəri Şahraman Qazalinin sözlərinə görə, hər balıq səs çıxara bilir, lakin həmin səslərin heç də hamısı eşidilmir. Səslərin yüksəkliyi və tezliyi balıqların rezonator kimi istifadə etdiyi hava köpükləri boyunca yerləşmiş əzələlərin vibrasiyasından asılıdır. Balıqlar "söhbət etmək" qabiliyyətindən öz növlərindən olan digər balıqları cəlb etmək, yırtıcıları qorxutmaq və onların olduğu yeri müəyyənləşdirmək üçün istifadə edir.

***





**Hüseyn Cavid . "Şeyda", Bakı, 2013.** Hüseyn Cavidin anadan olmasının 130 illiyi münasibətilə Hüseyn Cavidin Ev Muzeyinin və Bakı Slavyan Universitetinin birgə layihəsi əsasında "Şeyda" əsəri 10 dilə (rus, ingilis, alman, fransız, polyak, belarus, bolqar, Ukrayna, çex, yunan) tərcümə edilərək çap olunub.

***

**Allahverdi Məmmədli. "Molla Nəsrəddin" ədəbi məktəbində milli varlıq problemləri". Bakı, "Elm" nəşriyyatı, 2012.** Monoqrafiya milli, bədii, publisistik fikir tariximizdə azərbaycançılığın tarixi kökləri, "Molla Nəsrəddin" ədəbi məktəbində bu ideologiyanın yeri, Cəlil Məmmədquluzadə başda olmaqla mollanəsrəddinçilərin ədəbi-bədii yaradıcılığından keçən milli varlıq-problemləri öz əksini tapmışdır.

***

**Məsiağa Məhəmmədi. "Şəms və Mövlanə". İran "Təkderəxt" nəşriyyatı, 2013.** Tanınmış şərqşünas, filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədinin "Şəms və Mövlanə" kitabı İranda ərəbəlifbası ilə işıq üzü görüb. Kitaba sufizmin və bütövlükdə Şərq bədii-fəlsəfi düşüncəsinin parlaq simalarından olan Şəms Təbrizi və Mövlana Cəlaləddin Rumi haqqında maraqlı məqalələr, onların yaradıcılığından tərcümələr daxil edilib. Müəllif orta əsr qaynaqlarına əsaslanaraq, Şəms Təbrizinin şəxsiyyəti və düşüncələri üzərinə işıq salıb, onun tərcümeyi-halının bəzi qaranlıq və mübahisəli məqamlarına aydınlıq gətirib. Topluda, həmçinin, Mövlananın irəli sürdüyü fəlsəfi-ictimai təlimin yığcam və anlaşıqlı şərhi verilib, onun ədəbi irsinin bu gün də aktual və müasir olmasını şərtləndirən başlıca amillərdən bəhs edilib.

***

**Əli Vəliyev, "Budağın xatirələri. I və II kitab", Bakı, "İrfan" nəşriyyatı, 2012.** Xalq yazıçısı Əli Vəliyevin "Budağın xatirələri" romanı keçən əsrin 60-cı illərində qələmə alınmışdır. Əsər avtobioqrafik səciyyəlidir, əsas qəhrəman müəllifin özüdür – onun uşaqlığı, gənclik illəri, həmçinin, ədəbiyyat aləminə gəlişi, o dövrün (1920-1930-cu illər) ictimai-siyasi və mədəni mənzərəsi əks olunmuşdur. Romanın redaktoru yazıçı Afaq Məsuddur.

***

**Azad Qaradərəli. "Burada kişi var?". "Qanun" nəşriyyatı, 2013.** Bu kitabda tanınmış yazıçının son bir neçə ildə qələmə aldığı hekayələr cəmlənib. Bu hekayələrin qəhrəmanları içdən sınmış, yaxud sındırılmış insanlardır. Kimi yurd itirib, kimi ailəsini, kimi də mənliyini...

***

**Azad Qaradərəli. "Şəhərcik". "Qanun" nəşriyyatı, 2014.** Bu əsər müəllifin sayca üçüncü romanıdır. Romanda günümüzün başlıca problemləri öz bədii əksini tapmışdır.

***



Scanned with ACE Scanner

**BAŞ REDAKTOR:**
Məhəmməd BAHARLI

**MƏSUL KATİB:**
Vaqif ALKƏRƏMOV

**ŞÖBƏ REDAKTORLARI:**
Oqtay ABBASOV
Soltan HÜSEYNOĞLU

**REDAKSİYA HEYƏTİ:**
ANAR
Ağamusa AXUNDOV
Ənvər ABBASOV
Nizami CƏFƏROV
Nurlana ƏLİYEVA
Qənirə ƏMİRCANOVA
Tofiq HACIYEV
İsa HƏBİBBƏYLİ
Nizami XUDİYEV
Qəzənfər KAZIMOV
Əsgər QULİYEV
Şəmistan MİKAYILOV

**Ünvan: Bakı-10, Dilarə Əliyeva küçəsi, 227, 6-cı mərtəbə, otaq 608.**
**Telefonlar: 498-55-33; 493-06-09. Faks: 498-55-33.**
**E-mail: mehemmed-baharli@mail.ru**
**Kağız formatı 60x84 1/8. Uçot nəşr vərəqi 5.**
**Şərti çap vərəqi 6,3.**
**Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi 191.**
**Lisenziya V 236.**
**Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.**
**Jurnal ildə 4 dəfə çıxır. O, redaksiyanın kompüterində yığılır, «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində çap olunur.**
**Çapa imzalanıb: 28.03.2014.**
**Jurnala abunə mətbuat yayımı şöbələrində aparılır.**
**Bir nüsxənin abunə və satış qiyməti 2 manatdır.**



Scanned with ACE Scanner

İNDEKS 1012




Scanned with ACE Scanner